**Azərbaycanda beynəlxalq proqram akkreditasiyası təcrübələri: Bakı şəhərində yerləşən beş ali təhsil müəssisəsi nümunəsində keyfiyyət araşdırması**

Təhsil üzrə Menecment, ADA Universiteti

EDUC-6499, Master's Thesis II

Fənn müəllimi: Könül Abaslı

Elmi rəhbər: Abbas Abbasov

Tələbə: Namiq Aslanov

2025

## Həqiqilik bəyanatı

Mən ADA-nın plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, “ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri” adlı bu dissertasiyanın məzmunu mənim şəxsi işimdir. Bəyan edirəm ki, təqdim etdiyim bu dissertasiya işi tamamilə mənim tərəfimdən yerinə yetirilmişdir və burada istifadə olunan bütün mənbələrə müvafiq qaydada istinad edilmişdir. Bu işi elmi əxlaq və ənənələrə zidd olan hər hansı bir yol və yardımdan istifadə etmədən yazdığımı, təsdiq edirəm. Bununla bildirirəm ki, ADA Universitetində magistratura səviyyəsi üzrə təqdim etdiyim bu magistrlik dissertasiyası, ilkin tədqiqat və nailiyyətim heç bir dərəcə və imtahan üçün təqdim olunmayıb.



İmza: N. C. Aslanov

Tarix: 25.10.2025

## Minnətdarlıq

Bu tədqiqat prosesində biliyi və təcrübəsi ilə mənə yol göstərən, böyük səbrlə bütün suallarıma cavab verən, həmçinin mənəvi dəstəyini əsirgəməyən elmi rəhbərim hörmətli Abbas Abbasova tövsiyələri və şərhləri üçün minnətdarlığımı bildirirəm. Tədqiqat layihəsinin hazırlanması istiqamətində əldə etdiyim bilik və bacarıqlara görə hörmətli müəllimim Könül Abbaslıya, magistratura proqramı müddətində daima bizə peşəkarlıqla dəstək olan dekan Ülviyyə Mikayılovaya və akademik məsləhətçimiz Kamal Musayevə öz təşəkkürümü bildirirəm.

Həmçinin, araşdırmada iştirak edən ATM-lərə, prosesə dəstək verdikləri üçün minnətdarlığımı bildirirəm.

Bu layihənin həyata keçirildiyi müddətdə mənə hər növ dəstək olan dostlarıma və ən əsası atdığım hər addımda yanımda olan, mənə mənəvi dəstək olan anama təşəkkür edirəm.

## Xülasə

Beynəlxalq proqram akkreditasiyası ATM-in ayrı-ayrı proqramlarının müəyyən keyfiyyət standartlarına cavab verdiyini qiymətləndirən və təsdiqləyən bir prosesdir.

Proqram akkreditasiyası proqramlarının keyfiyyətini artırmaq, müvafiq beynəlxalq standartlara cavab vermək, bu istiqamətdə həyata keçirilən prosesləri təkmilləşdirmək və tələbələrə etibarlı təhsil vermək məqsədi daşıyır. Bu proses ATM-lərdə proqramlarının, resurslarının, tədris metodlarının, idarəetmənin, müəllim-tələbə əlaqələrinin və digər komponentlərin bu standartlara uyğunluğunu qiymətləndirir. Bu tədqiqat işi Azərbaycanda ATM-lərinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri öyrənmək və əldə olunan nəticələri ATM-lər ilə bölüşmək məqsədi ilə aparılmışdır. Tədqiqat 5 ATM-də 17 proqram üzrə aparılmışdır. Araşdırmada keyfiyyət metodlarından müsahibələrdən və mətn təhlilindən istifadə edilmişdir. Müsahibələr tədqiqatçı tərəfindən hazırlanan yarı strukturlaşdırılmış müsahibə forması ilə aparılmış və dataların təhlilində məzmun analiz üsulu istifadə edilmişdir. Seçmə qrup qeyri-təsadüfi yolla seçilmiş 14 müsahibdən ibarətdir.

Dataların məzmun təhlili nəticəsində aşağıda qeyd edilən mövzular kateqoriyalaşdırılmış və sıralanmışdır: *agentliklər haqda məlumatlar, akkreditasiya prosesi, akkreditasiya prosesinin mərhələləri, dəyişikliklər, tələbə məmnunluğu, çətinliklər, tövsiyələr, irad və təkliflər.*

Araşdırmanın nəticələrinə əsasən beynəlxalq akkreditasiya prosesi yeddi mərhələdən ibarətdir: müraciət, hazırlıq, özünütəhlil hesabatı, ilkin qiymətləndirmə, sahə səfəri, yekun hesabat və təkrar monitorinq. Araşdırmanın nəticələrinə əsasən beynəlxalq proqram

akkreditasiyası ATM-lərin keyfiyyət təminatı sistemlərinin institusional səviyyədə güclənməsinə, beynəlmiləlləşmə proseslərinin intensivləşməsinə, akademik və idarəedici heyətin məsuliyyətinin artmasına səbəb olur. Proses nəticəsində struktur dəyişiklikləri, tədris metodlarının yenilənməsi, müəllimlərin peşəkar inkişafı və tələbə məmnunluğunun artması müşahidə olunur. Bununla yanaşı ATM-lər beynəlxalq təcrübə qazanmaqla yanaşı növbəti akkreditasiyaya hazırlanmış olurlar. Tanınma və beynəlmiləlləşmə ATM-lərin beynəlxalq proqram akkreditasiyasına müraciətlərinin əsas səbəbləridir. Araşdırma beynəlxalq proqram akkreditasiyasına müraciət etmək istəyən digər ATM-lər üçün təlimat kimi istifadə oluna bilər.

**Açar sözlər:** ***Ali təhsil, akkreditasiya, proqram akkreditasiyası, beynəlxalq akkreditasiya***.

# Mündəricat

**Giriş** ........................................................................................................ **5**

**Ədəbiyyat təhlili** .......................................................................................... **11**

**Nəzəri çərçivə** .............................................................................................. **31**

**Metodologiya** ............................................................................................... **34**

**Data təhlili** .................................................................................................... **44**

**Tapıntılar** ....................................................................................................... **45**

**Müzakirə və naticə** ........................................................................................ **71**

Müzakirə ........................................................................................................ 71

Naticə ............................................................................................................. 73

Tövsiyələr ...................................................................................................... 76

Məhdudiyyətlər ............................................................................................. 75

**Ədəbiyyat siyahısı** ......................................................................................... **79**

**Əlavələr** .......................................................................................................... **90**

## Azərbaycanda beynəlxalq proqram akkreditasiyası təcrübələri: Bakı şəhərində yerləşən beş ali təhsil müəssisəsi nümunəsində keyfiyyət araşdırması

# Giriş

**Mövzunun aktuallığı**

Hazırkı dövrdə elm və texnikanın sürətli inkişafı həyatın bütün sahələrinə sirayət edir və sürətli inkişaf daima yeni biliklər və bacarıqlar tələb edir. İnkişaf etməkdə olan dünyaya uyğunlaşmaq üçün bir sıra bacarıqlara və ya səriştələrə ehtiyac var. Araşdırmaçılar tərəfindən 21-ci əsr bacarıqları adlandırılan bu bacarıqlara yaradıcılıq, tənqidi düşüncə, orijinal düşüncə, ünsiyyət, əməkdaşlıq, liderlik, vaxtın idarə edilməsi, problemlərin həlli, qərar qəbul etmə və innovasiya kimi bacarıqlar aiddir (Gürcü & Meryem, 2021). Bu bacarıqlar, ali təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla, müəyyən dövr üçün dövlət standartları şəklində ali təhsilə inteqrasiya etmişdir. Azərbaycanda 21-ci əsr bacarıqları ilə təhsil standartları arasındakı əlaqə ali təhsil pilləsinin dövlət standartlarında (Nazirlər Kabineti, 2010), Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi sənədində (Nazirlər Kabineti, 2018) öz əksini tapmışdır. Səriştələrin dünyada dəyişən maraq və tələblərə ekvivalent olması çox vacib şərtdir. Bu uyğunluğun saxlanılması üçün bütün təhsil pillələri üzrə müəyyən standartlar hazırlanmışdır və vaxtaşırı təkmilləşdirilir (Nazirlər Kabineti, 2010; 2020). Bu standartların həyata keçirilməsinə nəzarət keyfiyyətli təhsilin təminatıdır.

Keyfiyyət təminatı anlayışı ATM-in və ya proqramının daxili və xarici keyfiyyət standartlarına uyğun olaraq keyfiyyət və icra proseslərini tam şəkildə yerinə yetirdiyinə əmin olmaq üçün həyata keçirilən bütün planlaşdırılmış və sistematik proseslərdir (Ayvaz et al., 2016). İnkişafı hədəf götürmüş hər bir ATM həm öz daxilində, həm də, maraqlı tərəflərin nöqteyi-nəzərində özünü ölçmək istəyir. Bu əslində ATM-in keyfiyyət siyasətinin bir

hissəsidir. Keyfiyyət siyasəti ATM-lərin strateji məqsədləri haqqında informasiyaya ehtiyacı olan maraqlı tərəflər üçün faydalı istinad nöqtəsidir (İbad & Cavidan, 2023).

ABŞ Ali Təhsil Akkreditasiyası Şurası (CHEA) ATM-lərin və proqramlarının keyfiyyətinin nəzərdən keçirilməsi prosesi akkreditasiya adlandırır (CHEA, n.d.). Akkreditasiya ATM-lərin davamlı inkişafını və rəqabət qabiliyyətini təmin edən mühüm bir vasitədir. Bu proses ATM-in keyfiyyətini, akademik proqramlarının səviyyəsini, resursların təkmilləşdirilməsini, tədris resurslarını və idarəetmə mexanizmlərini qiymətləndirmək məqsədi daşıyır. Keyfiyyətin qiymətləndirilməsi fəaliyyətlərin əvvəlcədən müəyyən edilmiş standartlara və meyarlara uyğunluq dərəcəsinə dair məlumatların toplanması və təhlilindən ibarətdir (İbad & Cavidan, 2023). Bir qayda olaraq akkreditasiyadan keçmiş ATM-lərin diplom və dərəcələrinin beynəlxalq səviyyədə tanınma imkanları artır, valideynlər, tələbələr və cəmiyyət qarşısında ali məktəbin nüfuzunu və etibarlılığı güclənir. Akkreditasiya birdəfəlik proses deyil, əksinə, uzunmüddətlidir və periodik olaraq təkrarlanır.

Azərbaycanda ATM-lərin akkreditasiyası "təhsil müəssisələrinin akkreditasiyası qaydaları"na (bundan sonra "akkreditasiyası qaydaları") əsasən aparılır. Bu qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmişdir və 14 dekabr 2020-ci il tarixli, 493 nömrəli qərarı ilə dəyişiklik edilmişdir. Akkreditasiya qaydalarının (Nazirlər Kabineti, 2020) 1.7.1. bəndində qeyd olunur ki, "akkreditasiya "təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılan və təhsil müəssisəsinin statusunun, hər bir proqram üzrə təhsilalanların say həddinin müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradan prosedurdur".

Akkreditasiya prosesi institusional və proqram olmaqla iki növə ayrılır. Təhsil müəssisəsinin akkreditasiyası Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən 5

ildən bir həyata keçirilir. Müvafiq keyfiyyət sənədinin – şəhadətnamənin verilməsi ilə başa çatır (TKTA, n.d.). Hər bir ixtisas üzrə kadr hazırlığı potensialının və təhsilalanların say həddinin müəyyən olunmasına hüquqi təminat yaradır.

Proqram akkreditasiyası isə ATM-lərdə tədris edilən təhsil proqramlarının maddi-texniki və tədris bazasını, təhsilverənlərin keyfiyyət göstəricilərini və tələbələrin bilik, bacarıq və vərdişlərinin səviyyəsinin əmək bazarının tələblərinə uyğunluğunu və proqramın icrasını qiymətləndirir, həmçinin ixtisaslar üzrə kadr hazırlığı potensialının və təhsilalanların say həddinin müəyyən olunmasına hüquqi təminat yaradır (Nazirlər Kabineti, 2020). TKTA (n.d.) qeyd edir ki, onların həyata keçirdiyi proqram akkreditasiyası üçün dövlət rüsumu nəzərdə tutulmur. İnstitusional akkreditasiya üçünsə ATM dövlət rüsumu ödəyir. Proqram akkreditasiyası, müəyyən bir təhsil proqramının keyfiyyətini və standartlara uyğunluğunu qiymətləndirmək məqsədi daşıyır. Bu proses, proqramın məzmunu, tədris metodları, müəllim heyəti və tələbə nailiyyətləri kimi aspektləri əhatə edir (Ayvaz et al., 2016).

Beynəlxalq proqram akkreditasiyalarını isə bu statusu qazanmış müstəqil və qeyri-hökumət beynəlxalq akkreditasiya agentlikləri aparır. Manarbek et al. (2018) qeyd edir ki, bu agentliklərin hər birinin öz ixtisaslaşmış sahəsi (məsələn, mühəndislik, biznes, humanitar elmlər) və fərqli yanaşmaları olsa da, ümumi cəhətlər onların eyni məqsədə – təhsilin keyfiyyətini artırmağa – xidmət etdiyini. Ümumi şəkildə qeyd etsək onların hamısı beynəlxalq səviyyədə qəbul edilmiş standartlara və göstəricilərə əsaslanırlar, təhsil keyfiyyətinin yüksəldilməsi və davamlı təkmilləşdirilməsini təmin etməyə çalışırlar. ATM-ləri və proqramları akkreditasiya edərək onların beynəlxalq səviyyədə tanınmasını təmin edir, şəffaflıq, obyektivlik və etibarlılıq əsas prinsiplər kimi qəbul edirlər (Aktan & Gencel 2010).

Manarbek et al. (2018) beynəlxalq akkreditasiyanın ATM-lərə və agentliklərə bir-birindən öyrənmək, yeni yanaşmalara və həll yollarına açıq olmaq üçün böyük təcrübə gətirməsi fikrini təsdiqləyir (Viligaila, 2012, *as cited in* Manarbek et al. 2018). ATM-lərin

mötəbər təşkilat tərəfindən akkreditasiyası valideyn və müəllimlərin universitetlərə inamını artırır (Aktan & Gencel 2010). Bu təşkilatlar ATM-lərin keyfiyyət standartlarını müəyyən edir və onların beynəlxalq səviyyədə tanınmasını təmin edir. Bunlardan Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA), ABŞ Ali Təhsil Akkreditasiyası Şurasının (CHEA), Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) və Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin (IAAR) adlarını qeyd etmək olar. Bu mövzu beynəlxalq proqram akkreditasiyası prosesində ATM-lərin əldə etdiklərini və bu sahə üzrə təcrübələri öyrənmək baxımından xüsusi əhəmiyyət daşıyır. Digər ölkələrdə olduğu kimi Azərbaycanda da, beynəlxalq proqram akkreditasiyasının aparılmasını ATM-lərin inkişafı və rəqabətə davamlılığı baxımından mühüm hesab olunur. Bu istiqamətdə təcrübələrin öyrənilməsi, proqram akkreditasiyası prosesini təkmilləşdirmək baxımından, ATM-lər arasında təcrübə mübadiləsi baxımından faydalı ola bilər və digər ATM-lər üçün təlimat rolu oynaya bilər. Qeyd etməliyəm ki, Azərbaycanda ATM-lər beynəlxalq proqram akkreditasiyası mövzusunda təcrübələri yeni qazanmağa başlayıblar, bu istiqamətdə Azərbaycanda aparılmış, hamı üçün əlçatan olan tədqiqata rast gəlmədim. Hesab edirəm ki, bütün bunları nəzərə alsaq, tədqiqat işi bu günə qədər beynəlxalq proqram akkreditasiyasından keçmiş universitetlərin təcrübələrini öyrənmək, müzakirə etmək və tapıntılar faydalı olduğu təqdirdə, digər universitetlərin də, marağına səbəb ola bilər.

**Tədqiqatın məqsədi.**

Bu tədqiqatın məqsədi Azərbaycanda ATM -lərin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri öyrənmək, proses zamanı keçdiyi mərhələləri, qarşılaşdığı çətinlikləri və əldə etdiyi nəticələri işıqlandırmaq, həmçinin bu prosesə dair işçilərin baxış və təcrübələrini keyfiyyət yanaşması əsasında dərindən öyrənməkdir.

Araşdırmanın nəticələrin beynəlxalq proqram akkreditasiyasına müraciət etmək istəyən digər ATM-lər üçün təlimat rolu oynayacağı və bu istiqamətdə elmi ədəbiyyat sayının artması

rolu gözləntilər arasındadır. Araşdırmanın beynəlxalq akkreditasiya prosesində iştirak edən ATM-lərin inkişafına birbaşa töhfə verməsi və onlar arasında mövzuya dair qarşılıqlı təcrübə mübadiləsini təmin etmək potensialı onun əhəmiyyətini artırır. Araşdırma zamanı aşağıdakı tədqiqat suallarına cavab axtarılıb:

***ATM-lərin beynəlxalq proqram akkreditasiyası ilə bağlı təcrübələri nələrdir?***

- ATM-lərin akkreditasiya olunan proqramların seçimi, prosesin mərhələləri və tətbiq olunan meyarlara dair təcrübələri nələrdir?
- ATM-lər beynəlxalq akkreditasiya prosesində hansı agentliklərlə əməkdaşlıq ediblər?
- ATM-in akademik və inzibati-idarəetmə heyəti bu proseslərdə necə iştirak ediblər?

***ATM-lərin akademik və inzibati-idarəetmə heyəti beynəlxalq akkreditasiya prosesinin ATM-in fəaliyyətinə təsirləri barədə nə düşünürlər?***

- Beynəlxalq akkreditasiyanın ATM-in idarəetmə strukturu, strateji planlaşdırması, tədrisin keyfiyyəti və ümumi fəaliyyətinə qazandırdığı faydalar (təsirlər və dəyişikliklər) nələrdir?
- ATM-in akademik və inzibati-idarəetmə heyəti akkreditasiya prosesini necə qiymətləndirir və bu prosesdən sonra tələbə məmnunluğu müşahidə olunurmu?

***Bu proseslərdə qarşıya çıxan əsas çətinliklər və imkanlar hansılardır?***

- Beynəlxalq proqram akkreditasiyası prosesi zamanı qarşıya çıxan əsas çətinliklər nələrdir və ATM-lər bu prosesin nəticəsi olaraq hansı tövsiyələri alıblar?
- Akkreditasiya prosesi ATM-lərə hansı imkanları qazandırır və heyətin prosesin yaxşılaşdırılması üçün irad və təklifləri nələrdir?

**Tədqiqatın vəzifələri.**

Tədqiqatın məqsədinə çatmaq üçün mərhələli şəkildə aşağıdakı işlər görüləcək:

- Mövzu üzrə ədəbiyyatların təhlilini aparmaq;
- Tədqiqatın konseptual əsaslarını müəyyənləşdirmək;
- İstifadə olunacaq metodları müəyyən etmək və araşdırma vasitələrini hazırlamaq;
- Data toplamaq;
- Əldə olunan dataları təhlil edib ümumiləşdirmək.

**Tədqiqatın obyekti.**

Tədqiqatın obyekti Azərbaycanın beynəlxalq proqram akkreditasiyasında iştirak etmiş ATM-lərdir. Azərbaycanda ATM-lərin beynəlxalq proqram akkreditasiyası üçün müraciət edib-etmədikləri məsələsinə gəldikdə, universitetlərin rəsmi veb-səhifələrini nəzərdən keçirdikdə yalnız 5 ATM-in beynəlxalq proqram akkreditasiyasının təsdiqləndiyi məlum olur. Bunlar ADA Universitetinin biznesin idarə edilməsi üzrə həm bakalavr (BBA), həm də magistr (MBA) proqramları (ADA University, n.d.), Azərbaycan Tibb Universitetinin müalicə işi, əczaçılıq, stomatologiya ixtisasları (Azərbaycan Tibb Universiteti, 2022), Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistratura səviyyəsi üzrə "İdman tibbi və reabilitasiya", "İdman menecmenti" ixtisasları, bakalavriat səviyyəsi üzrə "İdman menecmenti və kommunikasiya" ixtisası, Azərbaycan Memarlıq və İnşaat Universitetinin bakalavriat səviyyəsində "İnşaat mühəndisliyi" və "Nəqliyyat tikintisi mühəndisliyi" ixtisasları, magistratura səviyyəsində "İnşaat mühəndisliyi" ixtisası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bakalavriat səviyyəsində "Operator sənəti", "Aktyor sənəti" və "Teatrşünaslıq" ixtisaslarıdır (TKTA, n.d.).

**Tədqiqatın predmeti.**

Tədqiqatın predmeti beynəlxalq proqram akkreditasiyasında iştirak etmiş ATM-lərin proseslə bağlı təcrübələrini - prosesin mərhələlərinin, baş verən dəyişikliklərin, qarşıya çıxan çətinliklərin, tövsiyə və təkliflərin öyrənilməsidir.

**Tədqiqatın metodları.** Tədqiqatda keyfiyyət metodlarından müsahibələrdən və mətn təhlilindən istifadə edilmişdir. Sənəd təhlilində qanunlar, hesabatlar, akkreditasiya meyarları kimi sənədlər təhlil edilmişdir. Müsahibələr tədqiqatçı tərəfindən hazırlanan yarı strukturlaşdırılmış müsahibə forması ilə aparılmış və dataların təhlilində məzmun analiz üsulu istifadə edilmişdir.

## Ədəbiyyat təhlili

**Ali təhsildə keyfiyyət.**

Keyfiyyət anlayışına müxtəlif təriflər vermək mümkündür. Ədəbiyyatda bu anlayışla bağlı fərqli yanaşmalar mövcuddur. Martin, Elg və Gremyr (2025) keyfiyyəti maraqlı tərəflər qrupları arasında subyektiv şəkildə formalaşan və fikir birliyinə əsaslanan dəyərlər sistemi, eləcə də ekosistemlərin inteqrasiyası kimi təqdim edir. Burada müəlliflər ekosistem dedikdə təşkilatın fəaliyyətindən təsirlənən çoxsaylı maraqlı tərəflərin, resursları inteqrasiya edərək dəyər yaratdığı qarşılıqlı əlaqələr şəbəkəsini nəzərdə tutur.

Digər tədqiqatçı De Gigovanni (2024) isə keyfiyyətin "istehlakçıların istədikləri" olduğu fikrini vurğulayır. O, Feigenbaumun (1983, *as cited in* De Giovanni, 2024) keyfiyyətin mütləq mənada "ən yaxşı" deyil, "müəyyən müştəri şərtləri üçün ən yaxşı" olduğu fikri ilə həmrəydir. Bu yanaşma keyfiyyət anlayışının müştərinin tələblərindən asılı olaraq dəyişən nisbi anlayış kimi təqdim edir. Ədəbiyyatda tez-tez istinad olunan Juran (1999) keyfiyyət anlayışı haqqında iki müxtəlif fikir söyləmişdir. Keyfiyyət - məhsulların müştəri ehtiyaclarına cavab verən və bununla da müştəri məmnuniyyətini təmin edən xüsusiyyətləri deməkdir və "keyfiyyət" çatışmazlıqlardan azad olmaq deməkdir" (Juran, 1999, pp. 2,1–2,2). Burada çatışmazlıqlardan azad olmaq dedikdə, bir işi təkrar icra etməkdən, əlavə iş yükündən azad olmaq mənasında işlədilib. Ümumi şəkildə ifadə etsək, keyfiyyət həm mövcud tələbləri yerinə yetirmək, müştəri məmnunluğu, həm də gələcək tələbləri qabaqlayaraq rəqabətdə üstünlük qazanmaq üçün müvafiq standartlara uyğunluq kimi fikirlərlə izah edilir (İbad & Cavidan, 2023).

Həyatın bir çox sahələrində keyfiyyətsiz görülmüş bir işi və ya istehsal olunmuş məhsulu yenidən icra etmək və ya istehsal etmək mümkündür. Təhsilə qoyulan investisiyaların faydaları isə (əmək məhsuldarlığı və performans) dərhal deyil, müəyyən edilməmiş bir vaxt müddətindən sonra ortaya çıxır (Rafid, 2023). Bu isə o deməkdir ki, Raikounun (2019) vurğuladığı kimi, təhsil prosesi uzaq perspektivli fəaliyyət olduğu üçün, onun nəticələri məlum olanda həmin nəsil üçün nəyi isə dəyişmək artıq gec olur. Bu səbəbdən də, prosesin keyfiyyətinə nəzarət etmək üçün təhsildə keyfiyyət təminatı vacib anlayış kimi ortaya çıxır. Keyfiyyət təminatı təhsil prosesinin davamlı və sistematik qiymətləndirildiyi halda özünü doğruldur. Ali təhsildə keyfiyyət təminatı müəssisənin daxilində həyata keçirilən, hər hansı proqramın müəyyən standartlara nə dərəcədə uyğun olduğunu aşkar edən proseslərin bütünü kimi müəyyən edilə bilər (Özen, 2022). Keyfiyyətin təmin edilməsi baxımından, daxili və xarici keyfiyyət təminatı mexanizmləri həlledici əhəmiyyət kəsb edir.

**Daxili keyfiyyət təminatı.**

ENQA daxili keyfiyyət təminatını ATM-lərdə təhsilin keyfiyyətini müəyyən edən, onu qoruyub saxlayan, mütəmadi inkişaf etdirən, tədris-təlim prosesində keyfiyyətin davamlı olaraq stimullaşdıran və təkmilləşdirən bir mexanizm kimi izah edir. Daxili keyfiyyət sistemləri müəssisəyə keyfiyyətlə bağlı əsas fəaliyyətləri idarə etmək və nəzarət etmək, habelə planlaşdırma, sənədləşdirmə və xidmətin davamlı təkmilləşdirilməsini təmin etmək imkanı verir (ENQA, n.d.).

Azərbaycan qanunvericiliyində ATM-in daxili keyfiyyət təminatı dövlət təhsil standartları ilə bilavasitə əlaqəlidir. “Daxili keyfiyyət təminatı dedikdə, təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun, təhsil müəssisəsində səmərəli və müasir tələblərə uyğun tədris mühitinin yaradılmasının və onun fəaliyyətinin özünütəhlil əsasında davamlı inkişafının təmin olunmasına xidmət edən daxili idarəetmə qiymətləndirmə sistemi başa düşülür” (Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları, 2020, 1.7.9.).

Elmi ədəbiyyatda müxtəlif müəlliflər daxili keyfiyyət təminatına baxışlarını müxtəlif şəkildə ifadə edirlər. Martinin (2018) fikrincə daxili keyfiyyət təminatı ATM-lərin keyfiyyət məsələlərinə cavab olaraq öz daxillərində qurduqları monitorinq və idarəetmə mexanizmləridir. Kayyali (2023) isə daxili keyfiyyət təminatını müəssisələrin tədris təcrübələrini mütəmadi olaraq yaxşılaşdırmasına imkan verən yanaşmalar - müəllim heyətinin inkişafı, kurikulum dizaynı, özünüqiymətləndirmə prosesi kimi izah edir. Nassehi et al. (2018) bir araşdırma zamanı belə bir qənaətə gəliblər ki, daxili qiymətləndirmə potensial olaraq çox dəyərlidir, lakin onun uğurlu olması üçün müəssisənin idarəetmə strukturunda daxili keyfiyyəti təmin edən daimi mexanizm qurulmalı və bu proses təşkilatın ayrılmaz hissəsinə çevrilməlidir. Daxili keyfiyyət təminatı həm də, ATM-in vəzifə öhdəliyinə daxildir (ENQA, n.d.).

**Xarici keyfiyyət təminatı.**

Xarici keyfiyyət təminatı isə xarici agentliklər tərəfindən ATM-lərin əvvəlcədən müəyyən edilmiş standartlar və meyarlar əsasında qiymətləndirilməsidir. Bu standartlara və meyarlara cavab verən müəssisələrə akkreditasiya və ya keyfiyyətli təhsil proqramlarının tələblərinə cavab verən sertifikat verilir (Mirzaeva & Khoshimov, 2024). Xarici keyfiyyət təminatı ictimai etimadı artıran hesabatlılıq yaradır. Bu hesabatlılıq mexanizmi ATM-lərdə keyfiyyətin yaxşılaşdırılması prosesinin obyektivliyini və inkişafetdirici rolunu təmin edir. İnkişafın davamlılığını təmin etmək üçün daxili və xarici keyfiyyət təminatı prosesləri arasında sağlam tarazlıq qorunmalıdır (ENQA, 2009).

Ansah (2015) ali təhsildə xarici keyfiyyət təminatını praqmatist yanaşma əsasında müzakirə edərək 3 əsas funksiyasını önə çıxarır: Xarici keyfiyyət təminatı ATM-lərin fəaliyyət göstərməli olduğu çərçivələri təmin etməklə ali təhsildə standartlara zəmanət vermək məqsədi daşıyır, xarici maraqlı tərəflərin maraqlarını qorumaqla ATM-lər üçün ictimaiyyətin gözündə legitimliyi təmin edir və hesabatlılığı təşviq edir.

Kayyali (2023) də, oxşar fikir irəli sürərək xarici keyfiyyət təminatının tənzimləyici çərçivələr, akkreditasiya və qiymətləndirmə vasitəsilə ATM-lərdə hesabatlılıq, şəffaflıq və müqayisə imkanlarını təşviq etdiyini qeyd edir. Digər müəllif Martin (2018) xarici keyfiyyət təminatı mexanizmlərini ATM-lərin və onların proqramlarının keyfiyyətinə nəzarət etmək üçün hökumətlər tərəfindən tətbiq edilən bir vasitə hesab edir. Duarte və Vardasca (2023) qeyd edir ki, ATM-lərin və onların müvafiq proqramlarının keyfiyyətini təmin etməyə çalışan əsas proses akkreditasiyadır. Müəlliflər həmçinin vurğulayırlar ki, akkreditasiya təhsil təminatçılarının həm təhsil ictimaiyyətinin, həm də bütövlükdə cəmiyyətin gözləntilərinə cavab verən standartları qoruyub saxlamasını təmin edən əsas mexanizmlərdən biridir (Duarte & Vardasca, 2023).

Qeyd olunan fikirlərdən belə nəticə çıxarmaq olar ki, ATM-lərin daxili və xarici keyfiyyətinin təmin olunması akkreditasiya prosesi ilə sıx bağlı olsa da, akkreditasiya mahiyyət etibarilə xarici keyfiyyət təminatı mexanizmidir. Akkreditasiya ATM-lərə və yaxud proqramlara öz fəaliyyət standartlarını özünü qiymətləndirməyə və həmçinin səlahiyyətli akkreditasiya orqanları tərəfindən kənardan qiymətləndirilməyə imkan verən sistemdir (Aktan & Gencel, 2010). Ali təhsildə keyfiyyət təminatı və akkreditasiya prosesləri, qlobal səviyyədə dəyişən təhsil standartları və beynəlxalq əməkdaşlıq çərçivəsində inkişaf etmişdir. Müxtəlif ölkələrdə tətbiq olunan akkreditasiya prosesləri və keyfiyyət təminatı mexanizmləri milli və regional xüsusiyyətlərə uyğun olaraq dəyişiklik göstərir (Ayvaz et al., 2016; Aktan & Gencel, 2010).

**Beynəlxalq akkreditasiya və beynəlxalq təşkilatlar.**

Müxtəlif ölkələrin ali təhsil üzrə milli tələbləri və strategiyaları fərqli olsa da, onlar keyfiyyətdə uyğunluq əldə etmək üçün beynəlxalq tərəfdaşlığa maraqlıdırlar. Avropa ölkələri arasında ali təhsil standartlarının uyğunluğunu və keyfiyyətini təmin etmək məqsədilə beynəlxalq tərəfdaşlıq sistemi - Avropa Ali Təhsil Məkanı (EHEA) yaradılmışdır (Council of

Europe, 2025). EHEA ATM-lərdə daxili və xarici keyfiyyət təminatı üçün vahid çərçivə yaratmaq, təhsil sistemləri arasında qarşılıqlı etimadı və tələbə mobilliyini gücləndirmək məqsədilə keyfiyyət təminatı üzrə standartlar və təlimatlar toplusu - Standards and Guidelines for Quality Assurance (ESG 2015) yaratmışdır. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG) toplusu dörd prinsipə əsaslanır: ATM-lər göstərdikləri təhsilin keyfiyyəti və onun təminatı üçün əsas məsuliyyət daşıyırlar; keyfiyyət təminatı tələbələrin, bütün digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və gözləntilərini nəzərə alır; keyfiyyətin təminatı ali təhsil sistemlərinin, institutlarının, proqramlarının və tələbələrinin müxtəlifliyinə cavab verməlidr; keyfiyyətin təminatı keyfiyyət mədəniyyətinin inkişafına dəstək verir (ENQA, 2015). ENQA-nın üzvləri akkreditasiya prosesi zamanı bu prinsiplərə əsaslanırlar.

Akkreditasiya ali təhsil sahəsində həm milli, həm də beynəlxalq səviyyədə etibar qazanan əsas keyfiyyət təminatı vasitəsi kimi qəbul edilir və bu, təhsil müəssisələrinin qlobal təhsil bazarında rəqabət qabiliyyətini artırır (Kılıçaslan, 2020). Beynəlxalq akkreditasiya prosesləri ATM-lərin və proqramlarının keyfiyyət standartlarına uyğunluğunu təsdiq edən əsas mexanizmlərdən biri hesab olunur. Bu proses, akademik fəaliyyətlərin şəffaflığını təmin etmək, diplomların beynəlxalq səviyyədə tanınmasını asanlaşdırmaq və tələbə mobilliyini təşviq etmək məqsədi daşıyır (ENQA, 2021).

Beynəlxalq akkreditasiya, əsasən, iki əsas istiqamətdə həyata keçirilir: İnstitusional və proqram akkreditasiyası. İnstitusional akkreditasiya ATMnin ümumi fəaliyyətini və idarəetmə sistemini qiymətləndirərkən, proqram akkreditasiyası müəyyən təhsil proqramlarının keyfiyyət göstəricilərini qiymətləndirir (Aktan və Gencel, 2010). EHEA-da qəbul edilmiş ESG standartları bu proseslərin konseptual çərçivəsini müəyyən edir. ESG, ali təhsildə daxili və xarici keyfiyyət təminatını təmin etmək və təhsil müəssisələrinin davamlı inkişafını təşviq etmək üçün istifadə olunan əsas sənəd hesab edilir (ENQA, 2021).

Tədqiqatlar göstərir ki, akkreditasiya prosesləri təhsil müəssisələrinin etibarını artırmaqla yanaşı, təhsilalanların akademik və peşəkar hazırlıq səviyyəsinə olan inamını da, gücləndirir (Kumar, Shukla, & Passey, 2020). Bu kontekstdə, beynəlxalq akkreditasiya mexanizmlərinin təkcə texniki yoxlama prosesi deyil, həm də keyfiyyətin idarə olunmasının mühüm tərkib hissəsi olduğu vurğulanır (Ayvaz et al., 2016). ESG standartları bu proseslərin konseptual çərçivəsini müəyyən edir və təhsil müəssisələrinin beynəlxalq səviyyədə harmonizasiyasına töhfə verir (Efremova və Tabishev, 2020). Michael (2017) keyfiyyət təminatının "dayaq mexanizmi" kimi akademik auditin rolunu vurğulayır. Akademik audit mahiyyət etibarilə təhsil müəssisəsinin akademik fəaliyyətini, proseslərini və nəticələrini qiymətləndirmək məqsədi ilə sistemli şəkildə aparılan yoxlamalardır.

"Effektiv akademik auditin akkreditasiya performansına təsiri" adlı araşdırmada müəlliflər akademik auditi ATM-lərdə keyfiyyəti təmin etmək üçün istifadə olunan bir alət kimi təsvir edirlər (Kumar et al., 2025). Onun əsas məqsədi keyfiyyət təminatını gücləndirməkdir. Təhsil standartlarının qlobal səviyyədə yüksəlməsi fonunda, akademik auditlər müəssisələrin proseslərinin effektiv, müasir və şəffaf qalmasını təmin etmək üçün həyati əhəmiyyət kəsb edir. Akkreditasiya və akademik audit sistemləri ölkələr üzrə fərqlənir: bəzi ölkələrdə bu proseslər məcburi xarakter daşıyır, digərlərində isə könüllü əsasda həyata keçirilir. Həmçinin, keyfiyyət təminatı agentlikləri müxtəlif statuslara malik ola bilər dövlət, qeyri-dövlət və ya müstəqil qurum kimi fəaliyyət göstərə bilirlər (Toprak & Sakar, 2020).

Beynəlxalq akkreditasiya proseslərinin inkişafında ali təhsil sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar mühüm rol oynayır. Ali Təhsil Akkreditasiyası Şurası (CHEA) ABŞ-də fəaliyyət göstərən, ATM-lərin və proqramlarının akkreditasiyasını təmin edən əsas qurumlardan biridir. CHEA, akkreditasiya təşkilatlarının şəffaflığını və hesabatlılığını artırmaq, həmçinin tələbələrin diplomlarının qlobal səviyyədə qəbulunu asanlaşdırmaq məqsədilə fəaliyyət göstərir (CHEA, n.d.). CHEA-nın əsas funksiyalarına təhsil

müəssisələrinin keyfiyyət göstəricilərinin təsdiqi və akkreditasiya mexanizmlərinin inkişafı daxildir. CHEA, həmçinin beynəlxalq akkreditasiya şəbəkələri ilə əməkdaşlıq edir (CHEA, n.d.). Ali Təhsil Akkreditasiyası üzrə Beynəlxalq Keyfiyyət Qrupu (CIQG) isə CHEA-nın beynəlxalq filialıdır və qlobal səviyyədə oxşar missiyaları yerinə yetirir (CHEA, n.d.).

ENQA, EHEA-da keyfiyyət təminatını təşviq edən əsas qurumdur. ENQA, ESG standartlarının tətbiqini təmin etməklə ali təhsil sistemlərində beynəlxalq əməkdaşlığı və şəffaflığı dəstəkləyir. ENQA-nın fəaliyyət istiqamətlərinə milli və regional akkreditasiya agentliklərinin müstəqilliyini təmin etmək, onların fəaliyyətini dəyərləndirmək və keyfiyyətin idarə edilməsi üzrə təkmilləşdirmələr təklif etmək daxildir (ENQA, n.d.).

Digər bir beynəlxalq təşkilat Beynəlxalq Universitetlər Assosiasiyasıdır (IAU). UNESCO-nun himayəsi altında təsis edilmiş IAU qeyri-hökumət təşkilatıdır və 120-dən çox ölkədən 600-dən çox üzvü birləşdirərək ATM-lərin qlobal şəbəkəsini yaradır. IAU təhsil müəssisələrinin qlobal səviyyədə keyfiyyətli fəaliyyət göstərməsini təmin edərək, ATM-lərarası əməkdaşlıq və keyfiyyət təminatı təşəbbüslərini dəstəkləyir (International Association of Universities [IAU], n.d.).

Avropa İdarəetmə İnkişafı Fondu (EFMD) isə idarəetmə və liderlik proqramlarının keyfiyyət təminatı istiqamətində fəaliyyət göstərən təşkilatdır. EFMD ATM-lərin idarəetmə və biznes proqramlarının keyfiyyətini qiymətləndirir. EFMD proqram akkreditasiyası ilə yanaşı institusional akkreditasiya prosesini də həyata keçirir (EFMD Global, n.d.).

Digər bir beynəlxalq təşkilat Ali Təhsil üzrə Avropa Keyfiyyət Təminatı Reyestridir (EQAR). EQAR ATM-lərin və təhsil proqramlarının keyfiyyətini təmin etmək üçün razılaşdırılmış ümumi çərçivəyə uyğun fəaliyyət göstərən agentliklərin rəsmi reyestridir. EQAR tərəfindən idarə olunan məlumat bazası - DEQAR vasitəsilə Avropada akkreditasiyadan keçmiş ATM-lər və proqramları haqqında hesabatlara çıxış təmin edilir.

EQAR-ın funksiyaları ali təhsil sahəsində şəffaflığı artırmaq, ölkələr arasında qarşılıqlı etimadı gücləndirmək və tələbə mobilliyini asanlaşdırmaqdır. (EQAR,n.d.).

Ali təhsildə keyfiyyət təminatı sahəsində ümumi istiqamətdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla yanaşı, bəzi təşkilatlar müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərirlər. Ümumdünya Tibbi Təhsil Federasiyası (WFME) tibbi təhsili sahəsində ixtisaslaşmış qurumdur. WFME tibbi təhsilin keyfiyyətinin təmin edilməsində mərkəzi və nizamlayıcı təşkilatdır. WFME-in akkreditasiya proqramlarının tanınması vasitəsilə akkreditasiyanın təşviqi, minimum və keyfiyyət standartları üzrə ekspert rəylərinin dərc edilməsi, baza və aspirantura tibbi təhsilinin davamlı peşəkar inkişaf standartlarının yüksəldilməsi kimi funkisyaları mövcuddur (World Federation for Medical Education, 2025). Bedoll, van Zanten və McKinley (2021) birgə tədqiqatlarında bir agentliyin tibbə xüsusi akkreditasiya təqdim edib-etmədiyini müəyyən etmək üçün WFME-nin əsas tibbi təhsil üzrə standartlarını istinad nöqtəsi kimi götürüblər. Bu standartlara tibbi-bioloji elmlər, tibbi etika, tədqiqat metodları, sübutlara əsaslanan tibb, pasiyentlə təmas, adekvat klinik təlim şəraiti və klinik fənlər üzrə təlim müddəti kimi 7 əsas tələb daxildir (Bedoll et al., 2021).

Azərbaycan ATM-ləri üçün maraqlı ola biləcək digər təşkilat Müstəqil Akkreditasiya və Reytinq Agentliyidir (IAAR). IAAR EQAR-da qeydiyyatdan keçmişdir və ENQA-nın tam hüquqlu üzvüdür. IAAR MDB ölkələrindən WFME-dən yüksək tanınma statusu almış ilk akkreditasiya agentliyidir. IAAR-ın əsas fəaliyyət sahələri aşağıdakılardır:

- ATM-lərdə, peşə təhsili müəssisələrində, elmi təşkilatlarda beynəlxalq institusional və proqram akkreditasiyası aparır;
- beynəlxalq standartlara və təlimatlara uyğun olaraq təhsildə keyfiyyətin təminatı üçün standartların və təlimatların hazırlayır;
- təhsil təşkilatlarının fəaliyyətində keyfiyyət təminatı üzrə ən yaxşı beynəlxalq təcrübələri yayır;
- keyfiyyət təminatı üzrə mütəxəssislərin təlimi, peşəkar inkişafı, elmi tədqiqatlarda və beynəlxalq layihələrdə iştirak;

beynəlxalq konfrans və forumların təşkili və keçirilməsi; elmi, metodoloji və məlumatlandırıcı nəşrlərin hazırlanması;

ali və aspirantura təhsili sahəsində reytinq tədqiqatları. (Independent Agency for Accreditation and Rating [IAAR], n.d.)

Digər ixtisaslaşmış beynəlxalq təşkilat, biznes təhsili sahəsində dünyanın nüfuzlu və qlobal akkreditasiya qurumu olan - Universitet Biznes Məktəblərinin İnkişafı Assosiasiyasıdır (AACSB International). AACSB-nin akkreditasiyası bütün dünyada ən yüksək keyfiyyət standartı kimi tanınır və AACSB tərəfindən akkreditə olunmuş məktəblər tədris, tədqiqat və ictimai təsir sahələrində qabaqcıl mövqelər tutur (Association to Advance Collegiate Schools of Business [AACSB], n.d.). MacKenzie Jr. et al. (2020) qeyd edir ki, AACSB International-ın qlobal səviyyədə əhəmiyyəti təkcə onun akkreditasiya qurumu olması ilə bağlı deyil, həm də onun biznes təhsili sahəsində keyfiyyət və dəyər standartlarını müəyyən etməsi ilə bağlıdır. AACSB biznes məktəblərini sadəcə baza standartlarına cavab verməyə deyil, həm də "ən yaxşı təcrübələri" mənimsəməyə və tətbiq etməyə yönləndirir.

Bəzi qlobal təşkilatlar birbaşa akkreditasiya proseslərində iştirak etməsələr də, ali təhsildə keyfiyyət təminatına istiqamət verir, onu formalaşdıran mühit yaradır. OECD (İqtisadi Əməkdaşlıq və keyfiyyət təminatına İnkişaf Təşkilatı) və UNESCO (Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı) kimi qurumların fəaliyyətləri, təhsil sahəsində ölçmə və müqayisə sistemlərinin inkişafında əhəmiyyətli rol oynayır (Grek, 2024). Bu iki təşkilatın ən mühüm töhfələrindən biri 2005-ci ildə birgə hazırladıqları "transsərhəd ali təhsildə keyfiyyətli təminat üzrə əsas prinsiplər"dir. Carvalho et al. (2023) tərəfindən aparılan sistematik icmal göstərir ki, bu sənəd transsərhəd ali təhsilin nə olduğunu müəyyən edir və müəllim, tələbə, proqram və ya müəssisənin milli sərhədləri keçdiyi hallarda keyfiyyətin necə qorunmalı olduğunu izah edir. OECD xüsusilə qeyri-legitim təhsil qurumları və "diplom istehsal edən dəyirmanlar" kimi risklərlə bağlı xəbərdarlıq edir. Bu təşkilatlar transsərhəd ali təhsilin iştirakçılarını keyfiyyət təminatı mexanizmlərində şəffaflığı

artırmağa və xaricdə təklif olunan təhsil haqqında məlumat mübadiləsi aparmağa çağırırlar (Carvalho et al., 2023)

Oxşar fəaliyyət göstərən digər təşkilat Ali Təhsildə Keyfiyyətin Təminatı Agentliklərinin Beynəlxalq Şəbəkəsidir (INQAAHE). INQAAHE ali təhsil sahəsində keyfiyyət təminatı üzrə qlobal şəbəkədir. INQAAHE-nin əsas məqsədi və rolu, ali təhsildə mükəmməlliyi təşviq etmək və inkişaf etdirməkdir. Bu məqsədə nail olmaq üçün şəbəkə keyfiyyət təminatı sahəsində nəzəri və praktik biliklərin inkişafına, üzv qurumlar arasında siyasət və fəaliyyətlərin paylaşılmasına və qarşılıqlı anlaşmanın gücləndirilməsinə, eyni zamanda ali təhsilin, təhsil müəssisələrinin, tələbələrin və bütövlükdə cəmiyyətin maraqları naminə keyfiyyət təminatının təşviqinə yönəlir (International Network for Quality Assurance Agencies in Higher Education [INQAAHE], n.d.).

INQAAHE 2022-ci ildə "Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Beynəlxalq Standartlar və Təlimatlar" (ISGs) adlı yeni sənəd nəşr etmişdir (INQAAHE, 2022). “Asiyada ali təhsilin keyfiyyət təminatının inkişafı”nı araşdıran tədqiqatda müəlliflər - Hou et al., (2024) ISGs-in ali təhsil sisteminə təsirindən bəhs edərək, bu təlimatların post-pandemiya dövründə ali təhsilin dəyişən mənzərəsinə cavab vermək üçün hazırlandığını və qlobal səviyyədə keyfiyyət meyarı rolunu oynadığını qeyd ediblər. INQAAHE ali təhsildə getdikcə artan müxtəlifliyi qəbul edir və keyfiyyət təminatçılarını "hər kəs üçün bir standart" yanaşmasından uzaqlaşaraq diversifikasiya, effektivlik və transformasiya gücünə yönəlməyə təşviq edir. Müəlliflər burada diversifikasiya dedikdə, ali təhsildə həm formal, həm də qeyri-formal təhsilin artan müxtəlifliyini, xüsusilə ölkələrarası təhsil, mikro-kreditlər və distant təhsil kimi yeni təhsil modullarını əhatə edən genişləndirilmiş keyfiyyət təminatı modelinə keçidi nəzərdə tuturlar Hou et al., 2024).

Beləliklə akkreditasiya ATM-lərin təcrübə mübadiləsinə təşviq edir və beynəlxalq əməkdaşlıq şəbəkələrinin genişlənməsinə dəstək verir. Beynəlxalq təşkilatlar təkcə

akkreditasiya proseslərini dəstəkləməklə kifayətlənmir, həm də təhsil sistemlərinin rəqabət qabiliyyətini artırmaq üçün strateji istiqamətlər təklif edir. Onların fəaliyyəti təhsilin qlobal standartlara uyğunlaşmasına və milli təhsil sistemlərinin inkişafına mühüm töhfə verir (Dugarova et al., 2016). Burada müəlliflər qlobal təhsil standartları dedikdə, ali təhsilin beynəlxalq səviyyədə uyğunlaşdırılmasını (harmonizasiyasını) və təhsilin keyfiyyətinin beynəlxalq səviyyədə tanınmış meyarlar əsasında qiymətləndirilməsini nəzərdə tutur. Bu meyarların bəziləri (ESG 2015, OECD, UNESCO və s.) haqqında yuxarıda qeyd edilmişdir.

**Beynəlxalq təcrübələr.**

Beynəlxalq akkreditasiya prosesləri müxtəlif regionlarda fərqli yanaşmalarla tətbiq olunur və bu yanaşmalar yerli təhsil sistemlərinin spesifik tələblərinə uyğunlaşdırılır. Bu başa düşüləndir çünki, hər bir ölkənin öz strateji maraqları, öz təhsil siyasəti olduğu üçün akkreditasiya prosesində ümumi tələblərdən başqa spesifik tələblərin olması gözləniləndir. Duarte və Vardasca (2023) qeyd edirlər ki, akkreditasiyanın qüvvədəqalma müddəti müxtəlif ölkələrdə fərqlidir. Məsələn, Çində, Almaniyada, İspaniyada və Portuqaliyada 6 il, İsveçdə 3-4 il, Fransada 4 il, ABŞ-də isə 5-10 il aralığında dəyişir. HSE University (n.d.) qeyd edir ki, 2022-ci ilin mart ayından etibarən Rusiyada mövcud olan akkreditasiya sertifikatları müddətsiz hesab olunur və kağız sənədlər rəqəmsal reyestrlə əvəzlənib. İstifadəçilər ATM-lərin ixtisaslarının akkreditasiya statusunu rəsmi dövlət reyestri vasitəsilə onlayn şəkildə yoxlaya bilərlər.

İspaniyada ali təhsil sistemini davamlı olaraq təkmilləşdirən və EHEA-ya uyğunlaşdırmaq üçün qiymətləndirmə, sertifikatlaşdırma və akkreditasiya fəaliyyətlərini həyata keçirən qurum - Keyfiyyətin Qiymətləndirilməsi və Akkreditasiyası üzrə Milli Agentlikdir (ANECA) (ATHENA Grant & Support Office, n.d.). ANECA, nazirliyə tabe olan Ali Təhsil üzrə Baş Dövlət Administrasiyasının orqanı kimi muxtariyyətə malikdir (Boletín Oficial del Estado, 2015). Həmçinin əməkdaşlığı asanlaşdırmaq və ümumi istinadların

yaradılmasına töhfə vermək üçün ANECA və muxtar icmaların keyfiyyət agentlikləri tərəfindən İspan Universitetlərinin Keyfiyyət Agentlikləri Şəbəkəsi (REACU) yaradılmışdır. Bu şəbəkəyə 10 muxtar agentlik daxildir (ANECA, n.d.). Bununla yanaşı İspaniyada elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini qiymətləndirən və akademik tədqiqatçılara fərdi qiymət verən dövlət qurumu - Elmi Fəaliyyətin Qiymətləndirilməsi üzrə Milli Komissiya (CNEAI) mövcuddur ki, onun qiymətləndirməsinə əsasən tədqiqatçılar maddi və ya peşəkar üstünlüklər qazana bilir. İspaniyada bu iki əsas funksiya - keyfiyyət təminatı və elmi fəaliyyətin qiymətləndirilməsi ANECA-nın daxilində birləşdirilmişdir (ANECA, n.d.).

ABŞ-də akkreditasiya sistemi qeyri-mərkəzləşdirilmişdir və daha çox müstəqil akkreditasiya təşkilatları tərəfindən idarə olunur. Bu sistemin əsas üstünlüyü, təhsil müəssisələrinin çevikliyini qoruyaraq, innovasiyaların təşviq edilməsinə şərait yaratmasıdır. ABŞ-də akkreditasiya, həm institusional, həm də proqram səviyyədə həyata keçirilir və təhsil müəssisələrinin qlobal rəqabət qabiliyyətini artırmağa yönəlmişdir (Duarte & Vardasca, 2023). Nümunə olaraq "ingilis dili proqramının akkreditasiyası komissiyasını" (CEA) - ingilis dili proqramlarının və müəssisələrinin keyfiyyət və standartlara uyğunluğunu qiymətləndirən akkreditasiya agentliyini göstərmək olar. CEA ABŞ mərkəzlidir, ABŞ-də və beynəlxalq səviyyədə akkreditasiya fəaliyyəti həyata keçirir. CEA-nın 11 sahə (missiya; proqramın hazırlanması, planlaşdırılması və nəzərdən keçirilməsi; kurikulum; fakültə; obyektlər, avadanlıqlar və təchizatlar; inzibati və fiskal bacarıq; tələbə xidmətləri; işə qəbul; tədris proqramının uzunluğu və strukturu; tələbə nailiyyəti; tələbə şikayətləri) üzrə 44 xüsusi standartı mövcuddur (CEA, n.d.).

Avropa ölkələrində, ESG standartları EHEA çərçivəsində qəbul edilərək ATM-lərin keyfiyyət təminatı proseslərinə inteqrasiya edilmişdir. ENQA-nın rəhbərliyi ilə həyata keçirilən bu sistem, şəffaflıq və tələbə mobilliyinin təmin olunmasına xüsusi diqqət yetirir. Avropa modeli mərkəzləşdirilmiş yanaşmaya daha çox meyllidir və təhsil müəssisələrinin

performansını təkcə milli deyil, həm də beynəlxalq standartlarla uyğunlaşdırmağa çalışır (ENQA, n.d.).

Asiya təcrübəsində, xüsusilə Cənubi Koreya və Yaponiyada, akkreditasiya sistemləri milli xüsusiyyətlərə uyğun olaraq formalaşdırılmışdır (KARIC, n.d.; JUAA, n.d.). Bu ölkələrdə dövlətin akkreditasiya proseslərində daha aktiv iştirakı müşahidə edilir. Məsələn, Cənubi Koreyada akkreditasiya təhsil müəssisələrinin inkişafını təşviq etməklə yanaşı, onların qlobal rəqabətə davamlı olmasını təmin etməyə yönəlmişdir (KARIC, n.d.).

Türkiyədə akkreditasiya proseslərinə Ali Təhsil Keyfiyyət Şurası (YÖKAK) nəzarət edir və Türkiyədəki bütün ATM-lər keyfiyyət təminatı kontekstində YÖKAK-a hesabat verir (Çalışkan & Maya, 2021). 13 üzvdən ibarət olan Ali Təhsilin Keyfiyyəti Şurası ATM-lərin təhsil, tədqiqat fəaliyyətinin, inzibati xidmətlərin keyfiyyət səviyyələri ilə bağlı milli və beynəlxalq keyfiyyət standartlarına uyğun qiymətləndirmələr aparır, daxili və xarici keyfiyyət təminatı, akkreditasiya prosesləri ilə bağlı qurumlarının icazəsini həyata keçirir (YÖKAK, n.d.).

Rusiyada da,akkreditasiya prosesi iki əsas formada təşkil olunur - dövlət akkreditasiyası və peşəkar-ictimai beynəlxalq akkreditasiya. Dövlət akkreditasiyası icbaridir, dövlət standartları əsasında aparılır və ATM-lərə rəsmi fəaliyyət hüququ verir (Российская Федерация, 2012, ст. 92).

Qazaxıstanda təhsilin keyfiyyətinin təmin edilməsinə dövlət səviyyəsində sistemli yanaşma vardır. Bu proses Qazaxıstan Respublikası Elm və Ali Təhsil Nazirliyinin Elm və Ali Təhsil Sahəsində Keyfiyyətin Təminatı Komitəsinin fəaliyyəti ilə təmin edilir. 2015-ci ildən Qazaxıstanda Ali Təhsilin İnkişafı Milli Mərkəzi fəaliyyət göstərir, onun məqsədi Boloniya prosesinin həyata keçirilməsinə metodiki, elmi, metodiki və informasiya-analitik dəstək, o cümlədən məcburi parametrlərdən biri olan ali təhsildə keyfiyyəti təmin etməkdir (Mukanova et al., 2024). Bu təcrübələrin müqayisəsi göstərir ki, ABŞ modeli çeviklik və müstəqilliyi ilə

seçilir, Avropa modeli şəffaflıq və beynəlxalq inteqrasiyaya yönəlmişdir, Asiya modeli isə dövlətin aktiv rolu və yerli ehtiyacların ödənilməsinə fokuslanır. Hər bir yanaşma, fərqli təhsil kontekstlərində keyfiyyət təminatını təşviq etmək və akkreditasiya mexanizmlərini təkmilləşdirmək üçün unikaldır (Göçen & Aslan, 2021).

Beynəlxalq Akkreditasiya Forumu (IAF), idarəetmə sistemləri, məhsullar, xidmətlər, proseslər, işçi heyəti və yoxlama kimi sahələrdə uyğunluğun qiymətləndirilməsi ilə məşğul olan akkreditasiya orqanlarının və digər qurumların qlobal birliyidir (IAF, n.d.). Formun "əsas məqsədi beynəlxalq səviyyədə qəbul edilmiş uyğunluğun qiymətləndirilməsi proqramının yaradılmasıdır" (Özçicek & Karaca, 2019).

**Azərbaycanda akkreditasiya prosesləri.**

Azərbaycanda təhsil müəssisələrinin akkreditasiya prosesləri "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları" adlı normativ sənədlə tənzimlənir. Bu qaydalar, ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətlərinin keyfiyyət standartlarına uyğunluğunu qiymətləndirmək və onların fəaliyyətini təkmilləşdirmək məqsədilə hazırlanmışdır. İlk dəfə 2010-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilən bu qaydalar, 2020-ci ildə yenilənərək müasir tələblərə uyğunlaşdırılmışdır (Nazirlər Kabineti, 2010; 2020).

ATM-lərnin akkreditasiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən həyata keçirilir (Nazirlər Kabineti, 2020). TKTA, təhsil müəssisələrinin və proqramlarının akkreditasiyasını həyata keçirən, keyfiyyətin idarə olunması üçün metodiki dəstək təqdim edən əsas qurumdur. Agentlik 2019-cu ildə yaradılmış və fəaliyyəti beynəlxalq standartlara, o cümlədən ESG prinsiplərinə uyğun olaraq qurulmuşdur. Azərbaycanda təhsil müəssisəsinin akkreditasiyası 5 ildən bir həyata keçirilir (Nazirlər Kabineti, 2020).

Akkreditasiyası qaydalarına əsasən, "təhsil müəssisəsinin akkreditasiyası təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ

hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılır və təhsil müəssisəsinin statusunun, hər bir proqram üzrə təhsilalanların say həddinin müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır”. Buradan aydın olur ki, Azərbaycanda ATM-lərin akkreditasiyası, təhsil müəssisəsinin fəaliyyətinin müəyyən standartlara uyğunluğunu qiymətləndirmək və təsdiqləmək üçün həyata keçirilən rəsmi bir prosesdir. Bu qaydalara əsasən, təhsil müəssisələrinin akkreditasiyası bir neçə mərhələdə həyata keçirilir. Özünüqiymətləndirmə hesabatının hazırlanması, sahə ziyarətləri və müstəqil ekspertlər tərəfindən qiymətləndirmə kimi mərhələlər akkreditasiya prosesinin əsasını təşkil edir. Prosesin sonunda təhsil müəssisələrinə keyfiyyət sertifikatları verilir ki, bu da onların fəaliyyətlərinin dövlət tərəfindən təsdiqlənməsi anlamına gəlir (Nazirlər Kabineti, 2020)

Akkreditasiya prosesində müəssisələrin tədris proqramlarının məzmunu, maddi-texniki bazası, kadr potensialı, beynəlxalq standartlara uyğunluq, təlim və tədris prosesi, elmi-tədqiqat fəaliyyəti və idarəetmə mexanizmləri əsas qiymətləndirmə meyarları kimi çıxış edir. Proses ATM-lərin daxili keyfiyyət təminatı sistemlərini inkişaf etdirməyə və idarəetmə mexanizmlərini optimallaşdırmağa kömək edir (Abbasov və Heydarov, 2023). Bu, təhsil müəssisələrinin fəaliyyətlərinin şəffaflığını təmin etməyə və onların inkişafı üçün strateji istiqamətlər müəyyən etməyə imkan verir. 2020-ci ildə qəbul edilən yeni qaydalar, keyfiyyət təminatında beynəlxalq standartlara uyğunlaşmağa xüsusi diqqət yetirir, bu da Azərbaycanın təhsil sisteminin beynəlxalq əməkdaşlığa inteqrasiyasını gücləndirir (Nazirlər Kabineti, 2020).

TKTA-nın fəaliyyəti Azərbaycanın təhsil sistemində rəqabət qabiliyyətinin artırılmasına və beynəlxalq təhsil məkanına inteqrasiyasına mühüm töhfə verir. Bu yanaşma, milli təhsil siyasətinin qlobal tələblərlə uyğunlaşdırılmasına və tələbələrin yüksək keyfiyyətli təhsil almalarına şərait yaradır (TKTA, n.d.). TKTA müxtəlif ölkələrin akkreditasiya agentlikləri ilə görüşlər keçirir təcrübə mübadiləsi edir və ATM-lərin daxili keyfiyyət təminatı sisteminin ESG prinsiplərinə uyğunlaşması üçün tövsiyyələr verir. TKTA 2024-cü ildə Almaniyanın

Mərkəzi Qiymətləndirmə və Akkreditasiya Agentliyi (ZEvA), Türkiyə Ali Təhsildə Keyfiyyət Təminatı Şurası (YÖKAK), Mərkəz və Şərq Avropa Ölkələrnn Keyfiyyət Təmnatı Agentlklər Şəbəkəsi (CEENQA) ilə görüşlərdə və bir sıra beynəlxalq görüşlərdə iştirak edib (TKTA, 2024). Bununla yanaşı TKTA müxtəlif ATM-lərdə daxili keyfiyyət təminatı ilə bağlı görüşlər, seminarlar, təlimlər həyata keçirir. 2025-ci ilin iyul ayında, Bakı Dövlət Universitetinin ev sahibliyi ilə keçirilən "Keyfiyyətə Doğru Addım: Akkreditasiya Prosesinə Hazırlıq" tədbirində ölkənin 40 ATM-ni iştirak edib (TKTA, 2025).

**Beynəlxalq akkreditasiyaya müraciət.**

Beynəlxalq akkreditasiya bir ATM-in və ya ATM tərəfindən həyata keçirilən hər hansı bir proqramın beynəlxalq səviyyədə keyfiyyət, səmərəlilik və effektivlik kimi müəyyən fəaliyyət meyarlarına malik olduğunu nümayiş etdirmək məqsədi daşıyan və beləliklə, ali təhsil almaq istəyənlərə inamı təmin edən sistemdir (Kılıçaslan, 2020).

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunun 43-cü maddəsi təhsil sahəsində beynəlxalq əməkdaşlıq və xarici əlaqələrdən bəhs edir. Həmin maddənin 43.2. bəndində qeyd olunmuşdur ki, "təhsil müəssisəsi qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin elm və təhsil müəssisələri, təşkilatları, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər". Həmçinin akkreditasiya qaydalarının 1.7.7. bəndində (Nazirlər Kabineti, 2020) "beynəlxalq akkreditasiyanın xarici keyfiyyət təminatı qurumu tərəfindən hazırlanmış qayda və meyarlar əsasında aparılması" qeyd olunmuşdur. Buradan aydın olur ki, Elm və Təhsil Nazirliyi beynəlxalq akkreditasiyadan keçmiş proqramları tanıyır. Həmin qaydaların 2.3.7. bəndinə görə "Təhsildə Keyfiyyət Təminatı Agentliyi beynəlxalq təcrübənin tətbiqi imkanlarının

araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq edə bilməsi və xarici dövlətlərin müvafiq təcrübəsini öyrənir".

Beləliklə, Azərbaycan qanunvericiliyi təhsil müəssisələrinin beynəlxalq əməkdaşlıq çərçivəsində xarici təşkilatlarla birbaşa əlaqələr qurmasını, müqavilələr bağlamasını və təhsil şəbəkələrinə daxil olmasını qanuni olaraq təsbit edir. TKTA bu sahədə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq edərək, xarici təcrübənin öyrənilməsini və tətbiqini təmin edir

Qeyd etmək lazımdır ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (EATDA) və Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA), Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının tərəfdaşıdırlar. Ali təhsildə, elmi tədqiqatlarda yüksək keyfiyyət standartlarını qorumaq, təhsil nəticələrinin həm milli prioritetlərə, həm də beynəlxalq meyarlara cavab verməsini təmin etmək, ATM-ləri innovasiyalara, qlobal rəqabətə və davamlı inkişafa təşviq etmək EATDA-nın funksiyalarındandır. (ENQA, n.d.). Bütün bunları nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycanda ATM-lərin beynəlxalq proqram akkreditasiyasına müraciət etmələri üçün heç bir hüquqi maneə yoxdur və ATM-lərin qlobal rəqabətliliyini artırmaq üçün beynəlxalq proqram akkreditasiyası mühüm əhəmiyyət daşıyır.

Son illər Azərbaycanda beynəlxalq proqram akkreditasiyasına maraq artmışdır. Bunu beynəlxalq agentliklərin databazalarından görmək mümkündür (EQAR, 2025). Mövcud vəziyyət göstərir ki, Azərbaycanın bir neçə ATM beynəlxalq akkreditasiya sertifikatlarına malikdir. Həmin təhsil müəssisələri aşağıdakılardır:

ADA Universiteti Biznes Məktəbi 2019-cu ilin Noyabr ayından Biznes Məktəbləri və Proqramları üzrə Akkreditasiya Şurası (ACBSP) üzvlüyünə qəbul edilib, 2020-ci ilin mart ayında isə "namizədlik" statusuna çatıb. ADA Universitetinin Biznes Məktəbi BBA və MBA proqramları 2024-cü ildə ACBSP tərəfindən akkreditasiya olunub (ADA University, 2024).

Azərbaycan Tibb Universitetinin təqdim etdiyi hər üç– Müalicə işi, Əczaçılıq və Stomatologiya ixtisasları 5 illik müddətə  beynəlxalq proqram akkreditasiyasından keçmişdir. Beynəlxalq proqram akkreditasiyası Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik (IAAR) tərəfindən aparılıb (Azərbaycan Tibb Universiteti, 2022).

Azərbaycan İdman Akademiyasının magistratura səviyyəsi üzrə "İdman tibbi və reabilitasiya" və "İdman menecmenti" ixtisaslaşmaları, bakalavriat səviyyəsi üzrə isə "İdman menecmenti və kommunikasiya" ixtisası 5 il müddətinə ENQA-nın üzvü olan müstəqil agentlik tərəfindən aparılıb (Azərbaycan İdman Akademiyası, 2025).

Azərbaycan Memarlıq və İnşaat Universitetinin bakalavriat səviyyəsində "İnşaat mühəndisliyi" və "Nəqliyyat tikintisi mühəndisliyi" ixtisasları, magistratura səviyyəsində "İnşaat mühəndisliyi" ixtisası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bakalavriat səviyyəsində "Operator sənəti", "Aktyor sənəti" və "Teatrşünaslıq" ixtisasları beynəlxalq proqram akkreditasiyasından keçiblər (TKTA, n.d.).

Bu, həmin ixtisasların beynəlxalq keyfiyyət göstəricilərinə uyğun fəaliyyət göstərdiyini təsdiqləyir. Eyni zamanda, təhsil müəssisələri diplomların beynəlxalq səviyyədə tanınmasını asanlaşdırmaq üçün beynəlxalq akkreditasiya proseslərinə qatılmağa çalışır.

Beynəlxalq akkreditasiya tələblərinə uyğunluq, ATM-lərdən effektiv idarəetmə, təhsil keyfiyyəti və tələbə nailiyyətlərinə yönəlmiş strategiyalar hazırlamağı tələb edir. Məsələn, Türkiyə ali təhsil sistemində akkreditasiya, təhsil müəssisələrinin strateji planlaşdırma prosesinə ESG prinsiplərinin inteqrasiyasını təmin etmişdir. Işık və Beykoz (2018) tərəfindən keçirilən tədqiqat bu yanaşmanın ATM-lərin fəaliyyətlərinin şəffaflığına və hesabatlılığına töhfə verdiyini müəyyən etmişdir. Beləliklə, akkreditasiya prosesləri ATM-lərin strategiya və inkişaf planlarının təkcə milli səviyyədə deyil, qlobal kontekstdə də uğurla tətbiq olunmasını təmin edir. Bu proseslər ATM-lərin təhsil keyfiyyətini artıraraq, onların beynəlxalq səviyyədə

tanınmasını və əmək bazarının tələblərinə cavab verməsini təmin edir (Yöntem & Mazman, 2023).

**Əsas problemlər və çətinliklər.**

Beynəlxalq akkreditasiya proseslərinin həyata keçirilməsi zamanı təhsil müəssisələri bir sıra çətinliklərlə üzləşirlər. Efremova və Tabishev (2020) qeyd edir ki, akkreditasiya proseslərində beynəlxalq müqayisə üçün uyğun meyarların və vahid metodologiyaların olmaması əsas çətinliklərdən biridir. Təhsil nailiyyətlərini etibarlı və dəqiq ölçə bilən vasitələr azdır, bu isə xüsusilə səriştələrinin qiymətləndirilməsini çətinləşdirir. Əsas çətinliklərdən biri maliyyə resurslarının məhdudluğudur. Beynəlxalq akkreditasiya prosesləri, xüsusilə müstəqil ekspertlərin iştirakı, sahə ziyarətləri və sənədləşmə tələbləri, böyük xərclər tələb edir. Bu, xüsusilə inkişaf etməkdə olan ölkələrdə təhsil müəssisələri üçün çətinliklər yaradır (Ayvaz et al., 2016).

Digər mühüm problem, təhsil müəssisələrinin beynəlxalq standartlara uyğunlaşdırılması prosesində tədris planlarının və idarəetmə mexanizmlərinin uyğunlaşdırılmasının mürəkkəbliyidir. ENQA (n.d.) tərəfindən qeyd edildiyi kimi, ESG kimi beynəlxalq standartların tətbiqi, ATM-lərdən daxili keyfiyyət təminatı ilə bağlı proseslərini təkmilləşdirmək və beynəlxalq tələblərə uyğunlaşdırmaq üçün geniş dəyişikliklər etməyi tələb edir. Bu dəyişikliklər, adətən, vaxt və əlavə resurslarla müşayiət olunur.

Həmçinin, ATM-lərdə akkreditasiya mədəniyyətinin tam formalaşmaması və keyfiyyət təminatı proseslərinə bütün maraqlı tərəflərin, xüsusilə də akademik və inzibati heyətin aktiv cəlb edilməməsi də böyük problemlərdən biridir. Məsələn, Türkiyədə Işık və Beykoz (2018) tərəfindən həyata keçirilən tədqiqat göstərir ki, bəzi təhsil müəssisələri akkreditasiya proseslərinə strateji bir vasitə kimi yanaşmaq əvəzinə, yalnız formal tələbləri yerinə yetirməyə fokuslanır.

Fernandes və digərləri (2007) həyata keçirdikləri tədqiqat zamanı fiziki və əqli məhdudiyyətləri olan tələbələrin akademik və sosial mühitdəki uyğunlaşma problemlərini müəyyən ediblər. Akkreditasiya prosesləri bu problemlərin həlli üçün vahid mexanizmlərin yaradılmasına kömək edə bilər (Fernandes et al., 2007). TKTA-nın akkreditasiya hesabatlarına əsaslanaraq Azərbaycanda beynəlxalq akkreditasiya tələblərinə uyğunlaşma prosesində təlim və tədris istiqaməti üzrə, elmi tədqiqat istiqaməti üzrə, idarəetmə istiqaməti üzrə, beynəlmiləlləşmə istiqaməti üzrə, maliyyə istiqaməti üzrə çətinliklər, həmçinin müəssisələrin infrastruktur və texniki imkanlarının kifayət qədər inkişaf etməməsi kimi çətinliklər göstərilə bilər (TKTA n.d.).

Bununla yanaşı, daxili keyfiyyət təminatı mexanizmlərinin zəif inkişafı prosesin sürətini azaldır. Daha öncə qeyd edildiyi kimi, bəzi ATM-lər keyfiyyət təminatını formal tələblərin yerinə yetirilməsi kimi görür, bu isə proseslərin uzunmüddətli nəticələrinə mənfi təsir göstərir (Işık və Beykoz, 2018). TKTA (n.d.)-nın təqdim etdiyi Azərbaycan ATM-lərinin akkreditasiya hesabatları ilə tanış olduqda, məlum olur ki, bəzi tələblər formal olaraq icra olunur və ya standartın mahiyyəti düzgün kontekstdə başa düşülmür. Məsələn, ATM-lərin əksəriyyəti inklüzivlik anlayışına tibbi aspektdən baxırlar. Digər nümunə isə təlim və tədris proseslərindəki yanaşmalarla bağlıdır. TKTA bu istiqamət üzrə 13 ATM-ə 150-yə yaxın tövsiyə verib (TKTA n.d.). ATM-lərin rəsmi saytlarına baxdıqda görmək olur ki, mövcud çətinliklərə baxmayaraq beynəlxalq proqram akkreditasiyasına müraciətlərin sayında artımın müşahidə olunur. Bu da öz növbəsində tədqiqat nəticələrinin təhlili baxımından əhəmiyyətli göstərici hesab olunur.

Beləliklə, beynəlxalq akkreditasiya prosesləri ATM-lərin qlobal əməkdaşlıq imkanlarını genişləndirir və beynəlxalq tanınma vasitəsilə onların qlobal təhsil sistemində mövqelərini gücləndirir. Bu yanaşma təhsil müəssisələrinin inkişafı üçün yeni perspektivlər və imkanlar yaradır.

## Nəzəri çərçivə

Tədqiqatın məqsədi Azərbaycanda ATM -lərin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri öyrənmək, proses zamanı keçdiyi mərhələləri, qarşılaşdığı çətinlikləri və əldə etdiyi nəticələri işıqlandırmaq, həmçinin bu prosesə dair işçilərin baxış və təcrübələrini keyfiyyət yanaşması əsasında dərindən öyrənməkdir. Beynəlxalq akkreditasiya ali təhsil sistemində keyfiyyət təminatının beynəlxalq standartlara uyğunlaşdırılması, tədrisin keyfiyyətinin artırılması və beynəlxalq arenada tanınması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də, tədqiqatın nəzəri çərçivəsi ***beynəlmiləlləşmə*** nəzəriyyəsinə əsaslanaraq qurulub.

Tədqiqatın nəzəri əsasını ATM-lərin ***beynəlmiləlləşmə nəzəriyyəsi*** (internationalization theory) təşkil edir. Bu ATM-lərin qlobal müstəvidə rəqabətli olmaq üçün beynəlxalq əməkdaşlıqları genişləndirmə cəhdlərini, özünütəsdiq, xarici akkreditasiya və keyfiyyət təminatı mexanizmlərini təcrübə etmə maraqlarını izah edir (De Wit, 2020; Knight, 2004). Beynəlmiləlləşmə prosesini yalnız tələbə və müəllim mübadiləsi, ikili diplom, ikili proqram anlayışları ilə məhdudlaşmır. O həm də tədris proqramlarının, sillabusların beynəlxalq standartlara uyğunlaşdırılmasını, keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsini və institusional idarəetmədə dəyişiklikləri əhatə edir. Bu nəzəri çərçivə, beynəlxalq akkreditasiya proseslərinin ATM-lərin idarəetmədə, keyfiyyət mədəniyyətində və strategiyasında təsirini anlamağa imkan verir.

**Əsas anlayışlar.**

Bu tədqiqatda beynəlxalq proqram akkreditasiyası ATM-lərin beynəlmiləlləşməni dəstəkləyən sistemli keyfiyyət təminatı mexanizmi kimi izah olunur. Universitetlərin bu prosesdəki təcrübələri, idarəetmə strukturlarına təsirləri, qarşıya çıxan çətinliklər və əldə olunan imkanlar konseptual modelin əsas elementlərini təşkil edir.

**Cədvəl 1.**

*Ali Təhsildə Beynəlmiləlləşmənin Əsas Komponentləri*

| Anlayış | Təsviri məzmun | Əlaqədar amillər |
|---|---|---|
| Beynəlxalq proqram akkreditasiyası | Xarici akkreditasiya agentliklərinin müəyyən etdiyi beynəlxalq keyfiyyət meyarlarına uyğunluğun qiymətləndirilməsi prosesi | Keyfiyyət standartları, göstəriciləri, hesabatlılıq, şəffaflıq və s. |
| Universitetlərin təcrübələri | Akkreditasiya proseslərində iştirak edən universitetlərin əldə etdiyi nəticələr və tətbiq etdiyi mexanizmlər | Proseslərin idarəetməsi, daxili keyfiyyət təminatı, resursların bölüşdürülməsi və s. |
| İdarəetməyə təsirlər | Akkreditasiya nəticəsində universitetin idarəçilik sistemində baş verən struktur və strateji dəyişikliklər | Qərarvermə mexanizmləri, məsuliyyət bölgüsü, hesabatlılıq və s. |
| Çətinliklər və imkanlar | Akkreditasiya prosesində üzə çıxan problemlər və inkişaf potensialları | Maliyyə resursları, kadr potensialı, beynəlxalq əməkdaşlıq imkanları və s. |

*Qeyd: Bu cədvəl Hudzik (2011) tərəfindən təqdim edilmiş çərçivəyə uyğunlaşdırılmışdır ("adapted from Hudzik, 2011")..*

Bu anlayışlar bir-biri ilə qarşılıqlı əlaqədə olaraq universitetlərin beynəlmiləlləşmə səviyyəsinə və keyfiyyət idarəetmə sistemlərinə təsir göstərir. Bu nəzəri çərçivə tədqiqatın əvvəlində nəzərdə tutulmuş tədqiqat sualları ilə örtüşür. Tədqiqat aşağıdakı suallara cavab tapmağa yönəlmişdir:

***ATM-lərin beynəlxalq proqram akkreditasiyası ilə bağlı təcrübələri nələrdir?***

- ATM-lərin akkreditasiya olunan proqramların seçimi, prosesin mərhələləri və tətbiq olunan meyarlara dair təcrübələri nələrdir?
- ATM-lər beynəlxalq akkreditasiya prosesində hansı agentliklərlə əməkdaşlıq ediblər?
- ATM-in akademik və inzibati-idarəetmə heyəti bu proseslərdə necə iştirak ediblər?

***ATM-lərin akademik və inzibati-idarəetmə heyəti beynəlxalq akkreditasiya prosesinin ATM-in fəaliyyətinə təsirləri barədə nə düşünürlər?***

- Beynəlxalq akkreditasiyanın ATM-in idarəetmə strukturu, strateji planlaşdırması, tədrisin keyfiyyəti və ümumi fəaliyyətinə qazandırdığı faydalar (təsirlər və dəyişikliklər) nələrdir?
- ATM-in akademik və inzibati-idarəetmə heyəti akkreditasiya prosesini necə qiymətləndirir və bu prosesdən sonra tələbə məmnunluğu müşahidə olunurmu?

***Bu proseslərdə qarşıya çıxan əsas çətinliklər və imkanlar hansılardır?***

- Beynəlxalq proqram akkreditasiyası prosesi zamanı qarşıya çıxan əsas çətinliklər nələrdir və ATM-lər bu prosesin nəticəsi olaraq hansı tövsiyələri alıblar?
- Akkreditasiya prosesi ATM-lərə hansı imkanları qazandırır və heyətin prosesin yaxşılaşdırılması üçün irad və təklifləri nələrdir?

Bu suallar beynəlmiləlləşmə nəzəriyyəsinin əsas komponentlərini – təşkilati adaptasiya, keyfiyyət mədəniyyəti və beynəlxalq standartlara uyğunlaşma – empirik səviyyədə araşdırmağa xidmət edir.

**Metodoloji yanaşma.**

Tədqiqat keyfiyyət yönümlü metodologiyaya əsaslanır. Məlumatlar iki əsas mənbədən toplanmışdır:

- Yarı-strukturlaşdırılmış müsahibələr: Universitet rəhbərləri, keyfiyyət təminatı şöbələrinin mütəxəssisləri, müəllimlər və beynəlxalq əlaqələr üzrə məsul şəxslərlə aparılacaq.
- Sənəd təhlili: Akkreditasiya hesabatları, akkreditasiya agentliklərinin meyarları, ATM-lərin strateji planları və keyfiyyət təminatı üzrə daxili normativ sənədlər araşdırılacaq.

Yarı-strukturlaşdırılmış müsahibələrdən əldə edilən məlumatlarn analizi üçün mövzulu (tematik) kodlaşdırma üsulundan istifadə ediləcək.

**Konseptual model.**

Tədqiqatın nəzəri modeli beynəlxalq akkreditasiya proseslərinin ATM-in idarəetmə və keyfiyyət təminatı sistemlərinə təsirini təsvir edir. Modelin sxematik təsviri aşağıdakı kimidir:

***Beynəlxalq Akkreditasiya Prosesi → Universitetlərin Təcrübələri → İdarəetmə və Keyfiyyət Mədəniyyəti → Qarşıya çıxan Çətinliklər və İmkanlar → Beynəlmiləlləşmənin artması***

Bu əlaqə ATM-lərin beynəlxalq akkreditasiya təcrübələrinin onların strateji idarəçiliyinə və inkişafına necə təsir etdiyini izah edən dinamik bir çərçivə yaradır.

## Metodologiya

**Tədqiqatın dizaynı.**

Bu hissə tədqiqatın metodologiyasından bəhs edir. Nəzəri metodoloji yanaşma, araşdırma metodları, alətlər və tədqiqat qrupu haqqında məlumatlar bu hissədə təqdim edilir.

**Araşdırma paradiqması.**

Bu tədqiqat işi istifadə olunan metodologiyaya və tədqiqatın məqsədinə əsasən interpretativ paradiqmaya əsaslanan keyfiyyət metodları seçilib. İnterpretivizm sosial reallığın fərdlərin subyektiv anlamları və təfsirləri vasitəsilə qurulduğunu vurğulayan bir yanaşmadır. Bu paradiqma, tədqiqatçıların insanların dünyanı necə dərk etdiklərini və ona necə mənalar yüklədiklərini anlamağa çalışmasını tələb edir (William, 2024). Bu araşdırma ATM-lərin beynəlxalq proqram akkreditasiya proseslərində əldə olunan təcrübələrin həm subyektiv tərəflərini öyrənmək, həm də bu proseslərin nəticələrinin obyektiv tərəfini öyrənmək məqsədi daşıyır. Əsas məqsəd iştirakçıların subyektiv təcrübələrini və sənədlərdə əks olunan məlumatları dərinliklə öyrənməkdir.

ATM-lərin beynəlxalq akkreditasiya prosesləri ilə bağlı təcrübələri, bu proseslərin mənasını, iştirakçıların təcrübələrini və baxışlarını dərinliklə öyrənmək, prosesin təsirlərini subyektiv baxımdan anlamaq üçün məsələyə interpretativ (konstruktivist) paradiqmadan yanaşmağı tələb edir. Həmçinin bütün bunlar geniş şərh tələb edir.

"İnterpretivizm təhsil tədqiqatlarında insanların təhsil təcrübələrinə verdiyi mənalara və bu mənaların onların ətrafdakı dünya haqqında anlayışlarını necə formalaşdırdığına diqqət

yetirir" (Creswell, 2014). İnterpretivizm tələbələrin, müəllimlərin, valideynlərin və digər təhsil işçilərinin təcrübələrini başa düşməyə çalışır. Məsələn: Müəllimlər yeni tədris metodlarını və sinifdəki davranışları necə şərh edirlər? Akkreditasiya prosesi və qərarları müxtəlif şəxslər tərəfindən necə qəbul edilir və başa düşülür?

**Nəzəri-metodoloji** baxımdan yanaşsaq bu araşdırmada problemin öyrənilməsinə həm deduktiv, həm də induktiv nəzəriyyə baxımından yanaşılmalıdır. İnduksiya və deduksiyadan paralel istifadə tədqiqat predmetinin daha müfəssəl başa düşülməsində faydalıdır (Babbie, 2022, s. 51). Çünki biz tədqiqatın gedişatını izlədikdə ümumi haldan (beynəlxalq proqram akkreditasiyasının şərhindən) daha xüsusi hala (Azərbaycanda seçdiyimiz ATM-lərin beynəlxalq proqram akkreditasiyasına) doğru gedildiyini müşahidə edirik. Beynəlxalq proqram akkreditasiyasının müəllimlərin tədrisin keyfiyyətinə təsiri haqqında fikirlərinin ümumiləşdirilməsində isə indukdiv yanaşmadan istifadə olunmuşdur.

**Araşdırma metodu və alətlər.**

Araşdırmada keyfiyyət metodundan istifadə olunmuşdur. Məlumat toplama alətləri kimi yarı-strukturlaşdırılmış müsahibələr və sənəd təhlili tətbiq edilmişdir. Müsahibələr vasitəsilə iştirakçıların şəxsi baxış və təcrübələri öyrənilmiş, sənəd təhlili isə mövcud materialların (hesabatlar, normativ sənədlər və s.) sistemli araşdırılmasına xidmət etmişdir. Ümumiyyətlə keyfiyyət müsahibəsi ən çox istifadə edilən keyfiyyət metodudur. Anketdən fərqli olaraq, geniş müzakirə edilməli olan mövzulardan hazırlanmış suallar əsasında aparılır. Standartlaşdırılmış suallar əvəzinə sərbəst söhbətə imkan verən yanaşmadan istifadə edilir (Babbie, 2022, s. 314). "Fontana və Freyə görə əhalinin neçə faizinin mövzu haqqındakı nə fikirləşdiyini anket sorğusu ilə müəyyən etmək mümkün olsa da, bir insanın yaşadığı hissləri, içində olduğu vəziyyəti və digər bənzər mücərrəd məqamları yalnız açıq suallardan ibarət keyfiyyət intervü ilə anlamaq mümkündür" (Şahbazov, 2019, s. 197).

Müsahibəni dar çərçivəyə salmamaq üçün yarıstrukturlaşdırılmış müsahibədən istifadə edilmişdir. "Yarıstrukturlaşdırılmış müsahibə təhsil tədqiqatlarında mühüm metoddur, çünki o, müsahibə verənə məsələləri dərindən araşdırmaq, cavabları aydınlaşdırmaq və müsahibə zamanı ortaya çıxan sahələri araşdırmaq imkanı verir. O, xüsusilə zəngin, keyfiyyətli məlumatların toplanması üçün faydalıdır" (Cohen et al., 2017, s. 428). Müsahibə zamanı sualların sayı barədə ədəbiyyat yazır ki, adətən suallar 8-10 civarında olur. Keyfiyyət intervüsündə sual bloklarının ardıcıllığı adətən belə olur (Şahbazov, 2019, s. 198).

**Sxem 1.**




Müsahibələrdə ölçmə vasitəsi (aləti) kimi yarıstrukturlaşdırılmış müsahibə protokolları hazırlanmışdır. Müsahibə protokolları yuxarıdakı sxemə uyğun hazırlanmışdır. Rəhbər işçilər üçün, müəllimlər üçün və tələbələr üçün olmaqla 3 fərqli protokol hazırlanmışdır. İlkin mərhələdə hazırlanmış protokollar giriş hissəni çıxmaqla 18 sualdan ibarət olmuşdur. Hazırlanmış protokollar tədqiqat və müsahibə sahələri üzrə mütəxəssislərə (2 müxtəlif mütəxəssis) göndərilmişdir. Mütəxəssis rəyi və tövsiyəsi əsasında həm protokolların, həm də sualların sayı azaldılmış və 13 əsas sualdan ibarət vahid protokol tərtib olunmuşdur (Əlavə 1). Tövsiyə nəzərə alınaraq müsahibə protokolunda müvafiq dəyişikliklər (məzmunca bir-birinə yaxın suallar birləşdirilmişdir) edilmişdir.

Nəticə olaraq, müsahibələr iştirakçıların demoqrafik məlumatları ilə yanaşı əsas aşağıdakı suallar və alt suallar tədqiqat suallarına uyğun şəkildə tərtib olunmuşdur.

***ATM-lərin beynəlxalq proqram akkreditasiyası ilə bağlı təcrübələri nələrdir?***

Bu sualı cavablandırmaq üçün ATM-lərin rəhbərləri ilə, akkreditasiya prosesinin təşkili ilə əlaqəli şəxslərlə müsahibələr zamanı aşağıdakı suallardan istifadə olunmuşdur:

- Beynəlxalq proqram akkreditasiyası hansı agentliklər tərəfindən aparılıb?

- Bu proqramların seçimi nəyə əsasən aparılıb?
- Proses hansı mərhələlərdən ibarətdir?
- Akkreditasiya hansı meyarlar əsasında aparılıb?
- Bu prosesdə sizin rolunuz nədən ibarət idi?

Həmçinin bu tədqiqat sualını cavablandırmaq üçün müxtəlif sənədlərin, hesabatların, proqram akkreditasiyasının çərçivə sənədlərinin təhlili aparılmışdır. "Sənəd təhlili tədqiqatçıların sənədləri məlumat mənbəyi kimi şərh etdiyi və qiymətləndirdiyi keyfiyyətli tədqiqat metodudur. Təhlil tədqiqat problemini başa düşmək üçün yazılı mətnlər, fotoşəkillər, videolar və ya qeydə alınmış məlumatların digər formalarını əhatə edə bilər (Creswell, 2014, s. 179). Burada müxtəlif ali məktəblərin akkreditasiya hesabatlarını, akkreditasiya haqqında beynəlxalq və yerli qurumların akkreditasiya qaydalarını əks etdirən sənədləri təhlil edilmişdir.

***"ATM-lərin akademik və inzibati-idarəetmə heyəti beynəlxalq akkreditasiya prosesinin ATM-in fəaliyyətinə təsirləri barədə nə düşünürlər?*** və ***"bu proseslərdə qarşıya çıxan əsas çətinliklər və imkanlar hansılardır?"*** tədqiqat suallarını cavablandırmaq üçün ATM-lərin rəhbərləri ilə, akkreditasiya prosesinin təşkili ilə əlaqəli şəxslərlə, universitet müəllimləri ilə müsahibələr aparılmışdır. Müsahibə zamanı aşağıdakı suallardan istifadə olunmuşdur:

- Beynəlxalq proqram akkreditasiyasından keçmiş ixtisasda tədris aparırsınızmı?
- Akkreditasiyadan sonra hansısa institusional dəyişikliklər baş verdimi?
- Akkreditasiyadan sonra hansısa proqram və məzmunla bağlı dəyişikliklər baş verdimi?
- Beynəlxalq proqram akkreditasiyasının tələbələrin akademik göstəricilərinə təsiri oldumu?
- Hansı tövsiyələri almısınız?
- Hansı çətinliklər oldu?
- Tələbələrin beynəlxalq proqram akkreditasiyasından məmnunluğu müşahidə olunurmu?
- Prosesi təkmilləşdirmək üçün təklifiniz varmı?

**İştirakçılar və seçmə.**

Tədqiqatın məqsədi Azərbaycanda ATM-lərin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri öyrənmək olduğu üçün, burada təhlil vahidi ATM-lərdir. Beynəlxalq proqram akkreditasiya prosesi ilə bağlı bir çox komponentlər məlumat vahidi hesab oluna bilər. Buraya ATM-də daxili və xarici keyfiyyətlə bağlı hesabatlar, müxtəlif proqramlar üzrə beynəlxalq akkreditasiya meyarları, çərçivə sənədləri, hesabatlar, ATM-in rəhbər heyəti və müəllimlər aiddir.

Tədqiqat prosesinin ardıcıllığına və mərhələlərin bir-birindən asılılığına uyğun olaraq müsahibə mərhələsində nümunə qruplara ATM-lərin rəhbərliyi, müəllimlər, universitetlərdə daxili keyfiyyətə cavabdeh olan şəxslər aid edilir.

Bu araşdırmada Azərbaycanda fəaliyyət göstərən və hamısı Bakı şəhərində yerləşən 5 ATM iştirak edib. Bütün ATM-lər beynəlxalq proqram akkreditasiyasından keçdikləri üçün məqsədli şəkildə seçilib, hər birinə araşdırmada iştirakla bağlı icazə məktubu göndərilib və ATM-lər iştirakla bağlı məktuba müsbət cavab veriblər. Tədqiqatda iştirak edən 5 ATM-in statusu, profili, yerləşdiyi şəhər və iştirakçı sayı ilə bağlı Cədvəl 2-də məlumatlar əks olunub.

**Cədvəl 2.**

*ATM-lər Haqqında Məlumat*

| Müəssisələr | Status | Profil | Məkan | İştirakçı sayı |
|---|---|---|---|---|
| ATM-1 | Dövlət | Ümumi | Bakı | 1 |
| ATM-2 | Dövlət | Xüsusi | Bakı | 4 |
| ATM-3 | Dövlət | Xüsusi | Bakı | 2 |
| ATM-4 | Dövlət | Xüsusi | Bakı | 2 |
| ATM-5 | Dövlət | Xüsusi | Bakı | 2 |

Bu tədqiqatın iştirakçıları, adları Cədvəl 2-də qeyd edilən, 2024/2025-ci tədris ilində ATM-lərdə fəaliyyət göstərən inzibati və akademik heyətin üzvləri, həmçinin ekspert qismində

3 nəfər təhsil işçisidir. İştirakçılar məqsədli seçmə üsulu ilə seçilib. Keyfiyyət metodologiyası ilə aparılan tədqiqatlarda seçmə prosesi tədqiq edilən vəziyyətin inkişafı və daha vacib subyektlərin aydınlaşması ilə formalaşır. “Məqsədli seçmə - qeyri-təsadüfi seçmə yanaşmasıdır. Müşahidə ediləcək vahidlər araşdırma üçün ən faydalı və ya səciyyəvi ola biləcək, tədqiqatçının nəzərində tutduğu meyarlara uyğun seçilir” (Babbie, 2010/2020, s. 35). Nəzərdə tutulduğu kimi müsahibələr üçün akkreditasiya prosesi ilə bilavasitə əlaqəsi olan şəxslər seçilib.

Bu tədqiqatda ümumilikdə 14 nəfər iştirakçı könüllü olaraq iştirak edib. Müsahibədə iştirak edən iştirakçıların cins, yaş kateqoriyası, çalışdığı müəssisə, vəzifəsi və pedaqoji staj Cədvəl 3-də qeyd edilib.

**Cədvəl 3.**

*İştirakçıların Demoqrafik Göstəriciləri*

| İştirakçı kodu | Cins | Yaş | Çalışdığı müəssisə | Vəzifə | Pedaqoji staj (il) |
|---|---|---|---|---|---|
| A1 | Qadın | 30-40 | ATM-1 | İnzibati işçi | -- |
| B1 | Qadın | 40-50 | ATM-2 | Akademik-rəhbər heyət | 5 |
| B2 | Qadın | 30-40 | ATM-2 | Akademik-rəhbər heyət | 17 |
| B3 | Qadın | 50-60 | ATM-2 | Müəllim | 32 |
| B4 | Qadın | 40-50 | ATM-2 | Akademik-rəhbər heyət | 9 |
| C1 | Kişi | 40-50 | ATM-3 | Akademik-rəhbər heyət | 10 |
| C2 | Qadın | 50-60 | ATM-3 | Akademik-rəhbər heyət | 29 |
| D1 | Qadın | 30-40 | ATM-4 | Akademik-rəhbər heyət | 13 |
| D2 | Qadın | 30-40 | ATM-4 | Müəllim | 23 |
| E1 | Qadın | 40-50 | ATM-5 | Akademik-rəhbər heyət | 18 |
| E2 | Kişi | 50-60 | ATM-5 | Akademik-rəhbər heyət | 38 |
| F1 | Kişi | 40-50 | -- | Ekspert | -- |
| F2 | Qadın | 30-40 | -- | Ekspert | -- |
| F3 | Qadın | 30-40 | -- | Ekspert | -- |

İştirakçılardan 3 nəfəri kişi, 11 nəfəri isə qadındır. İştirakçılardan 2 nəfəri müəllimdir və yalnız pedaqoji fəaliyyətlə məşğuldur, 1 nəfəri inzibati istiqamətdə fəaliyyət göstərir, 3 nəfəri ekspert qismində iştirak edən təhsil işçiləridir. İştirakçılardan 8 nəfəri isə akademik-rəhbər

heyətə aid olub həm inzibati istiqamətdə fəaliyyət göstərir, həm də, pedaqoji fəaliyyətlə məşğuldur. ATM-1-də proseslə əlaqəli şəxslər ölkə xaricində olduqları üçün yalnız 1 nəfəri müsahibəyə cəlb etmək mümkün oldu. ATM-3, ATM-4 və ATM-5-in hər birindən 2 nəfər müsahibədə iştirak etməklə bütün sualları cavablandırıblar. ATM-2-də isə müsahiblərin sayı 4 nəfərə çatdıqda məlumat doymuşluğu əldə edilmişdir. Məlumat doymuşluğu (data saturation), məlumat toplanan zaman heç bir yeni və ya əlavə fikirin ortaya çıxmadığı andır (Christou, 2025).

İştirakçıların hər biri akkreditasiya prosesində iştirak etmiş, ya da akkreditə edilmiş proqramlar üzrə tədris aparan şəxslərdir. 3 nəfər isə akkreditasiya üzrə ekspertlərdir.

Tədqiqatda iştirak etmiş 5 ATM-in ümumi akkreditasiya vəziyyəti Cədvəl 4-də əks olunub. Beynəlxalq proqram akkreditasiyasında iştirak etmiş proqramların adları P1-P17 kimi kodlaşdırılmışdır. Burada P-proqramı, qarşısındakı rəqəm isə proqramın ATM-lərə görə ardıcıllığını müəyyən edir. Bu kodlama sadəcə proqramların sayını, hansı təhsil səviyyəsində yerləşdiyini və ATM-lərə təsnifatını anlamaq üçün yaradılmışdır.

**Cədvəl 4.**

*ATM-lərin Akkreditasiya Məlumatları*

| **Müəssisələr** | **İnstitusional akkreditasiyada iştirak** | **Beynəlxalq proqram akkreditasiyasında iştirak** | | **Cəmi** |
|---|---|---|---|---|
| | | **Bakalavr səviyyəsi üzrə ixtisaslar** | **Magistr səviyyəsi üzrə ixtisaslar** | |
| ATM-1 | Bəli | P1 | P2 | 2 |
| ATM-2 | Xeyr | P3 | P4, P5 | 3 |
| ATM-3 | Xeyr | P6-B, P7-B, P8-B. | P6-M, P7-M, P8-M. | 6 |
| ATM-4 | Bəli | P9, P10, P11 | - | 3 |
| ATM-5 | Bəli | P12, P13, | P14 | 3 |

Cədvəl 3-dən göründüyü kimi, tədqiqatda iştirak etmiş 5 ATM-də bakalavr səviyyəsi üzrə 7 ixtisas, magistr səviyyəsi üzrə 4 ixtisas beynəlxalq proqram akkreditasiyasından keçmişdir. 3 ixtisas isə həm bakalavr səviyyəsi üzrə, həm də magistr səviyyəsi üzrə beynəlxalq proqram akkreditasiyasından keçmişdir. Ümumilikdə 17 proqram beynəlxalq proqram akkreditasiyasından keçmişdir.

**Data toplama prosesi.**

Tədqiqatda məlumat toplamaq üçün ilkin mərhələdə 1 iştirakçı ilə pilot tətbiq həyata keçirilib. Pilot müsahibənin tətbiq olunmasında əsas məqsəd istifadə olunan ölçmə vasitəsindəki sualların işləkliyini yoxlamaq və müsahibə suallarının araşdırmanın tədqiqat suallarına uyğunluğunu yoxlamaqadır. Pilot tətbiqlər müsahibə formasında qüsurlu sualları əvvəlcədən müəyyənləşdirib aradan qaldırmağa imkan verir (Willis, 2015).

Pilot müsahibə regionda yerləşən ATM-in daxili keyfiyyət təminatı əlaqəli əməkdaşı ilə aparılmışdır. Müsahibə aparılmadan bir neçə gün öncə respondentlə telefon əlaqəsi yaradılıb və könüllü şəkildə iştirak etməsi barədə razılıq əldə edilib. Sonra isə e-poçt vasitəsilə etik sözləşmə göndərilib. Müsahibə respondentin istəyinə uyğun olaraq ATM-in binasında həyat keçirilib. Pilot müsahibə 41 dəqiqə müddətində aparılıb. Müsahibə zamanı aparılan söhbətlərin səs yazıları qeydə alınıb və müsahibin cavablarına əsasən bəzi suallar təkmilləşdirilib. Belə ki, bəzi sualların qoyuluşu dəyişdirilib və ya həmin sualdan istifadəyə ehtiyac qalmayıb. Daha sonra əsas datalar toplanıb. İştirakçılar və müsahibələrlə bağlı məlumatlar Cədvəl 5-də əks olunub.

**Cədvəl 5.**

*İştirakçılar və Müsahibələrlə Bağlı Məlumatlar*

| İştirakçı kodu | Pedaqoji staj | Akkreditə olunmuş proqramda üzrə tədris aparması | Müsahibin akkreditasiya prosesində rolu | Tarix | Müsahibənin müddəti |
|---|---|---|---|---|---|
| A1 | Xeyr | Xeyr | Koordinator | Mart 2025 | 36 |

| | | | | | |
|---|---|---|---|---|---|
| B1 | Bəli | Xeyr | Koordinator | Fevral 2025 | 22 |
| B2 | Bəli | Xeyr | Kafedra müdiri və təşkilati məsələlər | Fevral 2025 | 33 |
| B3 | Bəli | Bəli | Müəllim kimi sorğuda iştirak edib | Fevral 2025 | 18 |
| B4 | Bəli | Bəli | Koordinator | Fevral 2025 | 29 |
| C1 | Bəli | Bəli | Koordinator | Fevral 2025 | 26 |
| C2 | Bəli | Bəli | Koordinator | Fevral 2025 | 42 |
| D1 | Bəli | Bəli | Koordinator | Fevral 2025 | 27 |
| D2 | Bəli | Bəli | Katib və elmi məsələlərə cavabdeh | Mart 2025 | 31 |
| E1 | Bəli | Xeyr | Koordinator | Mart 2025 | 20 |
| E2 | Bəli | Bəli | Dekan və məsul şəxs | Mart 2025 | 26 |
| F1 | Xeyr | Xeyr | Ekspert | Fevral 2025 | 27 |
| F2 | Xeyr | Xeyr | Ekspert | Fevral 2025 | 20 |
| F3 | Xeyr | Xeyr | Ekspert | Fevral 2025 | 15 |

14 nəfər müsahibə iştirakçısından 10 nəfəri pedaqoji fəaliyyətlə məşğuldur, onlardan 7 nəfəri beynəlxalq proqram akkreditasiyasından keçmiş proqramlarda tədris aparır. Müsahibə iştirakçılarından 7 nəfəri prosesdə koordinator kimi, 3 nəfəri rəhbəri olduğu kafedranın (dekanatlığın) məsul şəxsi kimi, 3 nəfəri ekspert qismində müşahidəçi kimi, 1 nəfəri isə müəllim kimi iştirak etmişdir.

Müsahibənin gedişindən asılı olaraq əlavə suallardan (alt suallardan) istifadə etmək zərurəti yaranıb. Bu proses daha çox müsahibin verdiyi cavablardan asılı olub

2025-ci ilin Fevral və mart aylarında həyata keçirilən müsahibələr ən az vaxt aparanı 15 dəqiqə, ən uzunu vaxt aparanı isə 42 dəqiqə olmaqla ümumilikdə 372 dəqiqə müddətində reallaşıb. İştirakçı cavablarının dəqiqliyinin qorunması və daha keyfiyyətli təhlil aparmaq məqsədilə iştirakçıların icazəsi alınaraq, müsahibə zamanı aparılan söhbətlərin səsyazıları qeydə alınıb. Dataları toplamaq üçün yarıstrukturlaşdırılmış müsahibə metodundan istifadə edilib. Müsahibə metodu tədqiqatçı ilə iştirakçı arasındakı söhbətə əsaslanıb. Ümumilikdə 14 müsahibədən 10-

u əyani formada həyata keçirilib. Müsahibənin yeri və zamanı iştirakçılar tərəfindən müəyyən edilib. Müsahibələr iştirakçıların iş qrafikinə uyğunlaşdırılıb və müsahibələr ATM-lərin binası daxilində baş tutub. Bu həm də, beynəlxalq proqram akkreditasiyası ilə bağlı müəyyən sənədlərlə tanış olmaq imkanı yaradıb. Bəzi iştirakçıların ölkə xaricində olması və vaxt çatışmazlığı səbəbindən müsahibələrin 4-ü onlayn formada Google Meet - video-rabitə xidməti vasitəsilə həyata keçirilib.

Müsahibədən öncə iştirakçılara etik sözləşmə formu (Əlavə 2) təqdim edilib. Etik sözləşmə formunda iştirakçı tədqiqat işi və müsahibənin gedişi haqqında məlumat verilib. Qeyd olunub ki, bu müsahibədə iştirak etmək könüllüdür, onların istədiyi vaxt hər hansı suallara cavab verməkdən imtina və ya bütünlüklə müsahibədən imtina etmək hüquqları vardır.

**Etibarlılıq və etik məsələlər.**

Bu tədqiqatda etibarlılıq və etik normalara riayət olunub.

**Etibarlılıq.** Etibarlılıq baxımından müsahibə sualları beynəlxalq proqram akkreditasiyasının müxtəlif aspektlərini (prosesin müddəti, mərhələləri, məqsədi, çətinliklər, tövsiyələr, qazanclar və s.) əhatə edəcək şəkildə hazırlanıb və mütəxəssislərin rəyindən sonra son formaya salınıb. Pilot müsahibə həyata keçirilərək sualların işləkliyi, aydınlığı yoxlanılıb və təkmilləşdirilib.

Bütün müsahibələr eyni formatda aparılıb, bütün iştirakçılara oxşar suallar verilib, cavabların müqayisə edilə bilməsi üçün analiz mərhələsində eyni kodlama izlənilib, söhbətin gedişinin müsahibə protokolunun məqsədindən kənara çıxmasına yol verilməyib. Transkriptlər kodlaşdırıldıqdan sonra, manual şəkildə təkrar yoxlanılıb.

**Etik məsələlər.** Bu araşdırmada Azərbaycanda fəaliyyət göstərən 5 ATM iştirak edib. ATM-lərin hər birinə ayrı-ayrılıqda araşdırmada iştirakla bağlı icazə məktubu (Əlavə 3) göndərilib və bütün ATM-lər iştirakla bağlı məktuba müsbət cavab veriblər. Müsahibə iştirakçılarına müsahibələrdən əvvəl etik sözləşmə (müqavilə) təqdim edilib və tədqiqatın məqsədi, müsahibələrin aparılma qaydası, nəticələrin necə istifadə olunacağı açıqlanıb. Tədqiqatda

iştirak könüllülük prinsipi əsasında olmuşdur. İştirakçıların anonimliyi və məxfiliyi qorunmuş, onların adları və şəxsi məlumatları qeyd olunmayıb. Səs yazılarının götürülməsi yalnız iştirakçının icazəsi varsa mümkün olmuşdur, icazəsi olmayan hal qeyd olunmayıb.

İştirakçılar istədikləri zaman müsahibədən çəkilə biləcəkləri barədə məlumatlandırılıb, müsahibələr zamanı verilən cavablar yalnız elmi məqsədlə istifadə olunub, üçüncü şəxslərlə paylaşılmayıb.

## Data təhlili

İlkin növbədə etik qaydalara uyğun olaraq tədqiqatın obyekti olan ATM-lərin adları ATM-1 – ATM-5 kimi kodlaşdırılıb. İştirakçı kimlikləri isə hər bir ATM üzrə fərqli hərflərlə - A-1, B-3, E-2 kimi kodlaşdırılıb. Ümumilikdə A, B, C, D, E hərflərindən isitfadə olunub. F hərfi isə ekspertlərin kodlaşdırılmasında istifadə edilib. Sonra bütün müsahibələr zamanı aparılan söhbətlərin səs qeydləri kağız daşıyıcıya köçürülərək transkripti hazırlanıb. Transkriptlər *TurboScribe* onlayn transkripsiya aləti vasitəsilə həyata keçirilib. Transkriptlər hazırlandıqdan sonra mətnlər, Azərbaycan dilinin qaydalarına uyğun olaraq texniki, orfoqrafik və qrammatik səhvlər düzəldilərək korrektə edilib.

Əldə edilən transkriptlər araşdırmaçı tərəfindən oxunulub. Daha sonra iştirakçıların cavablarına əsasən bu araşdırmanın məqsədinə çatmaq üçün əldə edilən datalar məzmun analizinə uyğun təhlil edilməyə başlanıb. Əldə olunan datalar keyfiyyət metoduna uyğun olaraq tematik (məzmun) təhlil ilə incələnmişdir. Əvvəlcə datalar üzərində kodlar, bəzən isə alt kodlar yaradılıb. Daha sonra məzmunca yaxın kodlar qruplaşdırılaraq kateqoriyalar yaradılıb. Yaxın məzmunlu kateqoriyalar isə mövzular altında birləşdirilib və əldə edilmiş datalar arasında əlaqələr tapılıb.

Data təhlilindən sonra yaradılan kodlar kateqoriyalarda, kateqoriyalar isə mövzularda qruplaşdırılaraq təsnif edilib. Təhlil zamanı ***agentliklər haqda məlumatlar, akkreditasiya prosesi, akkreditasiya prosesinin mərhələləri, dəyişikliklər, tələbə məmnunluğu, çətinliklər,***

***tövsiyələr, irad və təkliflər*** *kimi* mövzular (temalar) müəyyən edilib. Hər bir temanın kateqoriyaları, kodları ayrıca cədvəl şəklində verilib və nəticələr istinadlar göstərilməklə təqdim edilib.

## Tapıntılar

Tədqiqat işinin bu hissəsində tədqiqatın məqsədinə uyğun olaraq toplanmış məlumatların təhlili nəticəsində əldə edilmiş tapıntılar təqdim edilib. Seçilmiş ATM-lərin beynəlxalq proqram akkreditasiyası mövzusunda təcrübə və fikirlərini öyrənmək məqsədi ilə istifadə edilən müsahibələrdən əldə olunmuş şərhlər yer almaqdadır. Data təhlili zamanı ***agentliklər haqda məlumatlar, akkreditasiya prosesi, akkreditasiya prosesinin mərhələləri, dəyişikliklər, tələbə məmnunluğu, çətinliklər, tövsiyələr, irad və təkliflər*** kimi mövzular yaranıb.

### Agentliklər haqqında məlumatlar.

Tədqiqat aparılan ATM-lərdə akkreditasiya prosesini həyata keçirən agentliklər haqqında məlumatlarla Cədvəl 6-da təqdim edilib.

**Cədvəl 6**

*Akkreditasiya Prosesini Aparan Agentliklər*

| Agentliyin adı | Agentliyin tam adı | Tətbiq olunan standartlar | Üzvlük | Məkan |
|---|---|---|---|---|
| **ACBSP** | Accreditation Council for Business Schools and Programs | ENQA ümumi standartlar, CHEA tematik standartlar | CHEA-nın tam üzvü, ENQA-nın əlaqəli üzvü | ABŞ mərkəzli |
| **IAAR** | Independent Agency for Accreditation and Rating | ENQA ümumi standartlar, IAAR tematik standartlar | ENQA-nın tam üzvü | Qazaxıstan mərkəzli |
| **RIBA** | Royal Institute of British Architects | RİBA tematik standartlar | Memarlıq üzrə müstəqil agentlik | Britaniya |
| **WFME (IAAR)** | World Federation for Medical Education | ENQA ümumi standartlar, WFME tematik standartlar | ENQA-nın tam üzvü | Böyük Britaniya mərkəzli |

Akkreditasiya prosesində 4 müxtəlif agentlik iştirak edib. Onlardan 3-ü ENQA və CHEA-nın üzvlüyünü tam və ya qismən daşıyırlar. 1 agentlik isə müstəqil fəaliyyət göstərir.

Cədvəldən göründüyü kimi ATM-lər agentlik seçimində ENQA və ya CHEA-ya üzvlüyü əsas meyar kimi götürüblər. Bu fikri digər iştirakçılarla (E1, B1, C2, D2) yanaşı, ekspert də təsdiqləyib. "Şərt olan, prioritet olan həmin agentliyin ENQA-nın üzvlüyündə olmasıdır" (F1).

**Akkreditasiya prosesi.**

Bu mövzu adı altında akkreditasiya prosesinin meyarlar, tələblər, proqram seçimi və digər xüsusiyyətlər adlı kateqoriyalarda üzrə əksini tapıb.

**Meyarlar və tələblər.** Proses zamanı istifadə oluna meyarlar və tələblər haqqında toplanmış məlumatlar cədvəl 7-də göstərilmişdir.

**Cədvəl 7.**

*Meyarlar və Tələblər*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Meyarlar | Əsas meyarlar (ESG 2015) | 7 | ATM-4 | D1 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-3 | C1 |
| | | | ATM-3 | C2 |
| | | | ATM-1 | A1 |
| | | | Ekspert | F1 |
| | Spesfik meyarlar | 6 | ATM-4 | D1 |
| | | | ATM-1 | A1 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-2 | B2 |
| | | | ATM-2 | B4 |
| Tələblər | Müəllimlərin PhD dərəcəsi | 1 | ATM-1 | A1 |
| | Təlim Nəticələrinin ölçülməsi | 2 | ATM-1 | A1 |
| | | | ATM-4 | D2 |
| | Məzunlarla iş | 1 | ATM-5 | E1 |

Beynəlxalq proqram akkreditasiyası ESG - Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Standartlar və Təlimatlarının (Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area) ümumi meyarları əsasında aparılır. Bunu ESG sənədi,

ekspert (F1) və iştirakçılar (C1, C2, B1, A1, D1, D2) təsdiqləyirlər. ESG formasından və məkanından asılı olmayaraq, EHEA-da təklif olunan bütün ATM-lərə şamil edilir. Buna görə də, ESG həm də bütün ATM-lərə, o cümlədən transmilli və ölkələrarası təhsil təminatına da şamil edilir (European Association for Quality Assurance in Higher Education [ENQA] et al., 2015).

ENQA-nın ümumi keyfiyyət təminatı standartları "ESG 2015" üç hissəyə bölünür. Daxili keyfiyyət təminatı, xarici keyfiyyət təminatı və keyfiyyətə zəmanət agentlikləri. Bu 3 hissə bir-biri ilə əlaqəlidir və hər hissə özündən əvvəlkinə istinad edir (ENQA et al., 2015). ESG keyfiyyət təminatı standartları cədvəl 8-də göstərilmişdir.

**Cədvəl 8.**

*Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Standartları*

| **1. Daxili keyfiyyət təminatı** | **2. Xarici keyfiyyət təminatı** | **3. Keyfiyyətə zəmanət agentlikləri** |
|---|---|---|
| 1.1 Daxili keyfiyyət təminatı siyasəti | 2.1 Daxili keyfiyyət təminatının nəzərə alınması | 3.1 Keyfiyyətin təminatı üzrə fəaliyyətlər, siyasət və proseslər |
| 1.2 Proqramların tərtibi və təsdiqi | 2.2 Məqsədlərə uyğun metodologiyaların layihələndirilməsi | 3.2 Rəsmi status |
| 1.3 Tələbə mərkəzli öyrənmə, tədris və qiymətləndirmə | 2.3 Proseslərin həyata keçirilməsi | 3.3 Müstəqillik |
| 1.4 Tələbələrin qəbulu, irəliləməsi, tanınması və sertifikatlaşdırılması | 2.4 Həmkar dəyərləndimrə ekspertləri | 3.4 Tematik təhlil |
| 1.5 Müəllim heyəti | 2.5 Nəticələr üçün meyarlar | 3.5 Resurslar |
| 1.6 Təlim resursları və tələbə dəstəyi | 2.6 Hesabat vermək | 3.6 Daxili keyfiyyət təminatı və peşəkar davranış |
| 1.7 İnformasiyanın idarə edilməsi | 2.7 Şikayətlər və müraciətlər | 3.7 Agentliklərin dövri xarici baxışı |
| 1.8 İctimai məlumat | -- | -- |
| 1.9 Proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi | -- | -- |
| 1.10 Dövri xarici keyfiyyət təminatı | -- | -- |

Xüsusi səriştə tələb edən ixtisaslarda isə proqram akkreditasiyası spesifik meyarlar əsasında aparılır. İştirakçılardan biri (D1) qeyd edib ki, "bizim proqram akkreditasiyasını IAAR-da WFME -nın və ENQA-nın meyarlarını cəmləşdirən kriteriyalar komplekti hazırlayırlar və bizim proqram akkreditasiyası o meyarlardan keçir". WFME standartları (World Federation for Medical Education, n.d.) 8 bənddən ibarət olmaqla 3 əsas standartı əhatə edən "trilogiya sahəsi" kimi tərtib olunub.

Müstəqil Akkreditasiya və Reytinq Agentliyi (IAAR) ESG və WFME standartları əsasında hazırlanmış standartlara uyğun olaraq beynəlxalq akkreditasiyanı təmin edir. IAAR agentliyi standart və təlimatları (Independent Accreditation and Rating Agency [IAAR], n.d.) tematik şəkildə təsnif etmişdir. Beynəlxalq akkreditasiya aparılarkən standartlar müvafiq ölkələrin təhsil qanunvericiliyinin xüsusiyyətlərini nəzərə almağa imkan verir.

Digər iştirakçı isə (A1) "əvvəlcə AMBA-nı (Association of MBAs) test etdik, sonra ACBSP-ni düşündük və axırda onun üzərində durduq. Əsas səbəbi budur ki, ən çox onun tələblərinə uyğun gəlirdik" deyə qeyd edib. ACBSP akkreditasiya zamanı 7 standart tətbiq edir - rəhbərlik, strateji planlaşdırma, tələbə və maraqlı tərəflərin diqqəti, tələbə öyrənmənin qiymətləndirilməsi, fakültə diqqəti, kurikulum və biznes bölməsinin performansı (ACBSP, n.d.). İştirakçı E2 RİBA agentliyindən bəhs edərək qeyd edib ki, RİBA - Britaniya Memarlarının Kral İnstitutudur (Royal Institute of British Architects). RİBA müstəqil agentlikdir və spesifik meyarlarla 3 səviyyədə akkreditasiya aparır: İlkin bakalavr mərhələsi, magistr səviyyəsi və peşəkar səriştə və imtahan mərhələsi (RIBA, n.d.). Uyğunluq sertifikatı almaq üçün akkreditasiya prosesinin öz tələbləri var və bu tələblər proqramlara görə fərqlənir. İştirakçılardan biri (A1) bu haqda geniş məlumat verib. Məsələn, magistr proqramlarında tələb var ki, tədris aparanların 70%-i fəlsəfə doktoru olmalıdır, 30%-i ola bilər ki, i fəlsəfə doktorluğu olmasın, amma magistr dərəcəsi olmalıdır. Amma bakalavrlarda bu tələb 60-40%-a bərabərdir. Digər meyar təhsil müəssisəsinin öz proqramını ölçməsi ilə bağlıdır. ATM özü

qərar verməlidir ki, birbaşa olaraq öz proqramını nə ilə ölçür. Proqramın təlim nəticələri, fakültənin strategiyasına uyğunluğu fakültənin strategiyasının, universitetin strategiyasına uyğunluğu da meyarlar içindədir.

Təlim nəticələrinin hansı vasitələrlə ölçülməsi də tələblər daxilindədir. Məsələn, olmalıdır həm quizlər, həm keyslər, həm qrup layihələri, keyfiyyəti ölçən müxtəlif keyfiyyət xarakterli tapşırıqlar, proseduralar (A1). İştirakçı (D2) isə qeyd edib ki, "əgər siz beynəlxalq akkreditasiyasını edirsinizsə, həmin proqramın ən azı üç buraxılış dövrü olmalıdır". E1 kodlu iştirakçı akkreditasiyanın tələbləri kimi məzunlarla iş, məzunlarla sorğu, məzunların izlənməsi məsələlərini qeyd etmişdir.

**Proqram seçimi.** Müsahibə zamanı akkreditasiya olunacaq ixtisasların seçilməsi ilə bağlı iştirakçılardan toplanmış məlumatlar Cədvəl 9-da təqdim edilib.

**Cədvəl 9.**

*Proqram Seçimində Əsas Səbəblər*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Proqram seçimi | Əsas ixtisas | 5 | ATM-4 | D1 |
| | | | ATM2 | B3 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-5 | E2 |
| | Unikallıq | 2 | ATM-3 | C2 |
| | | | ATM-2 | B4 |
| | İngilis dilində tədris | 1 | ATM-5 | E1 |
| | İkili diplom və beynəlxalq əlaqələr | 1 | ATM-2 | B2 |

Müsahibə zamanı "nə üçün akkreditasiya olunmaq üçün məhz bu proqramı (ları) seçmisiniz" sualının cavabında iştirakçılardan 5 nəfəri (D1, D2, B1, B3, E2) səbəb kimi ən geniş, ən çox tələbə sayı olan, ən uğurlu və ən əsas proqram olmasını göstəriblər. İştirakçı E1 uzunmüddətli strateji inkişaf plana uyğun olaraq, prioritetin ingilis dilində tədris olunan proqramlar olduğunu qeyd edib. B2 kodlu iştirakçı isə seçim səbəbinin ikili diplom və beynəlxalq əlaqələr olduğunu qeyd edib. Digər 2 iştirakçı (C2 və B4) isə ixtisasların unikallığını səbəb kimi göstərib. "Bunlar

bizim emblem ixtisaslarımızdır, yalnız bizə məxsusdur, Azərbaycanda başqa heç universitetdə yoxdur” (C2). Ekspert F1 isə bildirib ki, TKTA tərəfindən aparılan proqram akkreditasiyasında proqram seçimi müvafiq təhsil pillələri üzrə təsnifatlara istinadən, həmçinin sorğular və rəylər əsasında seçilir.

**Digər xüsusiyyətlər.** Müsahibələr zamanı iştirakçılar akkreditasiya prosesinin vəziyyətə görə dəyişən müxtəlif xüsusiyyətlərini sadalayıblar. Bunlar digər xüsusiyyətlər kateqoriyasında ümumiləşdirilib və cədvəl 10-da təqdim edilib.

**Cədvəl 10.**

*Proqram Seçimində Əsas Səbəblər*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Digər xüsusiyyətlər | Bakalavr səviyyəsinin digər ATM-də olması | 1 | ATM-2 | B4 |
| | Tövsiyələr və müddət əlaqəsi | 1 | ATM-1 | B1 |
| | ATM-in rəhbərliyinin akkreditasiyaya təsiri | 1 | ATM-3 | C1 |
| | TKTA nümayindəsinin dəvəti | 1 | ATM-3 | C2 |
| | BA-nın TKTA-nın meyarları fərqlidir | 6 | ATM-5 | E1 |
| | | | ATM-4 | D1 |
| | | | ATM2 | B3 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-5 | E2 |
| | BPA-nın TKTA-nın akkreditasiaysı meyarları oxşardır | 2 | ATM-2 | B1 |
| | | | ATM-5 | E2 |
| | BA Agentlikləri akkreditasiyadan sonra monitorinq etmir | 3 | Ekspert | F1 |
| | | | Ekspert | F2 |
| | | | Ekspert | F3 |

Müsahiblərdən B4 kodlu iştirakçı qeyd edib ki, bizim ATM-də elə ixtisaslar var ki, magistr dərəcəsindən başlayır. Tələbələr bakalavr səviyyəsini digər ATM-də bitirib gəlirlər. Bu səbəbdən də, həmin ixtisasların bakalavr səviyyəsini akkreditə edə bilmirik. İştirakçı A1 qeyd edir ki, *minor change* (kiçik dəyişikliklə) ilə akkreditə olunmuş proqram 4 ildən sonra yenidən hesabat təqdim etməlidir, tövsiyələr daha ağırdırsa, o zaman hər 2 ildən bir hesabat təqdim etməlidir. Əgər ATM həmin agentliklə təkrar akkreditasiyaya getmək istəyirsə, 8-ci ildə artıq

yenidən özünütəhlil hesabatı yazılır, 9-cu ildə yenə sahə səfərinə gəlirlər. Təkrar akkreditasiya daha asan olur. Sahə səfərindən danışan zaman C1 qeyd edib ki, "Görüş və sorğu otaqlarını hazırladıq, kameranı düzəltdik. Hər şeyi bir topladıq əvvəlcədən, hər şeyi hazırladıq ki, bizim bu mərhələdə təmasımız olmasın". Buradan nəticə çıxarmaq olar ki, BA agentliyi rəhbərliyin prosesə təsirini sıfıra endirmək istəyiblər.

Müsahibələr zamanı beynəlxalq proqram akkreditasiyasının TKTA-nın akkreditasiyası ilə müqayisə edənlər olub. İştirakçıların çoxu bu fikirdədirlər ki, beynəlxalq proqram akkreditasiyası ilə TKTA-nın həyata keçirdiyi akkreditasiya ilə oxşar cəhətləri olsa da fərqli cəhətləri də mövcuddur. D1 həm tələbələrlə, həm də müəllimlərlə anonim sorğuların təşkil olunmasından və meyarların fərqli olmasını vurğulayıb. "TKTA-nın akkreditasiyasından sonra biz daha rahat akkreditasiyadan keçirik, amma onlar bizə beynəlxalq dərəcəli şəhadətnamə vermirlər və bizim diplomlarımız beynəlxalq tanınmır" (E1). Bu fikirdən aydın olur ki, ATM beynəlxalq proqram akkreditasiyasına nə üçün maraq göstərir. İştirakçı B2 qeyd edir ki, "Onlar bizdən hər bir ixtisasın pasportunu istədilər. Azərbaycan təhsil sistemində ixtisasların pasportu olmur, bu yeni yanaşmadır bizim üçün. Bizdə dövlət standartları əsasında tənzimlənir bu işlər. Amma biz onların istəyini nəzərə alaraq ixtisas üçün 3 dildə ixtisas pasportu hazırladıq". B1 və E2-yə görə isə meyarlar ümumilikdə oxşardır lakin sayları fərqlidir. "Yəni biz heç nəyi formal etmirik, qoy TKTA-nın eksperti gəlib canlı şəkildə görsün ki, bu yoxlama nə qədər real, obyektiv və şəffaf keçirilən bir prosesdir" (C2). Bu fikir onu göstərir ki, bəzi ATM-lər beynəlxalq proqram akkreditasiyası zamanı TKTA-nın əməkdaşlarını müşahidəçi qismində dəvət edirlər ki, prosesin şəffaf şəkildə keçdiyindən əmin olsunlar. C1 Azərbaycan tərəfindən müşahidəçi qismində dəvət olunan müşahidəçini heç tanımadıqlarını, ilk dəfə gördüklərini qeyd edib. İştirakçı F1 isə "institusional akkreditasiya proqramın da, akkreditasiyadan keçdiyi mənasına gəlmir, sistemin akkreditasiyadan keçdiyi mənasına gəlir" fikrini qeyd edib.

Ekspertlərin (TKTA) bu barədə fikirləri isə fərqli olub. Aşağıdakı 3 müxtəlif fikirdən bunu görmək olar. "Gəlirlər, universitetlərin proqram akkreditasiyasını edirlər və onun monitorinqini həyata keçirmirlər. Keyfiyyəti izləmək isə davamlı bir prosesdir, oradakı verilən tövsiyələrin icrasına nəzarət mexanizmi olmalıdır axı" (F1). Ekspert (F3) isə qeyd edir "olub ki, ATM beynəlxalq proqram akkreditasiyasından keçib, amma institusional akkreditasiyadan keçə bilməyib. Bu artıq sual yaradır". Digər ekspert (F2) isə deyilənləri dəstəkləyərək bildirir ki, bəzən universitetlərin proqram akkreditasiyasından sanki göstəriş kimi, özünü reklam kimi keçmək istədiklərini təəssüflənərək qeyd edir. Buradan belə nəticəyə gəlmək olar ki, indiki halda ekspertlər beynəlxalq proqram akkreditasiyası zamanı tövsiyələrin icrasına ciddi nəzarət olunmlıdır. Başqa bir fikirdə. "Ölkədə olan təhsil siyasətinə uyğun seçilmiş proqramların akkreditasiyasını TKTA həyata keçirir. Proqramların tanınmasının yolu da budur" (F1). İştirakçı F1 sözlərində görə bu proses qanunvericiliyə əsasən seçmə üsulla aparılır və TKTA dövlət qurumu kimi çıxış edir. Digər tərəfdən də, bütün proqramların bir qurum tərəfindən akkreditə edilməsi fiziki cəhətdən mümkün deyil. Buna görə də universitetlər məcburdurlar ki, ayrı-ayrı proqramların akkreditasiyasını xarici keyfiyyət təminatı agentliklərinin vasitəsilə həyata keçirsinlər.

**Akkreditasiya prosesinin mərhələləri.**

Beynəlxalq proqram akkreditasiya prosesinin 7 mərhələdən ibarət olduğu müəyyən edilib. Hər mərhələyə aid məlumatlar eyni adlı kateqoriyada birləşdirilib. Bu mövzu üzrə əldə edilən məlumatlar aşağıdakı sxemdə əksini tapıb. Sxem 2.




**Müraciət**. Bütün iştirakçıların qeydlərinə əsasən müraciət akkreditasiya prosesinin ilkin mərhələsini təşkil edir. İştirakçıların bir çoxu (B1, B2, B3, B4, A1, E1, E2, D1, D2, C1, C2) proqram seçimini və agentlik seçimini etdikdən sonra Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə müraciət edildiyini qeyd edib. “Ümumi razılıqdan sonra rəsmi məktubla müraciət olunur və müqavilə bağlanır” (C2). Bu ifadədən anlamaq olur ki, yalnız Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən razılıq aldıqdan sonra beynəlxalq agentliyə müraciət rəsmi şəkildə baş tutur.

**Hazırlıq**. Bütün iştirakçıların qeydlərinə görə hazırlıq mərhələsində ATM-lər müraciət etdikləri agentliklərin şərtləri ilə tanış olur və həmin şərtlərə, qaydalara uyğunlaşmaq üçün hazırlaşırlar. C2 kodlu istifadəçinin fikrincə əslində ATM müraciətdən əvvəl hazırlaşmağa başlamış olur, sadəcə qeyri-rəsmi şəkildə. “İkili diplom proqramı çərçivəsində biz buradakı tədris proqramımızı eyniləşdirməyə məcbur olduq” (E2). Buradan aydın olur ki, hazırlıq mərhələsi uyğunlaşma üçün mühüm əhəmiyyət daşıyır. İştirakçı A1 isə qeyd edib ki, biz kifayət qədər detallı izahlar hazırlamışdıq ki, bütün suallara cavabımız olsun.

**Özünütəhlil hesabatı**. Özünütəhlil hesabatının hazırlanması, ATM-in özünün xarici akkreditasiya agentliyinin qiymətləndirmə meyarlarına və indikatorlarına nə dərəcədə uyğun

olduğunu yoxlamaq etmək üçün hazırlanır. Bu bütün iştirakçıların ümumiləşdirilmiş fikridir. “Onların bizə verdiyi 10 standart üzrə hansı şərtləri ödəyirik beynəlxalq akkreditasiya üçün, onları təhlil edib göstərməyə çalışdıq ki, nə üçün biz o sertifikatı qazanmalıyıq” (B2). Digər ATM-lərdə standart sayı fərqli olub (C1, E2). İştirakçı B4 sillabusları, proqramları yeni formata, yeni şablona uyğunlaşdırdıqlarını, sənədlərin mövcudluğunu, lakin yeni formata uyğun olmadığını qeyd edib. İştirakçılar A1 və C1 qeyd ediblər ki, “özünü təhlil hesabatını, həm də bütün sənədləri təqdim edəndən sonra, üç ay ərzində onlar həmin sənədlərə baxış keçirirlər”. A1, C2, D1 və E2 özünütəhlil hesabatlarını yazmaq üçün BA agentliyi tərəfindən onlayn hazırlıq təlimlərinin keçildiyini qeyd ediblər. Bu da onu göstərir ki, hər agentliyin tələb etdiyi hesabat forması fərqli olur.

**İlkin qiymətləndirmə.** Bu mərhələdə özünütəhlil hesabatları müvafiq xarici agentliyə göndərilir. “Özünütəhlil hesabatını, həm də bütün sənədləri təqdim edəndən sonra, 3 ay ərzində onlar həmin sənədlərə baxış keçirirlər” (A1). Bu onu deməyə əsas verir ki, özünütəhlil hesabatlarının yoxlanılması üçün müəyyən müddət təyin edilir. “Özünütəhlil hesabatı tələblərə uyğun tərtib olunubsa komissiya tərəfindən təsdiq olunur, ehtiyac yarandıqda isə düzəliş üçün geri göndərilir” (D1).

**Sahə səfəri**. Sahə səfəri hər şeyi əyani şəkildə yerində görmək üçün təşkil olunur. “Rektordan fakültə dekanlarına, kafedra müdirlərinə kimi, prorektorlarla, tələbələrlə görüşlər keçirilirdi” (C2). B2-nin sözlərinə görə sahə baxışının bütün qrafiki xarici agentlik tərəfindən verilir və məxfi saxlanılır. “Biz bilmirik hansı saatda kimlərlə görüş olacaq, hansı saatda harada olacaqlar” (B2). Digər iştirakçılar (D1, E1, C1, B4) qeyd ediblər ki, onlar bütün binalara, kampusa, universitetin korpuslarına, tələbə yataqxanasına, maddi-texniki bazaya, kitabxanaya bir sözlə proseslə bağlı olan hər şeyə baxış keçiriblər. D2 və B1-in sözlərinə görə proqram və sillabuslar əvvəldən yoxlanıldığı üçün, sahə səfərində onların həyata keçilməsi proseslərinə fokuslanıblar. Həmçinin TKTA-dan bir əməkdaş nəzarətçi qismində iştirak edir və oradakı

prosesləri müşahidə edir (F1). İştirakçıların qeydlərinə görə sahə səfərinin müddəti ATM-1, ATM-2 və ATM-3-də 3 gün, ATM-4 və ATM-5-də isə 5 gün olub.

**Yekun hesabat**. Sahə səfərindən sonra komissiyalar yekun hesabat hazırlayıb tövsiyələrlə birlikdə ATM-lərə təqdim edirlər. (A1). D1 kodlu iştirakçı qeyd edib ki, "O tövsiyələri alırsınız və əgər uğurlu olursa, akkreditasiyadan keçirsiniz 5 il müddətində ATM həmin meyarlarla akkreditasiya olunmayacaq". Bu o deməkdir ki, beynəlxalq agentlik akkreditə etdiyi proqrama yalnız əvvəlcədən məlum olan müəyyən meyarlara görə cavabdehdir.

Bu mərhələni iştirakçı C2-nin sözlərinə görə komissiya gedəndən sonra öz təhlillərini aparır, yekun hesabat hazırlayır və ATM-ə göndərilər. ATM oxuyur, razı olub olmadığını bildir. Mübahisəli məsələlər olduqda qarşılıqlı ortaq məxrəcə gəlirlər. "Məsələn, müəyyən fənlərin proqramları yoxdur deyə qeyd olunmuşdu. Biz əyani göstərdik ki, filan tarixində ya Elm və Təhsil Nazirliyi tərəfindən ya da bizim Elmi Şura tərəfindən təsdiqlənmiş proqramlarımız mövcuddur" (C2). F1 kodlu iştirakçının qeydlərinə görə sonda yekun hesabat və şəhadətnamə TKTA-ya təqdim olunur. Onlar yekun hesabatı təhlil edirlər, sonra onun əsasında rəy formalaşır və rəy Akkreditasiya Şurasına təqdim edilir. Akkreditasiya Şurasının qərarından sonra TKTA öz səhifəsində yayımlayır. "Yəni, bu proqramın beynəlxalq akkreditasiyası dövlət akkreditasiyası tərəfindən də tanınır" (F1).

**Təkrar monitorinq**. Bu barədə bütün iştirakçılar (A1, B1, B2, B3, B4, E1, E2, D1, D2, C1, C2, F1, F2, F3) həmfikirdir ki, təkrar monitorinq tövsiyələrin yerinə yetirilib-yetirilmədiyini yoxlamaq üçün həyata keçirilir. Bunu iştirakçıların ifadələrində görmək olar. "Onlar bizə son rəylərini aktlaşdırıb göndərirlər və biz vaxt qoyurlar, 6 ay vaxt qoyulan tələblər var ki, biz onu icra etməliyik, 1 il müddətinə qoyulan tələblər var ki, biz onu icra etməliyik" (C2).

"Onların qoyduğu tələbi yerinə yetirəndən sonra təsdiqedici sənədləri onlara göndərəcəyik, onlar o təsdiqedici sənədləri yoxlayacaqlar, əgər yetərli saysalar bura nümayəndə göndərməyəcəklər, yox yetərli saymasalar nümayəndə göndərəcəklər" (C1). Bu ifadə onu

göstərir ki, təsdiqedici sənədlər meyarlara uyğun olduqda, təkrar sahə monitorinqinə gəlməyə ehtiyac qalmır. Ekspert kimi iştirak edən F1 bu məsələyə fərqli aspektdən baxıb "Əsas problem odur ki, onlar monitorinqi, yəni prosesin izlənilməsini axıra qədər həyata keçirmirlər. Axı onlar tövsiyələr verirlər? Elə tövsiyə var bir il ərzində icra olunmalıdır, elə tövsiyələr var ki, iki il ərzində. Onlar tövsiyələrin yerinə yetirilməsini yoxlamadan necə qabaqcadan sertifikat verə bilərlər?" (F1). Ekspertlər öz müsahibələrində təkrar monitorinq aparılmamış akkreditasiya prosesini bitmiş hesab etmirlər. Buradan həm də aydın olur ki, tələblərin xarakterindən asıl olaraq onların icrası üçün müxtəlif müddətlər təyin edilir. Bu da agentliklərin müstəqilliyi ilə əlaqədardır, onlar ATM-lərlə müqavilə bağlayırlar və bu müqavilə hər iki tərəfin razılığı əsasında olur. Qeyd olunanları nəzərə alaraq demək olar ki, təkrar monitorinqdə əsas maraqlı tərəf ATM olmalıdır.

**Beynəlxalq proqram akkreditasiyasından sonra ATM-lərdə baş verən dəyişikliklər.**

Beynəlxalq proqram akkreditasiyasından sonra iştirakçıların dəyişiklik hesab etdikləri məslələrlə bağlı əldə olunmuş datanın məzmun təhlili nəticəsində orta çıxan kateqoriya və kodlar Cədvəl 10-da verilib.

**Cədvəl 10**

*ATM-lərdə baş verən dəyişikliklər.*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| İnstitusional dəyişikliklər | Struktur dəyişikliyi | 5 | ATM-4 | D1 |
| | | | ATM-2 | B3 |
| | | | ATM-2 | B4 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-4 | D2 |
| | Elmi inkişaf | 3 | ATM-3 | C2 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-4 | D1 |
| | İdarəetmədə dəyişiklik | 3 | ATM-1 | A1 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-2 | B1 |

| | | | | |
|---|---|---|---|---|
| | İnnovativ yanaşmalar | 3 | ATM-5 | E1 |
| | | | ATM-3 | C1 |
| | | | ATM-2 | B1 |
| | Akademik mobillik | 3 | ATM-5 | E2 |
| | | | ATM-1 | A1 |
| | | | ATM-3 | C1 |
| | Beynəlxalq əlaqələr | 7 | ATM-3 | C2 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-2 | B2 |
| | | | ATM-4 | D1 |
| | | | ATM-5 | E1 |
| | | | ATM-3 | C1 |
| | Əcnəbi tələbə qəbulu | 2 | ATM-4 | D1 |
| | | | ATM-2 | B1 |
| Tədrisdə keyfiyyət | Xarici ədəbiyyata inteqrasiya | 1 | ATM-4 | D2 |
| | Pedaqoji yanaşma | 1 | ATM-4 | D2 |
| | Müəllim fəaliyyəti | 4 | ATM-4 | D2 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-3 | C1 |
| | | | ATM-2 | B1 |
| | Qiymətləndirmə | 3 | ATM-2 | B1 |
| | | | ATM-4 | D1 |
| | | | ATM-1 | A1 |
| | Tədris proqramının və sillabusların təkmilləşdirilməsi | 6 | ATM-3 | C2 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-4 | D1 |
| | | | ATM-2 | B4 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-2 | B2 |
| | Dəyişiklik olmadı | 3 | ATM-2 | B2 |
| | | | ATM-3 | C1 |
| | | | ATM-2 | B3 |
| | Dəyişiklikdən məlumatsızlıq | 2 | ATM-5 | E1 |
| | | | ATM-2 | B3 |

| | | | | |
|---|---|---|---|---|
| Tələbələrin akademik göstəriciləri | Nəticə üçün kifayət qədər məlumat yoxdur | 3 | ATM-2 | B1 |
| | | | ATM-2 | B3 |
| | | | ATM-1 | A1 |
| | | | ATM-2 | B4 |
| | Göstəricilərin artması | 5 | ATM-5 | E2 |
| | | | ATM-5 | E1 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-2 | B2 |

| | | | |
|---|---|---|---|
| Göstəricilərdə fərq yoxdur | 4 | ATM-3 | C1 |
| | | ATM-3 | C2 |
| | | ATM-4 | D1 |
| | | ATM-5 | E1 |

Cədvəl 10-dan göründüyü kimi, beynəlxalq proqram akkreditasiyasından sonra iştirakçıların dəyişiklik hesab etdikləri məsələlərlə bağlı əldə olunmuş data institusional dəyişikliklər, tədrisdə keyfiyyət və tələbələrin akademik göstəriciləri 3 kateqoriya üzrə qruplaşdırılıb.

**İnstitusional dəyişikliklər.** D1, D2, B3, B4 və E2 kodlu iştirakçılar beynəlxalq proqram akkreditasiyasından sonra ATM-lərdə struktur dəyişikliyinin aparıldığın qeyd ediblər. İştirakçılar D1, E2 və B3 bunun yeni struktur bölməsinin yaradılması, birləşdirilməsi və ya ləğv edilməsi kimi qeyd ediblər. İştirakçı B3 bunu belə ifadə edib "struktur baxımından dəyişildi. Kafedralar ləğv olundu. Əvvəllər dekanlıq var idi indi yoxdur". İştirakçılar B3 və D2 struktur dəyişikliklərinin daha çox əlavələr və təkmilləşmə kimi olduğunu qeyd ediblər. İştirakçı D2 qeyd edib ki, "..əvvəl iyerarxik mərkəz var idi və hər şey oradan idarə olunurdu. İndi isə elə deyil, daha çox ixtisaslar özləri müstəqil bir formada işləyirlər". Qeyd olunmuş fikirlərə əsasən demək olar ki, beynəlxalq proqram akkreditasiyası nəticəsində 3 ATM-də struktur islahatları aparılıb.

İştirakçılardan 3 nəfəri dəyişikliyin elmin inkişafı istiqamətində baş verdiyini vurğulayıb. D1 kodlu iştirakçı simulyasiya mərkəzinin yaradılmasını, praktiki imtahanlar üçün şəraitin yaxşılaşdırılmasını, D2 kodlu iştirakçı xarici elmi jurnallarda dərc olunan məqalələrin sayının artırılmasını, C2 kodlu iştirakçı süni intellektdən istifadə və musiqi terapiyası kimi yeniliklər üzərində işlədiklərini qeyd ediblər. İştirakçı A1 və B1 idarəetmədə sahəsində aparılan dəyişiklik haqqında danışıblar. A1 kodlu iştirakçı qeyd edib "elmi rəhbərlərin qiymətləndirilməsini müəyyən bir formada saldıq. Yeni sorğunun linki birbaşa elmi rəhbərə gedir, o və biz görürük, başqa heç kim görmür". B1 kodlu iştirakçı isə 2030-cu ilə qədər olan strateji inkişaf planlarında idarəetmə ilə bağlı islahatların olduğunu qeyd edib. E2 sənədlərin

qaydasına salınmasından danışaraq qeyd edib ki, "son 5 ilə aid bütün təsdiqedici sənədləri tapmaq, toplamaq və sistemləşdirmək çox zaman və əziyyət tələb etdi. Lakin çox effektiv oldu, indi artıq hər şey sistemləşdirilib" (E2). İştirakçı B1 isə akkreditasiyadan sonra ATM-də sorğu mədəniyyətinin formalaşdığını qeyd edib. İştirakçılardan B1, C1 və E1 isə ATM-ə yeni yanaşmalar, yeni baxış aspekti gəldiyi fikrindədirlər. "Öz qazanında qaynamaq pis şeydir. Özümüz öz boşluqlarımızı görə bilmirdik. İndi isə özümüzə kənardan baxa bilirik" fikrini qeyd edən C1, tələbələrdən ibarət ekspert qrupunun yaradılmasını, onların praktiki təcrübələrin nəticələrinin, layihə təqdimatlarının, kurs işlərinin qiymətləndirilməsində iştirak edib, rəy vermələrini, kitabxanadan istifadə qaydalarını təkmilləşdirib müasir tələblərə uyğunlaşdırılmasını, nümunə kimi göstərib.

3 iştirakçılarının fikirlərinə əsasən, dəyişikliklərdən biri də akademik mobillikdir. Məsələn, iştirakçı E2 qeyd etmişdir ki, Ankara Universiteti və Varşava Texniki Universiteti ilə əməkdaşlıqlar davam etdirilir və bu istiqamətdə xarici mütəxəssislərin dəvət olunması və müəllimlərin xaricə göndərilməsi beynəlmilləşmə prosesini daha real edə bilər. Digər tərəfdən, A1 kodlu iştirakçı vurğulamışdır ki, "ən azından xarici ölkələrdən müəllimlərin ölkəyə gəlməsi əhəmiyyətli bir addımdır". İştirakçı C1 isə Qazaxıstanla müqayisədə Azərbaycanda akademik mobillik imkanlarının daha məhdud olduğunu qeyd etmişdir. "Onların daha geniş imkanları var, konkret proqramları var dövlət səviyyəsində, təhsil nazirliyi səviyyəsində. Akademik mobillik onlarda daha intensivdir, daha sıxdır" (C1).

Digər 7 iştirakçı isə beynəlxalq əlaqələr mövzusunda təcrübələrini paylaşıblar. İştirakçılar D2 və B1 əvvəlki illərdə klassik və ənənəvi sistemdən qaynaqlanan uyğunlaşma çətinliklərinin olduğunu, lakin hazırda bu problemlərin aradan qaldırıldığını və beynəlxalq inteqrasiyanın artmasının ATM-in inkişafına töhfə verdiyini vurğulamışdır. İştirakçı D1 isə strateji planlamaya dəyişikliklərin daxil edildiyini, beynəlxalq akkreditasiyadan keçdikdən sonra beynəlxalq layihələrdə, müsabiqələrdə iştirak etdiklərini və uğur qazandıqlarını bildirib.

Digər iştirakçı (C1) “Azərbaycan Rektorlar Konfransının yaradılması” (ECAR) və ENGAGE layihələrində iştiraklarından bəhs edib. ECAR layihəsi çərçivəsində ATM-lərin idarəetmə bacarıqlarını artırmaq üçün tədqiqat metodları üzrə təlimlərdə iştirak etdiklərini bildirib. “ENGAGE - Erasmus+ çərçivəsində Azərbaycan ATM-lərində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi layihəsidir (ENGAGE, 2024). C1 sahibkarlıq və innovasiya mərkəzo qurmaq və ya mövcud olanları inkişaf etdirmək məqsədi ilə bu layihədə iştirak etdiklərini qeyd edib. “Bu layihələr çərçivəsində biz çox getmişik müxtəlif ölkələrə Polşa, İsveç, Portuqaliya, Estoniya” (C1).

İştirakçı E1 isə RIBA akkreditasiyasından sonra Avropada yerləşən bir ATM-lə ikili diplom proqramlarının başlanıldığını və bunun nəticəsində beynəlxalq əlaqələrin daha da, genişləndiyini vurğulayıb. D1 və B1 isə ATM-ə qəbul üçün müraciət edən əcnəbi tələbə sayında artım olduğu fikrindədirlər. “Onlar ENQA-nın ya da, İAAR-ın saytlarına baxa bilirlər və görürlər ki, biz akkreditasiyadan keçmişik" (D1).

**Tədrisdə keyfiyyət.** İştirakçıların dəyişiklərlə bağlı ən çox qeydi tədrisin keyfiyyəti haqqında ediblər. Qeydlərdən biri ədəbiyyatla bağlıdır. İştirakçı D2 vurğulamışdır ki, “müəllimlər yeni yazılan dərsliklərdə xarici ədəbiyyata daha çox yer verir və köhnə təsnifatlara əsaslanmaqdan uzaqlaşırlar”. Eyni iştirakçı pedaqoji yanaşmalarda yeni metodlardan, interaktiv yanaşmalardan, layihə-əsaslı təlimdən istifadə olunduğunu qeyd etmişdir. “Tədrisin keyfiyyətini yoxlamaq üçün komissiyalar yaradılıb, hansı ki, bizə tövsiyə olunmuşdu. Bu komissiya yoxlama məqsədi ilə yox, uyğunsuzları aradan götürmək üçün, dəstək olmaq üçün yaradılmışdır” (D2).

Müəllim fəaliyyəti mövzusunda iştirakçılar təlimlərin intensivləşdiyini bildirmişlər. D2 və , B1 kodlu respondent kafedralarda pedaqoji hazırlıqla bağlı təlimlərin keçirildiyin qeyd ediblər. “400-dən çox müəllimə təlim metodları ilə bağlı çox geniş şəkildə təlimlər keçirik” (B1). İştirakçı C1 isə dünyaca tanınmış professoru tərəfindən universitet müəllimlərinə onlayn

seminarlar keçilməsinin təşkil edildiyini qeyd edib. İştirakçı E2 isə müəllimlərin diplomları beynəlxalq səviyyədə tanınan tələbələrə dərs keçdiyini və bu səbəbdən onların daha məsuliyyətli olduğunu ifadə edib.

Qiymətləndirmə ilə bağlı ifadələrdə də dəyişikliklər nəzərə çarpır. B1 kodlu iştirakçı yalnız qiymətləndirmə məsələsinə toxunulduğunu qeyd etsə də (B1), D1 kodlu iştirakçı praktiki bacarıqların müxtəlif formativ üsullarla qiymətləndirildiyini, məsələn, mini-klinik və ya dobs formatlarının tətbiq olunduğunu vurğulayıb A1 kodlu iştirakçı isə *inbound* və *outbound* testlərin tətbiq olunduğunu və magistr tələbələrinin qiymətləndirilməsində rubrikaların istifadə edildiyini əlavə etmişdir (A1).

İştirakçıların 6 nəfəri tədris proqramının və sillabusların təkmilləşdirilməsi mövzusunda fikir bildirmişdir. Bu mövzuda fikirlər müxtəlif istiqamətləri əhatə edir. C2 kodlu respondent proqramların çevik olmamasını tənqid edərək sillabusların hər il yeniləndiyini, lakin proqramların beş ildən bir dəyişdiyini bildirərək, mövcud qaydaların proqramların çevikliyini məhdudlaşdırdığını qeyd edib. D2 və D1 kodlu iştirakçılar isə sillabusların tamamilə yeniləndiyini, yeni fənlərin əlavə olunduğunu və yeni simulasiya mərkəzlərinin daha aktiv istifadəyə verildiyini qeyd ediblər. Digər iştirakçılar sillabuslara texniki vasitələrin, yeni metodların əlavə edildiyini (B4), proqramların məzmununun yeniləndiyini (E2) və bəzi istiqamətlərdə ad dəyişikliyinə doğru addımlar atıldığını (B2) vurğulayıblar.

Bəzi iştirakçılar isə dəyişikliklərin məhdud olduğunu bildirmişlər. Məsələn, B2 kodlu iştirakçı beynəlxalq proqram akkreditasiyasından sonra dərhal institusional akkreditasiyaya keçid etdiklərini və buna görə də böyük dəyişikliklərə ehtiyac olmadığını söyləmişdir. İştirakçı C1 isə müəllimlərin öz sahələrində peşəkar fəaliyyət göstərdiklərini, buna görə də proqram məzmununda ciddi dəyişikliklərin edilmədiyini vurğulayıblar (C1). B3 kodlu iştirakçı isə dərslərin əvvəlki qaydada davam etdiyini bildiriblər. Bəzi iştirakçılar isə (E1 və B3) dəyişiklərdən xəbərsiz olduqlarını qeyd ediblər.

**Tələbələrin akademik göstəriciləri.** Aparılan müsahibələrdə tələbələrin akademik göstəriciləri ilə bağlı bəzi iştirakçılar hələ bu barədə danışmağın tez olduğunu bildiriblər. Məsələn, B1 kodlu iştirakçı akkreditasiya hesabatının cavabını və tövsiyələri yeni aldıqlarına diqqət çəkərək qeyd etmişdir ki, "cavabı hələ bir ay-iki aydır almışıq. Böyük ehtimalla bu göstəricilər növbəti ildən başlayacaq dəyişməyə". Oxşar fikri A1 və B4 kodlu iştirakçılar da səsləndirərək, tələbələrin akademik nəticələri barədə danışmağın hələ tez olduğunu vurğulayıblar. Eyni zamanda, B3 kodlu iştirakçı yalnız tələbələrin imtahan nəticələrinin təhlili əsasında dəqiq nəticə əldə etməyin mümkün ola biləcəyini, imtahanların isə tədris ilinin sonunda olacağını söyləyib.

Digər tərəfdən, akademik göstəricilərin artması barədə müsahiblərin bir qismi (B1, B2, E1, E2, D2) müsbət müşahidələrini bölüşmüşdür. E2 kodlu iştirakçı vurğulayıb ki, əvvəlki illərlə müqayisədə tələbələrin təhsil göstəricilərində nəzərəçarpacaq yüksəliş vardır. Onun sözlərinə görə, əvvəllər tədris keyfiyyətinin çox aşağı faizlə ölçüldüyü halda, hazırda bu göstərici əhəmiyyətli dərəcədə artmışdır. "Hiss olunur! Əmək bazarında tələbələrimizin tutduğu yerdən. Açın məşğulluq idarəsinin statistikasını baxın, 73%-dir bizim fakültənin payı". "Tələbələrin hamısı e-maildan istifadə etmirdi, indi isə hamısı e-maildan istifadə etməyə başlayınlar" (B1). Kodu D2 olan iştirakçı yeni tədris metodlarının tətbiqi nəticəsində tələbələrin dərs prosesinə daha asan uyğunlaşdıqlarını və praktik biliklərinin artdığını qeyd etmişdir. Bununla yanaşı, B2 kodlu iştirakçı "biz fərqi dissertasiya müdafiəsində görəcəyik" fikrini səsləndirib.

4 nəfər iştirakçı isə beynəlxalq proqram akkreditasiyasından sonra tələbələrin akademik göstəricilərində dəyişikliklərin müşahidə olunmadığını qeyd etmişdir. C1, C2, D1 və E1 kodlu iştirakçılar bu barədə hər hansı fərq hiss etmədiklərini açıq şəkildə ifadə ediblər. İştirakçı C1 "göstəricilərdə fərq yoxdur" deyə qeyd etmişdir.

**Tələbə məmnunluğu.**

Beynəlxalq proqram akkreditasiyasından sonra iştirakçıların tələbə məmnunluğu ilə bağlı əldə olunmuş tapıntıların məzmun təhlili nəticəsində orta çıxan kateqoriya və kodlar. Cədvəl 11-də verilib.

**Cədvəl 11**

*Tələbə məmnunluğu ilə bağlı tapıntılar.*

| Kateqoriyaya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Tələbə məmnunluğu | Dərslərdə həvəslə iştirak | 5 | ATM-2 | B1 |
| | | | ATM-4 | D1 |
| | | | ATM-2 | B2 |
| | | | ATM-1 | A1 |
| | | | ATM-2 | B3 |
| | Demokratik mühit | 3 | ATM-4 | D2 |
| | | | ATM-3 | C1 |
| | | | ATM-1 | A1 |
| | Beynəlmiləlləşmə | 3 | ATM-3 | C2 |
| | | | ATM-2 | B4 |
| | | | ATM-5 | E1 |
| | Dəqiq bilmirəm | 1 | ATM-5 | E2 |

Cədvəl 11-dən göründüyü kimi, beynəlxalq proqram akkreditasiyasından sonra tələbə məmnunluğu ilə bağlı əldə olunmuş data vahid kateqoriyada - tələbə məmnunluğu kateqoriyasında birləşdirilib.

Müsahiblərdən 5 nəfəri (A1, B1, B2, B3, D1) tələbələrin dərslərdə daha həvəslə iştirak etdiklərini, davamiyyət və maraqlarının artığını qeyd ediblər. İştirakçılardan biri qeyd edir ki, "...hətta bəzi valideynlərdən müsbət geri dönüşlər aldıq ki, övladları proses haqqında danışırlar, yeni yanaşmaların tətbiqi bizi sevindirir" (B2). Digər iştirakçı (B3) qeyd edib ki, "beynəlxalq proqram akkreditasiyasından sonra tələbələrin dərslərə qarşı məsuliyyəti və dərslərə davamiyyətləri artıb". İştirakçılardan 2 nəfəri (C2 və E1) tələbələrin təhsil aldıqları ixtisasların beynəlxalq səviyyədə tanınmasından məmnun olduqlarını qeyd edib, 1 nəfər isə " xarici ölkələrdə yerləşən nüfuzlu universitetlərin müəllimlərindən dərs almaq imkanı qazandıqları üçün çox məmnundurlar" (B4) fikrini söyləyib.

İştirakçılardan 3 nəfərinin (A1, C1 və D2) fikrincə tələbələrin ən çox məmnun qaldıqları məsələ tələbələr üçün yaradılmış demokratik mühitdir. “...ixtisasında təhsil alan tələblər hamısı arasında əvvəlcə sorğu keçiririk. O sorğular zamanı tələbələr etirazlarını, iradlarını, təkliflərini rahat şəkildə bildirirlər” (C1). Eyni iştirakçı həmçinin tələbələrdən ibarət gənc ekspertlər qrupu yaratdıqlarını və onların müzakirələrdə iştirak etmək və rəy vermək hüquqlarının olduğunu qeyd edib. A1 kodlu iştirakçı qeyd edib ki, “bizim universitetdə tələbə hökuməti var və tələbə hökumətinin də səsi dekanlar tərəfindən eşidilir”. İştirakçılardan biri (E2) isə tələbə məmnunluğunu heç bir halda müşahidə etmədiyini və ölçmədiyini qeyd etmişdir.

**ATM-lərin beynəlxalq proqram akkreditasiyası zamanı üzləşdiyi çətinliklər.**

İştirakçıların beynəlxalq proqram akkreditasiyası zamanı qarşılaşdıqları çətinliklərlə bağlı əldə olunmuş dataların məzmun təhlili nəticəsində orta çıxan kateqoriya və kodlar Cədvəl 12-də verilib.

**Cədvəl 12.**

*İştirakçıların Qarşılaşdıqları Çətinliklər*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Müəllimlərlə bağlı çətinliklər | Onlayn sorğularda iştirak | 2 | ATM-3 | C2 |
| | | | ATM-2 | B2 |
| | İnsan faktoru | 3 | ATM-2 | B2 |
| | | | ATM-4 | D2 |
| | | | ATM-3 | C2 |
| | Təlimlərdə iştirak | 1 | ATM-4 | D1 |
| | Xarici dil biliyi | 1 | ATM-2 | B1 |
| | Mühafizəkarlıq | 1 | ATM-4 | D2 |
| Təşkilati çətinliklər | Vaxt azlığı | 3 | ATM-3 | C2 |
| | | | ATM-2 | B4 |
| | | | ATM-4 | D1 |
| | Prosesin təşkili | 1 | ATM-3 | C2 |
| | Sənədləşmə | 1 | ATM-1 | A1 |
| | Hesabatların yazılması | 2 | ATM-2 | B2 |
| | | | ATM-4 | D1 |
| | Dəlillər və sübutlar | 1 | ATM-5 | E2 |
| | Tələbə məmnunluğu | 1 | ATM-5 | E2 |

| | | | | |
|---|---|---|---|---|
| Tələbələrlə bağlı çətinliklər | Tələbələrin qeyri-ciddi yanaşması | 1 | ATM-1 | A1 |
| | Məzunlarla iş | 1 | ATM-1 | A1 |

Cədvəl 12-dən göründüyü kimi, ATM-lərin beynəlxalq proqram akkreditasiyası zamanı qarşılaşdıqları çətinliklər müəllimlərlə bağlı çətinliklər, tələbələrlə bağlı çətinliklər və təşkilati çətinliklər olmaqla 3 kateqoriya üzrə qruplaşdırılıb.

**Müəllimlərlə bağlı çətinliklər.** ATM-lərin qarşılaşdıqları çətinliklərin bir qrupunun müəllimlərlə əlaqədar olduğu müəyyənləşib. Qeyd etmək vacibdir ki, burada müəllim dedikdə ATM-də pedaqoji fəaliyyətlə məşğul olan bütün şəxslər nəzərdə tutulur. Proses zamanı onlayn sorğuların və görüşlərin keçirilməsi zamanı çətinliklər yaşanıb. C2 "Çox çətindir müəllimləri qoşmaq. Bəzi müəllimlər yaşlıdır, qoşula bilmirlər onlayn görüşlərə. Telefondan sorğunu, sualları tapa bilmirlər", B2 kodlu iştirakçı isə narahatlığını belə ifadə edib "onlayn qoşulmalar var idi, biz narahat idik ki, birdən həmin vaxtında qoşulmaz, ya da platforma dözməz". Hər iki iştirakçı bunu həm də, yaş faktoru ilə əlaqələndirsələr də, B2, C2 və D2 kodlu iştirakçılar insan faktorunu önə çıxarıblar. İştirakçı D2 "insanlarla bağlıdır daha çox. Yəni, işi təzədən qurmaq və yeni üsulları, problem əsaslı, layihə əsaslı, onlar təzə olduğuna görə bəziləri öyrənmək istəmir, əziyyət çəkmək istəmir, çətinliklər oldu" fikrini səsləndirib. İştirakçılar B2 və C2-nin fikrincə isə bəzi müəllimlər qərəzli fikirlər dilə gətirirlər. "Hər bir cəmiyyətdə narazı insanlar var və narazı insanlar başlayır orada ağılına gələni yazmağa". Son iki fikir onu deməyə əsas verir ki, akademik heyətdə mühafizəkar müəllimlərin olması da, yeni yanaşmaların tətbiqində çətinlik yaradıb.

İştirakçı D1 bəzi müəllimlər proses zamanı tələb olunan təlimlərdə iştirakdan yayınırlar. "Təlimlərdə iştirakla bağlı çətinlik çəkdik. Bəzi müəllimlər könüllü şəkildə qoşulmaq istəmirlər". Mühafizəkar müəllimlər yanaşmalarını çətinlik kimi qiymətləndirən iştirakçı D2 "Hər bir yenilik əlbəttə ki, bir az problemlə rastlaşır. Məsəl üçün, deyirdilər ki, yüz ildir bunu belə tədris edirik, nəyə lazımdır bu sillabuslar?". İştirakçı B1 isə müəllimlərin xarici dil

biliklərinin olmamasını bu cümlə ilə çətinlik kimi qeyd etmişdir. "Ən böyük çətinliyimizin biri dil məsələsi oldu. Amma hamı rusca bilmirdi. Məcburən tərcüməçi tutduq."

**Təşkilati çətinliklər.** İştirakçı E2 monitorinqlər zamanı ATM daxilindəki fəaliyyətlərlə bağlı sənədlər, dəlillər və sübutlar tələb edilməsindən və bununla əlaqədar yaranan çətinlikdən bəhs edib.

> Çünki biz sənədləri qovluqlara yığmışıq burada, düşünürük ki, gələndə qoyacağıq qarşılarına göstərəcəyik. Onlar isə dedilər ki, yox, biz oraya heç gəlməyəcəyik. Biz harada görə bilərik onları? Bu, ən böyük çətinliyimizdir. Biz yüzlərlə, linklər yaradırdıq və sənədləri yükləyiridik ki, onlar görə bilsinlər.
> (E2).

İştirakçı E2 tələbə məmnunluğu ilə çətinliklərdən bəhs edərək qeyd etmişdir ki,

> Məsələn tələbələrlə, tədrisin keyfiyyəti ilə bağlı bir sorğu keçirmişik. Onlar soruşurlar ki, harada görə bilərik sorğunu necə keçirmisiniz?. Tələbələrlə iş, tələbə məmnunluğu, tələbəyönümlülük kimi məsələlər var. Biz hesab edirik ki, dekan olaraq mən tələbəyönümlüyəm, hamı bilir bunu. Onlar isə deyirlər – biz necə ölçək sizin tələbəyönümlülüyünüzü?
> (E2)

Digər bir çətinlik hesabatların yazılması və bu prosesin təşkili ilə bağlıdır. İştirakçı D1 qeyd etmişdir ki, "hesabatı tərtib edəndə, bu ilk dəfə olduğundan, hər şeyi bilmək istəyirdik ki, dəqiqliyi ilə düzmü yazılır? Sənədləşmə düzmü gedir?" İştirakçı B2 isə həm özünütəhlil hesabatından həm də, yekun hesabatdan bəhs edərək qeyd etmişdir - "Müxtəlif hesabatlar vardır ki, onların istədiyi formaya salmaq üçün onları yenidən işləmək lazım gəlirdi" İştirakçı A1 sənədləşmə işi ilə bağlı qeyd etmişdir - "çətinliklər çox oldu, çünki bizdə sanki hər şey var idi, lakin sənədləşməmişdi, proseduru izah edən bir sənədimiz yox idi veb saytda". Prosesin təşkili ilə əlaqədar yaranan çətinliyi iştirakçı C2 qeyd etmişdir - "müxtəlif strukturları təmsil edən insanları gətirib eyni vaxtda bir otağa yığmaq, çətin və mürəkkəb prosesdir". Bu çətinlik xüsusən də, bir neçə korpusdan ibarət müəssisələrdə daha çox özünü biruzə verir. Təşkilati çətinliklər içərisində ən çox qeyd edilən çətinlik vaxt azlığı ilə bağlıdır. C2, B4 və D1 kimi

kodlanmış iştirakçılar bu barədə danışıblar. İştirakçı D1 “hesabatların hazırlanması çox vaxt aparır”, iştirakçı C2 sorğu suallarını nəzərdə tutaraq qeyd edir - “suallar da, 50-60 dənə. Yəni, 2 saat vaxt itirir hər bir adam o suallara cavab verənə kimi..". İştirakçı B4 isə qeyd edib -"fənn proqramlarının syllabusları dəyişəndə, müəllimlərimiz ki, işləyirdi üzərində, vaxt baxımından mən narahat idim"

**Tələbələrlə bağlı çətinliklər.** Beynəlxalq akkreditasiya prosesi zamanı ATM-lərin qarşılaşdıqları çətinliklərin bir qisminin də, tələbələrlə bağlı olduğu müəyyənləşib. Proqram akkreditasiya prosesi zamanı tələbələrin də, sorğulara və müəyyən proseslərə cəlb edildiyi məlumdur. İştirakçı A1 bir çox hallarda tələbələrin prosesə qeyri-ciddi yanaşmasından və nəticədə yaranan çətinlikdən bəhs edib. "Tələbələrin bəziləri sorğuları sırf doldurum, tez bitirim deyə yanaşırlar, tam olaraq onun nəticələri nə dərəcədə doğruluq göstərir, onu demək çətindir". İştirakçı A1 davam edərək oxşar fikriləri məzunlar haqqında da qeyd edib və yaranan çətinliyi vurğulayıb. "Artıq tələbələr məzun olduqdan sonra onlardan o nəticələri yığmaq çox-çox çətindir. Bizim müvafiq şöbəmiz var, məzunlarla iş şöbəsi, çox əziyyət çəkirlər. Çox əziyyət çəkirlər, bir-bir zəng edirlər, xahiş edirlər, sorğunu doldurun və s.". C1, E1 və B3 iştirakçıları isə beynəlxalq proqram akkreditasiyası zamanı heç bir çətinliklə qarşılaşmadıqalrını qeyd ediblər.

**Alınmış tövsiyələr.**

Beynəlxalq proqram akkreditasiyasından sonra iştirakçıların aldıqları tövsiyələr barədə toplanmış məlumatların məzmun təhlili aparıldıqdan sonra ortaya çıxan kateqoriyalar və kodlar. Cədvəl 13-də verilib.

**Cədvəl 13.**

*ATM-lərin Aldıqları Tövsiyələr*

| Kateqoriya | Kod | Kodun tezliyi | ATM kodu | İştirakçı kodu |
|---|---|---|---|---|
| Proqramlar | Unikallıq | 2 | ATM-3 | C2 |

| | | | | |
|---|---|---|---|---|
| | | | ATM-3 | C1 |
| | Yeni fənlərin tədrisi | 3 | ATM-3 | C2 |
| | | | ATM-2 | B1 |
| | | | ATM-4 | D2 |
| | Proqramların təkmilləşdirilməsi | 4 | ATM-2 | B1 |
| | | | ATM-1 | A1 |
| | | | ATM-5 | E2 |
| | | | ATM-3 | C1 |
| | Proqramların məzmununda uyğunsuzluq | 2 | ATM-4 | D2 |
| | | | ATM-2 | B1 |
| | Qiymətləndirmə | 1 | ATM-2 | B1 |
| | Müasir təlim üsullarından istifadə | 2 | ATM-2 | B2 |
| | | | ATM-4 | D2 |
| Müəllimlər | Xarici müəllimlərin cəlbi | 1 | ATM-5 | E2 |
| | Müəllimlərin peşəkarlığının təkmilləşdirilməsi | 1 | ATM-4 | D1 |
| | Akademik mobillik | 1 | ATM-3 | C1 |
| | Müəllim-tələbə say nisbəti | 1 | ATM-1 | A1 |
| Tələbələrin iştirakı | Tələbəyönmlülük | 1 | ATM-4 | D2 |
| | Qərarvermədə tələbə təmsilçiliyi | 1 | ATM-2 | B1 |
| Struktur və idarəçilik | İctimaiyyətlə əlaqələrin təşkili | 1 | ATM-2 | B1 |
| | Sorğuların struktur bölmələrə uyğunlaşdırılmas | 1 | ATM-5 | E1 |
| | Struktur dəyişikliyi | 2 | ATM-2 | B2 |
| | | | ATM-5 | E1 |
| İnfrastruktur | Auditoriya fondunun genişlənməsi | 1 | ATM-5 | E2 |
| | Müəllim heyətinin artırılması | 1 | ATM-5 | E1 |
| | Yeni infrastruktur vahidlərinin yaradılması | 1 | ATM-3 | C2 |
| Daxili kommunikasiya zəifliyi | Heyətin məlumatsızlığı | 1 | ATM-2 | B4 |

Tövsiyələrlə bağlı əldə olunmuş data proqram, tədris, kadr potensialı, tələbələrin iştirakı, struktur və idarəçilik, infrastruktur, daxili kommunikasiya zəifliyi kateqoriyalarında birləşdirilib.

**Proqramlar.** İştirakçılardan 2 nəfəri (C1 və C2) verilən tövsiyələrin proqramların unikallığı ilə bağlı olduğunu qeyd ediblər. “Deyirlər ki, biz sizin proqramlarınızda unikallığı axtarırıq, özünəməxsus olmanızı istəyirik. Siz nə ilə seçilirsiniz?” (C2). İştirakçılardan 3 nəfəri isə (B1, C2, və D2) yeni ixtisasların (proqramların) tövsiyə aldıqlarını qeyd ediblər. B1 kodlu iştirakçı qeyd edib ki, magistratura ixtisaslarında ingilis dilində akademik yazını tədris etməyimizi tövsiyə ediblər”. İştirakçılar A1, B1, C1 və E2 proqramların təkmilləşdirilməsi ilə bağlı tövsiyə aldıqlarını qeyd ediblər. B1 kodlu iştirakçı bəzi proqramların əmək bazarının yeni tələblərinə

uyğun olaraq dəyişdirilməsini tövsiyə etdiklərini qeyd edib. 2 nəfər iştirakçı isə proqramların məzmunu ilə bağlı tövsiyə aldıqlarını qeyd ediblər. “Bəzi fənlər var idi, onlar düşünürdülər ki, bu fənlər o proqramın məzmununa uyğun deyil” (B1). D2 kodlu iştirakçı isə tələbə mübadilə proqramlarına qoşulan bəzi fənlərin krediti uyğun gəlmədiyi üçün məzmunun uyğunlaşdırılması kimi tövsiyə aldığını qeyd edib. Bu onu göstərir ki, xarici ölkə ATM-i ilə tələbə mübadilə proqramına qoşulmaq üçün, mübadilədə iştirak edəcək ixtisaslarda kredit həcmlərinin bərabər olması şərti vardır. İştirakçılardan 1 nəfər (B1) tövsiyənin fənlər üzrə qiymətləndirmə meyarlarına yenidən baxılması və müasir qiymətləndirmə üsullarının istifadə olunması barəsində olduğunu qeyd edib. İştirakçı (B2) seminarların daha müasir üsullarla və interaktiv formada keçirilməsi, iştirakçı (D2) isə tədrisin forması ilə, daha müasir təlim metodlarından istifadə olunması ilə bağlı tövsiyələrin olduğunu qeyd edib.

**Müəllimlər.** 4 nəfər müəllimlərlə bağlı tövsiyələrdən bəhs edib. E2 kodlu iştirakçı xarici müəllimlərin cəlbi ilə əlaqədar, D1 kodlu iştirakçı müəllimlərin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi istiqamətində təlimlərə cəlb olunması ilə əlaqədar, A1 kodlu iştirakçı müəllim-tələbə say nisbəti, həmçinin i fəlsəfə doktoru dərəcəsinə malik olan müəllimlərin say nisbəti kimi məsələlərdə tövsiyələr aldıqlarını qeyd ediblər. İştirakçı C1 isə akademik mobilliklə bağlı tövsiyədən bəhs edərək qeyd edib ki, “Bizim aldığımız ən əsas tövsiyə akademik mobilliklə bağlıdır. Tövsiyə etdilər ki, bu istiqamətdə daha çox cəhdlər eləməliyik”.

**Tələbələrin iştirakı.** İştirakçılardan biri (D2) tələbələrin öz istəklərini daha sərbəst şəkildə bildirmələri, irad və təkliflərinin bildirmələrinə şərait yaradılması ilə bağlı olduğunu və tələbələrə demokratik mühit yaradıldığını qeyd edib. İştirakçı B1 qeyd edir ki, universitetin bəzi qərarvermə proseslərində tələbə təmsilçiliyi ilə əlaqədar tövsiyə aldıqlarını qeyd edib. “8 standartda əla hesab etdikləri hissələr də var, müəyyən tövsiyələr elədikləri hissələr də var. Kollegial orqanlarda tələbələrin iştirakını daha da artırmaq, qərarvermə proseslərində təmsilçilik kimi tövsiyələr veriblər” (B1).

**Struktur və idarəçilik.** İştirakçı B1 ictimaiyyətlə əlaqələrin daha yaxşı təşkil olunmasını tövsiyə aldıqlarını qeyd edib. “Sizin ictimaiyyətlə əlaqələrdə problem var. Cəmiyyətdə düşünürlər ki, sizin universitetə aşağı balla da, daxil olmaq olur, tədrisin keyfiyyəti aşağıdır. Lakin daxildə vəziyyət əksini göstərir” (B1). E1 kodlu iştirakçı tövsiyələrin daxili sorğuların formatı ilə bağlı olduğunu qeyd edib. Onlar tövsiyə alıblar ki, hər struktur bölməsinin sorğuları fərqi formatda olmalıdır. Həmçinin iştirakçı E1 və digər iştirakçı (B2) müəssisənin struktur vahidlərinin dəyişdirilməsi, birləşdirilməsi və əlaqələndirlməsi ilə bağlı tövsiyələr haqqında qeyd ediblər. “İndi hal-hazırda bizim ATM-də təhsil proqramı anlayışı var, kafedra anlayışı yoxdur” (B2). Bu onu göstərir ki, ATM-də struktur elementləri yeni formatda təşkil olunub.

**İnfrastruktur.** İnfrastrukturun genişləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı müzakirələr müxtəlif istiqamətləri əhatə edir. İnfrastruktur kateqoriyasında iştirakçılar bir neçə əsas məsələyə diqqət çəkmişlər. 1 nəfər iştirakçı (E2) əsasən auditoriya fondu məsələsinə toxunaraq, “...gələcəkdə biz auditoriya fondumuzu genişləndirməliyik, müəllim sahəmizi artırmalıyıq” tövsiyyəsini aldıqlarını qeyd etmişdir. Digər bir iştirakçı (C2) isə, digər infrastruktur elementlərinin yaradılması ilə bağlı tövsiyələr aldıqlarını qeyd etmişdir. Bununla belə, bütün iştirakçılar bu cür tövsiyələrdən xəbərdar olmamışdırlar, çünki 1 nəfər iştirakçı (B4) hər hansı bir tövsiyədən xəbərsiz olduğunu bildirmişdir.

**İrad və təkliflər.**

Bu mövzuda beynəlxalq proqram akkreditasiyasından sonra iştirakçıların proseslə bağlı irad və təklifləri barəsində əldə olunmuş məlumatlar əks olunub. İştirakçılar B1 proses zamanı sənədləşmə işini çox olmasından şikayətlənərək, sənədləşmənin azaldılmasını təklif edib. “Mən sənədləşməni azaldılmasını təklif edirəm. Maddi sübut lazımdır həmişə, amma bu qədər də yox” (B1).

İştirakçılar D1 və C1 digər universitetlərə də, proqram akkreditasiyasından keçməyi tövsiyə ediblər. “Özlərini sınayıb keçsinlər. Xüsusi proqramlar olanda sizin təhsil prosesinizi,

qiymətləndirmə prosesinizi, xüsusi olaraq sizə qıraqdan bir baxış olur və siz artıq bəlkə nəyisə görə bilmirsiniz, onlar görə bilər, sizə tövsiyə edə bilərlər və siz keyfiyyəti gördüyünüz işi daha da keyfiyyətli edə bilərsiniz" (D1). C1 isə institusional akkreditasiyadan qabaq proqram akkreditasiyasından keçməyin daha faydalı olduğunu qeyd edib. "...çünki eyni zamanda institusional akkreditasiyaya da hazırlaşmış oluruq" (C1).

Ekspert F1-in fikrincə qanunvericilikdə müvafiq dəyişiklik edilsə TKTA-nın da xarici ölkələrdə akkreditasiya aparmasına imkan yaranar. Çünki, qanunda ölkə daxilində yazılıb, xaricində yazılmayıb" (F1).

## Müzakirə və nəticələr

### Müzakirə

**Əsas tapıntıların xülasəsi.**

Bu tədqiqatın data təhlili nəticəsində beynəlxalq proqram akkreditasiyası ilə bağlı 8 mövzu müəyyən edilib. Beynəlxalq proqram akkreditasiyası prosesində ATM-lər əsasən ENQA və CHEA standartlarına əsaslanan ixtisaslaşmış agentliklərlə əməkdaşlıq edirlər. Bu proses universitetlərdə həm institusional strukturu və beynəlxalq əlaqələri gücləndirir, həm də tədris keyfiyyətini və tələbə məmnunluğunu əhəmiyyətli dərəcədə artırır. Akkreditasiya zamanı ən çox rast gəlinən çətinliklər sənədləşmənin həddindən artıq çoxluğu, vaxt məhdudiyyəti, dil baryeri və bəzi müəllimlərin rəqəmsal sistemlərə uyğunlaşma problemləridir.

Prosesin sonunda proqram məzmununun müasirləşdirilməsi, pedaqoji metodların təkmilləşdirilməsi və infrastrukturun yaxşılaşdırılması üçün müvafiq tövsiyələr verilir. İştirakçılar sənədləşmə yükünün azaldılmasını və prosedurların sadələşdirilməsini təklif etsələr də, bu təcrübənin ümumi keyfiyyətə müsbət təsirini yüksək qiymətləndirirlər. Nəticə etibarilə,

beynəlxalq akkreditasiya ali təhsilin inkişafı üçün mühüm vasitə kimi digər müəssisələrə də tövsiyə edilir

**Ədəbiyyatla müqayisə**

Aparılan təhlil göstərir ki, ATM-lər beynəlxalq proqram akkreditasiyasını öz inkişafları baxımından mühüm hadisə hesab edirlər. Müsahibələrin məzmunundan göründüyü kimi, akkreditasiya təkcə xarici qiymətləndirmə aləti deyil, həm də daxili islahatların hərəkətverici qüvvəsi kimi çıxış edir. Belə ki, beynəlxalq proqram akkreditasiyası ATM-lərin strukturunda, idarəetmə sistemində, və tədrisin keyfiyyətində inkişafa səbəb olur. Bu da öz növbəsində Duarte və Vardascanın (2023) qeyd etdiyi - ATM-lərin və onların müvafiq proqramlarının keyfiyyətini təmin etməyə çalışan əsas proses akkreditasiyadır fikrini təsdiqləyir.

ATM-lərin beynəlxalq proqram akkreditasiyasına müraciət səbəbinin beynəlmiləlləşmə olması fikri, bütün iştirakçıların həmrəy olduqları fikirdir. Artıq ATM-lər beynəlxalq reytinq siyahısında irəliləmək, beynəlxalq rəqabətliliyin artırmaq, rəqabətə davamlı olmaq istəyirlər. Akademik mobillik, ikili proqramlar, diplomların beynəlxalq dərəcədə tanınması hazırkı dövrdə aktualdır. Bu yanaşma göstərir ki, Azərbaycan ali təhsil sistemi getdikcə bazaryönümlü və beynəlmiləl rəqabət kontekstində fəaliyyət göstərməyə başlayır. Bu fikirlər tədqiqatın nəzəri əsasını təşkil edən ATM-lərin beynəlmiləlləşmə nəzəriyyəsini (internationalization theory) təsdiqləyir. Bu De Wit (2020) və Knightın (2004) qeyd etdikləri, ATM-lərin beynəlxalq əməkdaşlıqları genişləndirmə cəhdlərinin, özünütəsdiq, xarici akkreditasiya və keyfiyyət təminatı mexanizmlərini təcrübə etmə maraqları ilə əlaqədar olması fikri ilə üst-üstə düşür. Bu həmdə ENQA-nın akkreditasiya vasitəsilə akademik fəaliyyətlərin şəffaflığını təmin etmək, diplomların beynəlxalq səviyyədə tanınmasını asanlaşdırmaq və tələbə mobilliyini təşviq etmək məqsədi ilə də, uyğunluq təşkil edir.

Bəzi iştirakçılar (məsələn, F1, F2) Kayyalinin (2023) xarici keyfiyyət təminatının akkreditasiya və qiymətləndirmə vasitəsilə ATM-lərdə hesabatlılıq, şəffaflıq və müqayisə imkanlarını təşviq edir fikri ilə razılaşmırlar. Onlar bu prosesin bəzən “formal xarakter”

aldığını, monitorinq mexanizmlərinin yetərincə davamlı olmadığını vurğulayıblar. Xüsusən də, təkrar monitorinqlər zamanı. Bu isə onu göstərir ki, xarici qiymətləndirmə sisteminin dayanıqlılığı daxili keyfiyyət mədəniyyəti ilə birbaşa əlaqəlidir.

Türkiyədə Işık və Beykoz (2018) tərəfindən aparılan tədqiqatın nəticəsində məlum olub ki, bəzi təhsil müəssisələri akkreditasiya proseslərinə strateji bir vasitə kimi yanaşmaq əvəzinə, yalnız formal tələbləri yerinə yetirməyə fokuslanır. Xüsusən də, ATM-lərdə akkreditasiya mədəniyyətinin tam formalaşmamasını və keyfiyyət təminatı proseslərinə bütün maraqlı tərəflərin, akademik və inzibati heyətin aktiv cəlb edilməməsini misal göstərmək olar. Bu tədqiqatda da, Işık və Beykozun gəldiyi nəticə ilə örtüşən fikirlər var. Bəzi iştirakçılar qeyd ediblər ki, beynəlxalq proqram akkreditasiyası hələ davamlı keyfiyyət təminatı mexanizminə çevrilməyib. Məsələn, təkrar monitorinq mərhələsində tövsiyələrin izlənməsi bəzən məhdud şəkildə həyata keçirilir və bu da prosesin effektivliyini zəiflədir.

İbad və Cavidan (2023) öz tədqiqatlarında, inkişaf etmək istəyən ATM-in həm öz daxilində, həm də, maraqlı tərəflərin nöqteyi-nəzərində özünü ölçmək istəyini və bunun əslində ATM-in keyfiyyət siyasətinin bir hissəsi olduğunu vurğulayıblar. İştirakçıların bir çoxu, (A1, D1, B1, B2, B3, D2) tələbə məmnunluğunun artmasını, dərslərdə iştirakın və marağın yüksəlməsini, ali təhsildə tələbəyönümlü tədrisin artıdığını qeyd edərək bu fikri təsdiqləyiblər. Burada tələbə maraqlı tərəfdir. Maraqlı tərəflərin iştirakı tələbi və demokratik mühit tələbələrin səsini qərarvermə prosesinə daxil etməyə imkan verir.

Müsahibələrdə qeyd olunan fikirlərdən aydın olur ki, akkreditasiya yalnız sertifikat alma prosesi kimi deyil, "özünütəhlil və inkişaf" mədəniyyətinin formalaşması kimi dəyərləndirildikdə daha təsirli olur.

Tədqiqat nəticələri həmçinin göstərir ki, beynəlxalq akkreditasiya təşkilati öyrənmə və idarəetmə islahatları üçün də əhəmiyyət daşıyır. Məsələn, bəzi universitetlərdə struktur bölmələrinin yenidən təşkili, idarəetmədə şəffaflığın artırılması və sənəd dövriyyəsinin

sistemləşdirilməsi müşahidə olunub. Bu dəyişikliklər Qərb universitet idarəçiliyi modelinə yaxınlaşma istiqamətində atılan addımlar kimi dəyərləndirilə bilər.

Prosesin istiqaməti proqram akkreditasiyası olsa da proses ATM-lərin keyfiyyət mədəniyyəti ilə yanaşı institusional inkişafına mühüm təsir göstərir. İştirakçıların ifadələrindən görünür ki, proses təkcə xarici sertifikat əldə etmək deyil, həm də özünütəkmilləşmə və beynəlxalq standartlara uyğunlaşma vasitəsidir (A1, B1, C2). Belə ki, prosesin təsirləri struktur dəyişikliyi, elmi inkişaf, idarəetmədə dəyişiklik, akademik mobillik, beynəlxalq əlaqələr, ədəbiyyat seçimi, pedaqoji yanaşma, müəllimlərin təkmilləşməsi, qiymətləndirmə, sillabusların təkmilləşməsi kimi məsələlərdə özünü göstərib. Bu nəticə mövcud Avropa Standartları və Təlimatlarında qeyd olunan beynəlxalq akkreditasiya vasitəsilə daxili keyfiyyətin gücləndirilməsi yanaşması ilə uzlaşır (ENQA, 2015).

Təhsil müəssisələri proqramlarını müəyyən edilmiş məqsədlərə nail olunduğuna və bu proqramların tələbələrin və cəmiyyətin ehtiyaclarına cavab verdiyinə əmin olmaq üçün mütəmadi olaraq izləməli (monitorinq etməli) və dövri şəkildə yenidən nəzərdən keçirməlidirlər. Bu baxışlar proqramın davamlı təkmilləşdirilməsinə gətirib çıxarmalıdır.
İştirakçılardan biri (D2) ATM daxilində tədrisin keyfiyyətini yoxlamaq üçün komissiyalar yaradıldığını və bu komissiyaların uyğunsuzları aradan götürmək üçün, dəstək olmaq üçün yaradıldığını qeyd edib. Digər iştirakçı (B1) isə müəllim heyətinin metodiki bacarıqalrını artırmaq üçün 400-dən çox müəllimə təlim metodları ilə bağlı təlimlər keçdiklərini qeyd edib. Bu fikirlər Kayyalinin (2023) müəllim heyətinin inkişafı, kurikulum dizaynı, özünüqiymətləndirmə proseslərinin ATM-lərin daxili keyfiyyət təminatını mütəmadi olaraq yaxşılaşdırır fikrini təsdiqləyir.

**Digər məsələlər**. Data təhlili zamanı akkreditasiya agentliyinin seçilməsi məsələsində ziddiyyətli fikirlərin yarandığı müşahidə olunur. TKTA Azərbaycanda ATM-ləri akkreditə edən yeganə qurumdur və Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs kimi

fəaliyyət göstərir . TKTA ölkə daxilində institusional akkreditasiya aparır, bu zaman seçmə proqramların da, akkreditasiyasını aparır və proqramın rəsmi şəkildə tanınmasını təmin edir. "Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramının nəticələri dövlət akkreditasiyası üçün nəzərə alınır. Ali təhsil proqramlarının akkreditasiyası yalnız Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Assosiasiyanın tam hüquqlu üzvü olan xarici keyfiyyət təminatı qurumları tərəfindən keçirilir" (Azərbaycan Respublikası Nazirlər Kabineti, 2020). Prosesin sonunda akkreditasiyanın nəticələri TKTA tərəfindən tanınmalıdır.

Müqayisə üçün bizimlə oxşar inkişaf yolunu keçən qonşu dövlət Rusiyaya baxaq. Hazırda Rusiyada iki əsas forma - dövlət akkreditasiyası və peşəkar-ictimai beynəlxalq akkreditasiya növləri mövcuddur. Dövlət akkreditasiyası Azərbaycanda olduğu kimi məcburi xarakter daşıyır, dövlət standartları əsasında aparılır və ATM-lərə rəsmi fəaliyyət hüququ verir (Российская Федерация, 2012, ст. 92). (kohnəlmiş) Peşəkar və beynəlxalq akkreditasiya isə tədris proqramlarının keyfiyyətini nəzarət, universitetlərin nüfuzunu və beynəlxalq tanınmasını artırır və könüllüdür.

Bütün bu məqamlar onu göstərir ki, beynəlxalq proqram akkreditasiyası Azərbaycan ali təhsil sistemində modernləşmə və beynəlmiləlləşmə proseslərinin aparıcı alətlərindən birinə çevrilməkdədir. Beynəlxalq səviyyədə mövcud olan rəqabətin Azərbaycanın təhsil sisteminə daşınması, bu sahədə inkişafa təkan verəcəkdir.

## Məhdudiyyətlər

Azərbaycanda oxşar mövzuda akademik araşdırmaya rast gəlinməməsi yerli konteksdə müqayisə aparılmasını çətinləşdirmişdir. Etik sözləşmə və konfidensiallıq barədə müsahiblərə məlumat verilsə də, müsahiblərin bir qismi müəyyən sualları cavablandırmaqdan yayındıqları müşhidə olundu. Məsələn maliyyə ilə bağlı sual cavabsız qalıb.

Bütün müsahiblərin sıx iş qrafiklərinin olması vaxtla bağlı müəyyən çətinlik yaradıb. Bu səbəbdən də, bəzi müsahibələr onlayn formatda həyata keçirilib. ATM-lərin beynəlxalq

proqram akkreditasiyası prosesi yeni tamamlandığından tələbələrin akademik nəticələri ilə bağlı ətraflı məlumat toplamaq mümkün olmayıb. Araşdırma zamanı beynəlxalq proqram akkreditasiyası üçün müraciət edən lakin uyğunluq sertifikatı ala bilməyən ATM-ləri müəyyən etmək mümkün olmayıb. Bu da, tədqiqat zamanı əldə edilən datanın zənginliyi baxımından məhdudiyyət hesab oluna bilər.

## Tövsiyələr

Tədqiqatın nəticələrinə əsasən aşağıdakı tövsiyələri təklif edilir.

- Gələcəkdə bu istiqamətdə aparılan tədqiqatlar konkret bir proqramın (ixtisasın) akkreditasiyası üzrə aparılsa daha effektiv ola bilər.
- Gələcəkdə bu istiqamətdə tədqiqat aparacaq şəxslər bütün maraqlı tərəfləri (rəhbər işçilər, tələbə, müəllim, valideyn, əmək bazarı, ekspertlər) seçmə qrupa daxil edə bilərlər.
- Gələcəkdə bu istiqamətdə tədqiqat aparılan zaman beynəlxalq proqram akkreditasiyası üçün müraciət etmiş lakin uğur qazana bilməmiş ATM-ləri də tədqiqata daxil edə bilərlər. Bu tədqiqatda yalnız akkreditasiyadan keçmiş ATM-lərin təcrübəsini öyrənildi.
- ATM-lərin institusional akkreditasiyadan keçdikdən sonra beynəlxalq proqram akkreditasiyasına müraciət etmələri tövsiyə olunur. Çünki sonda hər iki akkreditasiyasının nəticələrini TKTA tanıyıb, təsdiqləyir. ATM institusional akkreditasiya zamanı qazandığı təcrübəni beynəlxalq proqram akkreditasiyasında da uğurla istifadə edə bilər.
- Azərbaycanda yerli alternativ keyfiyyət təminatı agentlikləri olmalıdır ki, rəqabət yaransın. Bu agentliklər beynəlxalq status alaraq xaricə ölkələrin ATM-lərində proqram akkreditasiyası apara bilərlər və ölkə daxilinə yeni təcrübələr gətirə bilərlər.

## Nəticə

Bu tədqiqatın nəticəsində, ATM-lərin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələrin, proses zamanı keçdiyi mərhələlərin, qarşılaşdığı çətinliklərin öyrənilməsi məqsədinə çatılmışdır. Nəticələri daha yaxşı anlamaq üçün araşdırmanın tədqiqat suallarını xatırlamaq faydalıdır.

***ATM-lərin beynəlxalq proqramın akkreditasiyası ilə bağlı təcrübələri nələrdir?***

Bu tədqiqat sualına cavabı olaraq qeyd etmək olar ki, ATM-lər beynəlxalq arenada tanınmaq üçün akkreditasiya prosesində dünyada tanınmış təşkilatlara (ENQA, CHEA, IAAR) üz tutublar. Akkreditasiya meyarları ümumilikdə ENQA tərəfindən təsdiqlənmiş ümumi (ESG, 2015) və agentliyin təqdim etdiyi xüsusi meyarlara əsasən aparılıb. Proqram seçimində isə ATM-lər öz strateji inkişaf planlarına və hədəflərinə uyğun olaraq davranıblar. Burada həlledici amil proqramın (ixtisasın) ATM üçün vaciblik dərəcəsi olub (B1, B3, D1, D2, E2).

***ATM-lərin akademik və inzibati-idarəetmə heyəti beynəlxalq akkreditasiya prosesinin ATM-in fəaliyyətinə təsirləri barədə nə düşünürlər?***

Bu tədqiqat sualına cavabı belədir: Beynəlxalq proqram akkreditasiyası ATM-lərin strukturunda, idarəetmə sistemində, və tədrisin keyfiyyəti ilə yanaşı, təşkilati mədəniyyətində də, müsbət uyğunlaşmalar yaradır. ATM-lər beynəlxalq akkreditasiyaya öncəliklə beynəlxalq arenada tanınmaq, ikili diplom proqramlarına qoşulmaq, əcnəbi müəllimlərin və əcnəbi tələbələrin cəlbi üçün müraciət ediblər.

***Bu proseslərdə qarşıya çıxan əsas çətinliklər və imkanlar hansılardır?***

Bu tədqiqat sualının cavabı isə İştirakçıların qarşılaşdıqları çətinliklər müəllimlərlə, tələbələrlə və təşkilati məsələlərlə bağlı çətinliklərdir. Ən çox qeyd edilən çətinliklər sənədləşmənin çoxluğu, vaxt məhdudiyyəti, bəzi müəllimlərin mühafizəkarlığı və dil baryeri ilə bağlıdır.

Tədqiqatın nəticələri göstərir ki, beynəlxalq proqram akkreditasiyası ATM-lərin keyfiyyət təminatı sistemlərinin institusional səviyyədə güclənməsinə, beynəlmiləlləşmə proseslərinin intensivləşməsinə, akademik və idarəedici heyətin məsuliyyətinin artmasına səbəb olur. Həmçinin ATM-lərin bütün aspektdə özünü yenilənməsinə səbəbə olur, öz fəaliyyəti haqqında alternativ baxış bucağı qazanır, kəskin müşahidə olunmasa da tədrisin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Proses nəticəsində struktur dəyişiklikləri, tədris metodlarının yenilənməsi, müəllimlərin peşəkar inkişafı və tələbə məmnunluğunun artması müşahidə olunur. Proses nəticəsində ölkə daxilində ATM-lər arasında rəqabətlilik artır, beynəlxalq səviyyədə isə ATM-lərin tanınmasına gətirib çıxarır. Burada tanınma dedikdə həm bütövlükdə ATM-in tanınması, həm də, diplomların tanınması nəzərdə tutulub. Akademik mobillik artır, ATM-in ikili proqramlara və beynəlxalq layihələrə qoşulmaq imkanları artmış olur.

Eyni zamanda, akkreditasiya prosesi bir sıra çətinliklərlə müşayiət olunur: sənədləşmənin çoxluğu, vaxt məhdudiyyəti, dil baryerləri və bəzi müəllimlərin dəyişikliklərə müqaviməti. Buna baxmayaraq, ATM-lər beynəlxalq təcrübə qazanmaqla yanaşı növbəti akkreditasiyaya hazırlanmış olurlar. Bununla yanaşı beynəlxalq akkreditasiya Azərbaycan ali təhsil sistemində keyfiyyət mədəniyyətinin formalaşmasına və davamlı təkmilləşmə prosesinin təşviqinə real töhfə verir.

Araşdırmanın beynəlxalq akkreditasiya prosesində iştirak edən ATM-lərin inkişafına birbaşa töhfə verməsi, onlar arasında mövzuya dair qarşılıqlı təcrübə mübadiləsini təmin etmək potensialı, bu istiqamətdə elmi ədəbiyyat sayının artması onun əhəmiyyətini artırır.

TKTA dövlət tabeliyində fəaliyyət göstərən bir qurum olduğu üçün iş yükü baxımından yerli ATM-lərin institusional akkreditasiyasını yerinə yetirə bilir. Həmçinin TKTA Azərbaycanda yeganə akkreditasiya agentliyi olduğu üçün, proqram akkreditasiyasını seçmə

üsulla aparmağa məcburdur. Azərbaycanda yerli, alternativ, müstəqil keyfiyyət təminatı agentlikləri olmadığı üçün ali təhsil səviyyəsində rəqabətlilik zəifləyir.

## Ədəbiyyat siyahısı


Abbasov, İ. M., & Heydarov, C. R. (2023). Heydər Əliyevin təhsildə keyfiyyət siyasəti. *AUDIT, 1*(39), 5–12. https://doi.org/10.59610/bbu1.2023.5-12

ACBSP. (n.d.). *Accreditation standards*. https://acbsp.org/page/accreditation-standards

Accreditation Board for Engineering and Technology. (ABET) https://www.abet.org/

ADA (2024), International Program Accreditation, ACBSP https://www.ada.edu.az/en/schools/sb

ADA University. (2024, May 29). *Business programs of ADA University received accreditation by the Accreditation Council for Business Schools and Programs (ACBSP)*. Retrieved November 10, 2025a, https://www.ada.edu.az/en/news/655-business-programs-of-ada-university-received-accreditation-by-the-accreditation-council-for-business-schools-and-programs-acbsp

ADA University. (n.d.). *School of Business.* Retrieved, October 19, 2025b, https://www.ada.edu.az/en/schools/sb

Agencia Nacional de Evaluación de la Calidad y Acreditación (ANECA). (n.d.). *Inicio*. Retrieved November 10, 2025, https://www.aneca.es/en/aneca

AİA (2024), International Program Accreditation, EQAR. https://sport.edu.az/az/news/az-rbaycan-i-dman-akademiyasinin-proqramlari-beyn-lxalq-akkreditasiyadan-kecib/

Aktan, C. C., & Gencel, U. (2010). Yüksek öğretimde akreditasyon. Organizasyon ve Yönetim Bilimleri Dergisi, 2(2), 137-146.

Ansah, F. (2015). Conceptualising external and internal quality assurance in higher education: A pragmatist perspective. *International Journal of African Higher Education*, *2*.

Association to Advance Collegiate Schools of Business (AACSB). *Value of Accreditation – AACSB*. Retrieved November 18, 2025, https://www.aacsb.edu/educators/accreditation/value-of-accreditation aacsb.edu

ATHENA Grant & Support Office. (n.d.). *ATHENA Grant & Support Office*. Retrieved November 10, 2025, https://grantoffice.athenauni.eu/

Attia, A. S. (2019). International accreditation of architecture programs promoting competitiveness in professional practice. *Alexandria Engineering Journal*, *58*(3), 877-883.

ATU (2022), International Program Accreditation, IAAR. https://amu.edu.az/news/2869/atu-nun-tedris-proqramlari-beynelxalq-akkreditasiyadan-kecdi

Ayvaz, B., Kuşakçı, A. O., & Borat, O. (2016). Kalite güvencesi ve akreditasyon süreçleri. *İstanbul Ticaret Üniversitesi Mühendislik Fakültesi Endüstriyel Araştırma ve Gelişim Dergisi, 1*(1), 53-60.

Azərbaycan İdman Akademiyası. (2025, May 27). *Azərbaycan İdman Akademiyasının proqramları beynəlxalq akkreditasiyadan keçib*. Retrieved July 18, 2025, https://sport.edu.az/en/news/az-rbaycan-i-dman-akademiyasinin-proqramlari-beyn-lxalq-akkreditasiyadan-kecib

Azərbaycan Respublikası Nazirlər Kabineti. (2010aa). *Ali təhsil pilləsinin dövlət standartı və proqramı* [Qərar No. 75]. https://edu.gov.az

Azərbaycan Respublikası Nazirlər Kabineti. (2010b). *Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları* [Qərar No. 167]. https://e-qanun.az/framework/20089

Azərbaycan Respublikası Nazirlər Kabineti. (2010c). *Ümumi təhsil pilləsinin dövlət standartı və proqramı* [Qərar No. 103]. https://e-qanun.az/framework/19682

*Azərbaycan Respublikasının Nazirlər Kabineti. (2018, 18 iyul). Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin təsdiq edilməsi barədə Qərar (Qərar № 311). Baxılıb: 8 noyabr 2025,* https://e-qanun.az/framework/39622

Azərbaycan Respublikası Nazirlər Kabineti. (2020a, 18 iyul). *"Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarında dəyişiklik edilməsi barədə qərar (№ 262)*. https://e-qanun.az/framework/45113

Azerbaycan Respublikası Nazirlər Kabineti. (2020b, 29 sentyabr). *"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"-nın təsdiq edilməsi haqqında* [Qərar № 361]. E-Qanun.az. https://e-qanun.az/framework/46052

Azərbaycan Respublikası Nazirlər Kabineti. (2020c). *Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları* [Qərar No. 493]. https://e-qanun.az/framework/46460

Azərbaycan Tibb Universiteti. (2022, 4 fevral). *ATU-nun tədris proqramları beynəlxalq akkreditasiyadan keçdi. AMU News.* Baxılıb, 19 oktyabr, 2025, https://amu.edu.az/news/2869/atu-nun-tedris-proqramlari-beynelxalq-akkreditasiyadan-kecdi

Babbi, Ö. (2010). *Sosial Tədqiqatlar: Metod və Texnikalar* (tərcümə ed. A. Əliyev). Bakı: Təhsil

Bedoll, D., van Zanten, M., & McKinley, D. (2021). Tibbi təhsil akkreditasiyasında qlobal tendensiyalar. *Səhiyyə üçün İnsan Resursları* , *19* (1), 70.

Boletín Oficial del Estado. (2015, December 18). *Real Decreto 1112/2015, de 11 de diciembre, por el que se aprueba el Estatuto del Organismo Autónomo Agencia Nacional de Evaluación de la Calidad y Acreditación (Disposición 13780, núm. 302).* https://www.boe.es/boe/dias/2015/12/18/pdfs/BOE-A-2015-13780.pdf

Carvalho, N., Rosa, M. J., & Amaral, A. (2023). Sərhədlərarası ali təhsil və keyfiyyət təminatı. Sistematik ədəbiyyat icmalının nəticələri. *Beynəlxalq Təhsildə Araşdırmalar Jurnalı* , *27* (5), 695-718

CEA. (n.d.). *About CEA*. Retrieved, November 10, 2025, https://www.cea-accredit.org/about-cea

Christou, P. A. (2025). Looking beyond numbers in qualitative research: From data saturation to data analysis. *The Qualitative Report*, *30*(1), 3088-3100.

Cohen, L., Manion, L., & Morrison, K. (2017). Action research. In *Research methods in education* (pp. 440-456). Routledge.

Commission on English Language Program Accreditation. (n.d.). *About CEA*. CEA. https://www.cea-accredit.org/about-cea

Council for Higher Education Accreditation (CHEA) https://www.chea.org/

Council on Higher Education Accreditation. (2024). About Accreditation: The Quality of Higher Education Institutions and Programs. https://www.chea.org/about-accreditation

Council for Higher Education Accreditation. (n.d.). *About accreditation.* Retrieved, October 20, 2025, https://www.chea.org/about-accreditation

Council of Europe. (2025). European Higher Education Area. Council of Europe. Retrieved November 10, 2025, https://www.coe.int/en/web/higher-education-and-research/european-higher-education-area

Creswell, J. W. (2014). *Research design: Qualitative, quantitative, and mixed methods approaches* (4th ed.). SAGE Publications.

Çalışkan, G., & Maya, İ. Yükseköğretimde Kalite Güvence Sistemlerine Yönelik Karşılaştırmalı Analiz: Türkiye, Singapur Ve Yeni Zelanda Örnekleri. Eyfor Xıı Tam Metinler, 31.

De Giovanni, P. (2024). The modern meaning of "quality": analysis, evolution and strategies. *The TQM Journal*, *36*(9), 309-327.

De Wit, H. (2020). *Internationalization of higher education: The need for a more ethical and qualitative approach*. Journal of International Students, 10(1), i-iv. https://doi.org/10.32674/jis.v10i1.1893 ojed.org+1

Duarte, N., & Vardasca, R. (2023). Literature review of accreditation systems in higher education. *Education Sciences*, *13*(6), 582.

Dugarova, D. T., Starostina, S. E., Bazarova, T. S., Vaganova, V. I., & Fomitskaya, G. N. (2016). Quality assurance as internal mechanism of increasing the competitiveness of the higher education institution in the context of international integration. *Indian Journal of Science and Technology*, *9*(47), 109082-109082.

EFMD Global. (n.d.). *EFMD Global – driving excellence in management development*. Retrieved, November 10, 2025, https://www.efmdglobal.org/

Efremova, N., & Tabishev, T. (2020). International criteria for assessment of accreditation of educational activities. *E3S Web of Conferences, 180*, 70. https://doi.org/10.1051/e3sconf/202018070

ENGAGE. (2024). *Homepage*. Baxılıb, 9 noyabr 2025, https://engage.edu.az/2024/

ENQA. (2021). *Guidelines for ENQA Targeted Reviews*. Brussels, Belgium: ENQA. https://enqa.eu

ENQA. Membership Database Azerbaijan. https://www.enqa.eu/membership-database/countries/azerbaijan/

Erdamar, G., & Barası, M. (2021). 21-ci Əsr Bacarıqları Aspektində Orta Məktəb Türk Dili Kursu Kurikulumu. Türk Təhsil Elmləri Dergisi, 19(1), 312-342. https://doi.org/10.37217/tebd.868788

European Association for Quality Assurance in Higher Education. (n.d.). *ENQA: Advancing quality in European higher education*. https://www.enqa.eu/

European Association for Quality Assurance in Higher Education (ENQA),

European Students' Union (ESU), European University Association (EUA), & European Association of Institutions in Higher Education (EURASHE). (2015). *Standards and guidelines for quality assurance in the European Higher Education Area (ESG)*. Brussels, Belgium: ENQA. https://enqa.eu

European Association for Quality Assurance in Higher Education (ENQA), European Students' Union (ESU), European University Association (EUA), & European Association of Institutions in Higher Education (EURASHE). (2015). *Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG)*. Brussels, Belgium. https://www.enqa.eu/wp-content/uploads/2015/11/ESG_2015.pdf

European Foundation for Management Development (EFMD) https://www.efmdglobal.org/

European Quality Assurance Register for Higher Education (EQAR). (n.d.). *Close-up*. November 10, 2025, https://www.eqar.eu/about/close-up/

European Quality Assurance Register for Higher Education. (2025). *Database of External Quality Assurance Results (DEQAR): Search results for institutions — Azerbaijan* [Online database]. Retrieved November 25, 2025, https://www.eqar.eu/qa-results/search/by-institution/?ordering=name_sort&country=11&limit=100&offset=0#search-offset

Fernandes, E. M., Almeida, L., & Mourão, J. (2007). Inclusive university education viewed by the non-disabled students. *The International Journal of Diversity in Organisations, Communities and Nations, 7*(1). https://www.diversity-journal.com

Göçen, A., & Aslan, O. (2021). Yükseköğretimde kalite yönetimi: Harran Üniversitesi örneği. *Ulusal Eğitim Akademisi Dergisi, 5*(1), 148-159. https://doi.org/10.32960/uead.894805

Grek, S. (2024). *The new production of expert knowledge: Education, quantification, and utopia*. Palgrave Studies in Science, Knowledge and Policy. https://doi.org/10.1007/978-3-031-46606-9

Hou, A. Y. C., Tao, C. H. Y., Zhou, K. Z. W., Lin, A. F. Y., Su, E. H. C., & Chen, Y. (2024). Evolution of quality assurance in higher education from INQAAHE GGP to ISGs–Are quality assurance agencies in Asia ready to the emerging modules?. *Journal of International Cooperation in Education*, *26*(1), 85-100.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (n.d.). *Beynəlxalq keyfiyyət təminatı agentlikləri tərəfindən həyata keçirilən proqram akkreditasiyalarının nəticələrinə baxılıb*. TKTA.

https://www.tkta.edu.az/p/news/c/beynelxalq-keyfiyyet-teminati-agentlikleri-terefinden-heyata-kecirilen-proqram-akkreditasiyalarinin-neticelerine-baxilib

Hudzik, J. K. (2011). Comprehensive internationalization. *Washington, DC: NAFSA, The Association of International Educators*.

IAAR. (n.d.). Accreditation. Retrieved, November 10, 2025, https://iaar.agency/accreditation/en

Independent Accreditation and Rating Agency (IAAR). (n.d.). *Standards*. https://iaar.agency/iaar/standarty-naar/en

Independent Agency for Accreditation and Rating. (n.d.). *Independent agency for accreditation and rating*. https://iaar.agency/iaar/nezavisimoe-agentstvo-akkreditacii-i-rejtinga/en

International Accreditation Forum. (n.d.). *About IAF*. Retrieved November 10, 2025, https://iaf.nu/en/about/

International Association of Universities (IAU) https://iau-aiu.net/

International Association of Universities. (n.d.). *About IAU*. Retrieved, November 10, 2025, https://iau.global/

International Network for Quality Assurance Agencies in Higher Education. (n.d.). *Mission, values and purposes*. Retrieved November 18, 2025, https://www.inqaahe.org/about-us/mission-values-and-purposes/

International Network for Quality Assurance Agencies in Higher Education. (2022). *International standards and guidelines for quality assurance in tertiary education* (ISG).https://www.inqaahe.org/wp-content/uploads/2024/05/INQAAHE-International-Standards-and-Guidelines-ISG.pdf

Işık, S., & Beykoz, S. Y. (2018). Türk yükseköğretiminde yeni bir arayış: Kalite güvence sistemi. *Kastamonu Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 20*(3), 7-22.

Japan University Accreditation Association (JUAA) https://www.juaa.or.jp/en/outline/greeting/

Japan University Accreditation Association. (n.d.). *About JUAA*. Retrieved, November 10, 2025, https://www.juaa.or.jp/en/

Juran, J. M. (1999). Juran's quality handbook.

KARIC - Korea Academic Recognition Information Center https://www.karic.kr/com/cmm/EgovContentView.do?menuNo=1010101000&lang=eng

Kayyali, M. (2023). An overview of quality assurance in higher education: Concepts and frameworks. *International Journal of Management, Sciences, Innovation, and Technology (IJMSIT)*, *4*(2), 01-04.

Kılıçaslan, Ç. (2020). Accreditation in higher education. *Peyzaj - Eğitim, Bilim, Kültür ve Sanat Dergisi, Special Issue*, 10-18.

Knight, J. (2004). *Internationalization remodeled: Definition, approaches, and rationales*. Journal of Studies in International Education, 8(1), 5-31. https://doi.org/10.1177/1028315303260832 journals.sagepub.com+2scispace.com+2

Korea Academic Recognition Information Center. (n.d.). *About KARIC*. Retrieved, November 10, 2025, https://www.karic.kr/index.do?lang=eng

Kumar, A., Gawande, A., Kale, S. K., Agarwal, A., Brar, V., & Raibagkar, S. (2025). The impact of an effective academic audit on accreditation performance. Quality Assurance in Education.

Kumar, P., Shukla, B., & Passey, D. (2020). Impact of accreditation on quality and excellence of higher education institutions. *Investigación Operacional*, *41*(2), 151-167.

MacKenzie Jr, W. I., Scherer, R. F., Wilkinson, T. J., & Solomon, N. A. (2020). A systematic review of AACSB International accreditation quality and value research. *Journal of Economic and Administrative Sciences*, *36*(1), 1-15.

Martin, J., Elg, M., & Gremyr, I. (2025). The many meanings of quality: towards a definition in support of sustainable operations. *Total Quality Management & Business Excellence*, *36*(3-4), 185-198.

Martin, M. (2018). *Internal Quality Assurance: Enhancing higher education quality and graduate employability*. UNESCO.

Mazman oktyabr 2025, https://tkta.edu.az/p/akkreditasiya-hesabatlari

Michael, J. N. (2017). Academic Audit–A Scaffolding of Quality Assurance. In Justin Nelson Michael (2017, January). Academic Audit–A Scaffolding of Quality Assurance. Keynote Address delivered at NAAC Sponsored National Conference on Academic and Administrative Audit for Quality Enhancement at St. Joseph's College, Autonomous, Irinjalakuda, Kerala.

Mukanova, S., Abildina, S., & Mukhatayev, A. (2024). Organızatıon Of Internal Qualıty Assurance Systems As A Construct Of The Natıonal Qualıty Assurance System: Practıce Of Kazakhstanı Unıversıtıes. Научно-аналитический журнал" Высшая школа Казахстана", 46(2).

Mukanova, S., Abildina, S., & Mukhatayev, A. (2024). Organization Of Internal Quality Assurance Systems As A Construct Of The National Quality Assurance System: Practice Of Kazakhstani Universities. Научно-аналитический журнал" Высшая школа Казахстана", 46(2).

Nassehi, A., Ghiasvandian, S., Mahmoodi, P., & Arbabisarjou, A. (2018). A review on the position of the internal evaluation in quality assurance. *Drug Invention Today*, *10*(5), 839-43.

National Research University Higher School of Economics. (n.d.). *Accreditation of educational programmes offered by HSE University*. HSE University. Retrieved November 26, 2025, https://www.hse.ru/en/info/accreditation/

Nguyen, L. T. M., Tran, T., Van Pham, T., Nguyen, T. T., Le, H. T. T., Trinh, T. T. P., & Nghiem, T. T. (2021). Factors affecting successful quality assurance implementation in Vietnamese higher education: A qualitative study. *The Qualitative Report*.

OECD -The Organisation for Economic Co-operation and Development https://www.oecd.org/en/about.html

Özçiçek, Y., & Karaca, A. Yükseköğretim Kurumlarında Kalite Ve Akreditasyon: Mühendislik Eğitim Programlarının Değerlendirilmesi1. Uluslararası İktisadi Ve İdari Bilimler Dergisi.

Özen, E. (2022). Yükseköğretimde kalite güvencesi ve akreditasyon: Açık ve uzaktan eğitim. Açıköğretim Uygulamaları ve Araştırmaları Dergisi, 8(1), 87-93.

Rafid, M. (2023). Relationship analysis and concept of human capital theory and education. *EDUCATUM: Scientific Journal of Education, 1*(1), 26–31.

Raikou, N. (2019). Teacher Education at the forefront: Long-term study through the prism of University Pedagogy and Transformative Learning theory. *European Journal of Education Studies*.

Royal Institute of British Architects (RIBA). (n.d.). *House of Architecture*. https://www.architecture.com/about/House-of-Architecture

Señal, N. C., González, C. R., Fischer, F. P., Hansen, S. P., & Ponds, H. (2008). Internal Quality Assurance and the European Standards and Guidelines. In ENQA Workshop report (No. 7).

Stars Rating System (QS) https://www.topuniversities.com/

Şahbazov, İ. (2019). *Tədqiqat metodları*. Teas Press.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (2024). *İllik hesabat* [PDF]. Baxılıb, 3 noyabr 2025a, https://tkta.edu.az/files/45/1/12/13/123/b%C3%BClleten/%C4%B0llik%20hesabat%20SON.pdf

Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA). (n.d.). *Akkreditasiya hesabatları*. Baxılıb, 3 noyabr 2025b, https://tkta.edu.az/p/akkreditasiya-hesabatlari

Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA). (n.d.). *Beynəlxalq keyfiyyət təminatı agentlikləri tərəfindən həyata keçirilən proqram akkreditasiyalarının nəticələrinə baxılıb*. Retrieved November 10, 2025c, from https://tkta.edu.az/tkta-app-

v2/public/index.php/p/news/c/beynelxalq-keyfiyyet-teminati-agentlikleri-terefinden-heyata-kecirilen-proqram-akkreditasiyalarinin-neticelerine-baxilib

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (2025, 23 iyun). *TKTA tərəfindən BDU-da ATM-lər üçün "Keyfiyyətə Doğru Addım: Akkreditasiya Prosesinə Hazırlıq" seminari keçirilib*. Baxılıb, 3 noyabr 2025d, https://tkta.edu.az/p/news/c/tkta-terefinden-bdu-da-ali-tehsil-muessiseleri-ucun-keyfiyyete-dogru-addim-akkreditasiya-prosesine-hazirliq-seminari-kecirilib

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (n.d.). *Akkreditasiya prosesi,* Baxılıb, 18 may 2025e, https://www.tkta.edu.az/p/get-accredited

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (n.d.). *Akkreditasiya*. TKTA. Retrieved December 26, 2025f, from https://www.tkta.edu.az/p/get-accredited

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (n.d.). *Beynəlxalq keyfiyyət təminatı agentlikləri tərəfindən həyata keçirilən proqram akkreditasiyalarının nəticələrinə baxılıb.* Baxılıb, 19 oktyabr, 2025g, https://www.tkta.edu.az/p/news/c/beynelxalq-keyfiyyet-teminati-agentlikleri-terefinden-heyata-kecirilen-proqram-akkreditasiyalarinin-neticelerine-baxilib

Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (n.d.). *Xəbərlər*. https://tkta.edu.az/p/news/

Toprak, E., & Sakar, A. N. (2020). Need for accreditation agencies as stakeholders in open and distance learning: Case of "AUDAK" in Turkish higher education system. Turkish Online Journal of Distance Education (TOJDE), IODL–Special Issue(Article 3).

Ulker, N., & Bakioglu, A. (2019). An international research on the influence of accreditation on academic quality. Studies in Higher Education, 44(9), 1507-1518.

UNESCO  https://www.unesco.org/en/brief

William, F. K. (2024). İnterpretivizm və ya konstruktivizm: Sosial elm tədqiqatlarında tədqiqat paradiqmalarında naviqasiya. *İnterpretivizm və ya konstruktivizm: Sosial elm tədqiqatlarında tədqiqat paradiqmalarında naviqasiya* , *143* (1), 5-5.

World Federation for Medical Education. (n.d.). *Standards*. https://wfme.org/standards/

World Federation for Medical Education. *About – The World Federation for Medical Education*. Retrieved November 10, 2025, https://wfme.org/about-wfme/

Yöntem, E., & Mazman, İ. (2023). Uluslararası bakış ile yükseköğretimde kalite güvencesinin gelişimi. *Ekonomi İşletme Siyaset ve Uluslararası İlişkiler Dergisi, 9*(1), 37-49.

Манарбек, Г., Кондыбаева, С., & Челетти, Д. (2018). THE ROLE OF INTERNATIONAL ACCREDITATION IN QUALITY ASSURANCE OF HIGHER EDUCATION. *Journal of Economic Research & Business Administration*, *123*(1), 47-58.

Мирзаева, Ф., & Хошимов, Ш. (2024). Показатели Качества Обеспечения Качественного Образования в Системе Высшего Образования. Modern Science and Research, 3(5).

Российская Федерация. (2012, 29 декабря). *Федеральный закон "Об образовании в Российской Федерации" № 273-ФЗ* [Federal Law No. 273-FZ "On Education in the Russian Federation"]. Принят Государственной Думой 21 декабря 2012 г. Собрание законодательства Российской Федерации, 2012, № 53, ст. 7598. https://base.garant.ru/70291362/

## Əlavələr

**Əlavə 1.**

Müsahibə protokolu

| Müsahibə protokolu | |
|---|---|
| Mövzu: | “Ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri” |
| Tarix: | ....02.2025 |
| Məkan: | ................. Universiteti |
| Başlama və bitmə vaxtı: | ................ |
| İntervüer: | Namiq Aslanov |
| Müsahib: | ................... |
| | |
| **Hazırlıq mahiyyətli suallar** | Mən Namiq Aslanov, ADA Universitetində magistr təhsili alıram. Sizinlə görüşümüz “ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri” adlı tədqiqat işi ilə əlaqədardır. Tədqiqatın məqsədi Azərbaycanda ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri öyrənməkdir. Qeyd etmək istərdim ki, iştirakçı kimliyi gizlədilməklə məxfilik qorunacaqdır. Müsahibə əsasında toplanmış məlumatlar təhlil edilərək magistr tezisində yer alacaqdır. Müsahibə təxminən 1 saat müddətində davam edəcəkdir. |
| | Zəhmət olmasa özünüzü təqdim edin. (cins................; Yaş.....................;) |
| | Bu vəzifədə nə vaxtdan işləyirsiniz? |
| | Pedaqoji təcrübəniz varmı? |
| | Beynəlxalq akkreditasiya prosesində sizin rolunuz nədir? |
| | |
| **Giriş hissə** | Beynəlxalq proqram akkreditasiyası hansı agentliklər tərəfindən aparılıb? |
| | Universitetinizdə beynəlxalq akkreditasiya üçün müraciət etdiyiniz proqramları hansı hansı meyarlar əsasında seçmisiniz? |
| | Ümumiyyətlə bu proses hansı mərhələlərdən ibarətdir və müraciət üçün hansı proseslərdən keçdiniz? |
| | Akkreditasiya hansı meyarlar əsasında aparılıb? |
| | Bu proses müddətində sizin rol və öhdəlikləriniz nələr idi? |
| | |
| **Əsas hissə** | Beynəlxalq proqram akkreditasiyasından keçmiş ixtisasda tədris aparırsınızmı? |
| | Akkreditasiyadan sonra hansısa institusional dəyişikliklər baş verdimi? |
| | Akkreditasiyadan sonra hansısa proqram və məzmunla bağlı dəyişikliklər baş verdimi? |
| | Bu dəyişikliklər tələbələrin akademik nəticələrinə necə təsir edir? |
| | Bəs ümumilkdə proqram üzrə pedaqoji yanaşmalarda və ya müəllimlərin fəaliyyətlərində hər hansı yeniliklər və ya uyğunlaşmalar olubmu? |

## Əlavə 2.

Etik sözləşmə formu

**Əlavə-2**

**Etik sözləşmə formu**

**Tətqiqatçı: Namiq Aslanov**

**Universitet: ADA Universiteti, təhsilin idarə olunması ixtisası.**

**Əlaqə nömrəsi: (070) 412 89 54**

**Elektron poçt: naslanov19014@ada.edu.az**

Mən, ADA Universitetinin magistratura tələbəsi Namiq Aslanov.

Bu sənədin məqsədi sizə mənim tədqiqat layihəm və layihədə iştirakla bağlı məlumat verməkdir. Bu layihə ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesi haqqındadır. Tədqiqatın məqsədi "Ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri" səbəbləri və həlli yollarını tapmaqdır. Sizin bu sahədə fikirləriniz və anlayışınız bir tədqiqatçı olaraq bzim üçün dəyərlidir.

Müsahibə zamanı zamanı sizə suallar verəcəyik və siz hər hansı suala cavab verib ya cavab verməməyi seçə bilərsiniz. Müsahibə təxminən 20-30 dəqiqə davam edəcək və müsahibə zamanı səs yazısı qeydə alınacaq və sonra yazıya köçürüləcək. Məlumat toplandıqdan sonra iştirakçıların adları kodlaşdırılacaq və iştirakçı kimliyi gizli saxlanılacaq. Təhlil olunan məlumatlar "Təhsil sistemlərində data əsaslı qiymətləndirmə və təkmilləşdirmə"dərsinə aid olan tapşırıqda istifadə ediləcək.

Bu emprik araşdırmada iştirak tamamilə könüllüdür və sizin üçün hər hansı bir risk yaratmır. İştirakınızı təsdiqləmək üçün bu etik sözləşmə formasını imzalamalı, həmçinin könüllü iştirakınızı şifahi şəkildə təsdiqləməlisiniz. Sizə yalnız rahatlıqla bölüşdüyünüz məlumatı paylaşmağınız tövsiyə olunur və məxfiliyiniz təxəllüslərdən istifadə etməklə qorunacaq. İstənilən vaxt tədqiqatdan geri çəkilməyi və araşdırmadan imtina etməyi seçə bilərsiniz.

Mən, ______________________________, bu tədqiqat layihəsində iştirakımı təsdiqləyirəm.

İmza______________________________

Mən, ______________________________, tədqiqat üçün səs yazımın qeydə alınmasına icazə verirəm.

İmza______________________________

## Əlavə 3.

İcazə məktubu (nümunə)

ADA UNIVERSITY

№ [redacted]

"3" fevral 2025-ci il

Azərbaycan Memarlıq və İnşaat Universitetinin
Tədris işləri üzrə prorektoru
cənab Akif Qasımova

Hörmətli Akif müəllim,

Nəzərinizə çatdırmaq istərdik ki, Aslanov Namiq Cavanşir oğlu ADA Universitetinin "Təhsilin idarə edilməsi" ixtisası üzrə magistr proqramında təhsil alır. Magistr proqramı çərçivəsində adı qeyd olunan tələbə "Ali təhsil müəssisələrinin beynəlxalq proqram akkreditasiya prosesləri ilə bağlı təcrübələri" mövzusunda tədqiqat işi həyata keçirir və bu mövzuda universitetin bu sahə üzrə məsul şəxsləri ilə müsahibə aparmaq istəyir.

Tədqiqatın aparılması üçün Aslanov Namiq Cavanşir oğluna şərait yaradılmasında köməklik göstərməyinizi Sizdən xahiş edirik.

Əməkdaşlığınıza görə təşəkkürümüzü bildiririk.

Hörmətlə,

Elkin Nurməmmədov
Akademik işlər üzrə prorektor